# AZƏRBAYCAN DİLİ

tədris dili

**DƏRSLİK**

# 4




1-ci hissə

 

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

RAFİQ İSMAYILOV, ÜLKƏR NURULLAYEVA, ŞƏHLA ZAHİDOVA,
İRADƏ BAYRAMOVA, AYSEL XANALIYEVA, KÖNÜL CƏLİLOVA

# AZƏRBAYCAN DİLİ 4

## (tədris dili)

Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün
Azərbaycan dili fənni üzrə dərslik
(1-ci hissə)

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**trm@arti.edu.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# Mündəricat

## 1 FƏRD VƏ TOPLUM




| Fəsillər | səhifə |
| --- | --- |
| Giriş | 6 |
| 1 • DOSTLUĞUN GÜCÜ | 8 |
| 2 • ÖZÜNƏ İNAN | 14 |
| 3 • ÜNSİYYƏT | 20 |
| 4 • HÜQUQLARIMIZ | 26 |
| Ümumiləşdirici təkrar | 31 |


## 2 QARABAĞ – ANA YURDUM


| Fəsillər | səhifə |
| --- | --- |
| Giriş | 32 |
| 1 • QARABAĞ XANLIĞI | 34 |
| 2 • YADDAN ÇIXMAZ QARABAĞ | 40 |
| 3 • QARABAĞ AZƏRBAYCANDIR! | 46 |
| 4 • QƏHRƏMANLARIMIZI TANIYAQ | 52 |
| Ümumiləşdirici təkrar | 57 |




## 3 SEVİMLİ QƏHRƏMANLARIM




| Fəsillər | səhifə |
| --- | --- |
| Giriş | 58 |
| 1 • VƏFALI DOST | 60 |
| 2 • DƏNİZ GÖZƏLİ | 66 |
| 3 • MACƏRALAR ALƏMİNDƏ | 71 |
| 4 • YENİLMƏZ QƏHRƏMANLAR | 77 |
| Ümumiləşdirici təkrar | 81 |


## 4 İŞARƏLƏR VƏ SİMVOLLAR


| Fəsillər | səhifə |
| --- | --- |
| Giriş | 82 |
| 1 • YAZIDA İŞARƏLƏR | 84 |
| 2 • MUSİQİDƏ İŞARƏLƏR | 90 |
| 3 • SİMVOLLAR | 95 |
| 4 • HƏYATIMIZDA İŞARƏLƏR | 102 |
| Ümumiləşdirici təkrar | 106 |
| İzahlı sözlük | 108 |




# Kitabınla tanış ol

**SÖZ BOĞÇASI**
Mövzu ilə bağlı yeni sözlər

• Söz boğçası •

- ataşkəs
- münaqişə
- modern
- müjdə
- taktika
- yenilməzlik

**YADDA SAXLA**
Nitq bacarıqları ilə bağlı yeni anlayışlar

• Yadda saxla • SİTAT

Mətndə başqa bir müəllifə aid olan sözlər **sitat** adlanır. Sitat dırnaq içərisində yazılır və onun müəllifi göstərilir.

**FAYDALI MƏSLƏHƏT**
Nitq bacarıqları ilə bağlı tövsiyələr

Faydalı məsləhət ELAN

**Elan, əsasən, hər hansı tədbir haqqında məlumat çatdırmaq məqsədi daşıyır.**
**Elan yazarkən:**
1. Məlumatın məzmunu aydın olmalıdır.
2. Tədbirin keçiriləcəyi vaxt və ünvan dəqiq göstərilməlidir.
3. Tədbirin təşkilatçısı haqqında məlumat verilməlidir.

**BUNLARI BİLMƏLİYİK**
Dil qaydaları ilə bağlı ümumi anlayışlar

• Bunları bilməliyik • ZƏRF

- **Zərf** – hərəkətin icra tərzini, zamanını, yerini, miqdarını bildirir.

**cəsarətlə** (necə?) danışmaq, **irəli** (hara) getmək
**hərdən** (nə vaxt?) görüşmək, **birə-beş** (nə qədər?) artırmaq

**A** **Sual sözlərini uyğun zərflərlə əvəz edib cümləleri köçürün.**

**dünən, həmişə, bir qədər, qəflətən, təəccüblə, yuxarı**

1. Əli (necə?) baxdı.
2. Körpə (necə?) yıxıldı.
3. O, (nə vaxt?) sərgiyə getdi.
4. İdmana (nə vaxt?) birlikdə gedirik.
5. Biz liftlə (hara?) qalxdıq.
6. Siz parkda (nə qədər?) gözlədiniz.

**B** **Aşağıdakı zərfləri cümlələrdə işlədin.**
*qəhrəmancasına, irəli, yavaş, yenə, sakitcə, bayaq, aşağı, dəfələrlə*

**C** **Hansı cümlədə "xeyli" sözü hərəkətin miqdarını bildirir?**

Süfrədə **xeyli** meyvə var. | Elvin bu səhər **xeyli** qaçdı.

**DİQQƏT ET**
Dil qaydaları ilə bağlı əlavə məlumatlar

• Diqqət et • SÖZLƏRDƏ BƏZİ SAİTLƏRİN YAZILIŞI

| | Doğru | Yanlış |
|---|---|---|
| ü, yoxsa u | nümayiş | numayiş |
| ü, yoxsa i | müdir | müdür |
| ə, yoxsa a | nəqərat | nəqarət |

# 1 FƏRD VƏ TOPLUM

**A** **Verilmiş ifadələrdən istifadə etməklə yay tətiliniz haqqında danışın.**
• oyun və əyləncələr • maraqlı hadisələr • yeni dostlar • oxuduğum kitablar

**B** **Qruplarla iş** **Şəkillərə baxın. Verilmiş başlıqlara uyğun mətn qurub təqdimat edin.**

I qrup: Biz mehriban dostlarıq.



II qrup: Yaxşı dost yaman gündə tanınar.



III qrup: İstirahət bizim haqqımızdır.



IV qrup: Biz birlikdə güclüyük!



## KÖRPƏ NƏĞMƏNİN NAĞILI

Bəstəkar xoşbəxtlik haqqında bir nəğmə bəstələdi. Son akkordları vurulan kimi Nəğmə özünə yuva axtarmaq üçün pəncərədən çölə uçdu. Günəşi, çölü, çəməni seyr edib düşündü:

– Dünya necə də gözəldir!

Bu vaxt havada dolaşan köhnə Nəğməyə rast gəldi. Ondan soruşdu:

– Sən harada yaşayırsan?

Qocaman Nəğmə gülümsədi: “Bizim evimiz xeyirxah insanların qəlbindədir”.

O bu sözləri deyib gözdən itdi.

Birdən “part” səsi eşidildi. Bu səs körpə Nəğməyə tanış deyildi. Musiqi notlarından fərqli olaraq kobud və qorxunc idi. Aşağı baxanda əlində tüfəng tutmuş bir kişi gördü.

**• Söz boğçası •**
• akkord • cürətlənmək • təbəssüm

– Eh, heyif ki, ceyran əti yeyə bilmədik, – deyə kişi hirslə tüfəngi yerə atdı.

Kolların arasında balaca bir ceyran gizlənmişdi. Nəğmə ceyrana yaxınlaşıb qulağını, boynunu oxşadı. Ceyran cürətləndi, gizləndiyi yerdən çıxıb qaçdı.



Körpə Nəğmə şəhərə yollandı.

Nəğmə şəhərə çatanda dondurma növbəsinə dayanan uşaqları gördü. Bir qız kənarda dayanıb ağlayırdı. Dondurma növbəsində duran oğlan ona yaxınlaşdı:

– Niyə ağlayırsan?

– Çörək almalıyam, amma pulu itirmişəm.

– Al bu pulu, çörək alarsan.

– Bəs sən dondurmanı necə alacaqsan?

– Eybi yoxdur. Bu gün dondurma yemərəm.

– Çox sağ ol. Ünvanını söylə, sabah pulunu qaytararam.

– Ünvanımı deyərəm, amma pulu qaytarmasan da olar. Bax o sarı binanın 164-cü mənzilində yaşayıram. Adım isə Anardır.

... Gecə düşəndə Nəğmə oğlanın yaşadığı binaya sarı uçdu. Yaddaşında yalnız 1, 4 və 6-cı notlar qalmışdı. O, "Do, fa, lya" oxuyaraq 146 nömrəli mənzili tapdı.

Meşədəki ovçu çarpayıda uzanıb xoruldayırdı. Nəğmə: "Vay-vay! Həmin qəddar adam!..", – deyib cəld evi tərk etdi. "Görünür, notların yerini səhv salmışam" – deyə düşündü.

O, notların yerini dəyişdi. Bu dəfə "Do, lya, fa" oxuyaraq 164-cü mənzilə gəldi. Həyətdə rastlaşdığı xeyirxah oğlan yorğana bürünüb yatırdı. Onun üzündə xoş bir təbəssüm var idi. Elə bil bu gün doyunca dondurma yemişdi.

Nəğmə sevinə-sevinə onun qəlbinə girdi. Rahatca uzandı və yuxuya getdi.

O, yaşayacağı yeri tapmışdı.

*Zahid Xəlil*

**C** **Mətnə əsasən cümlələrin ardıcıllığını müəyyən edin.**

1. Nəğmə şəhərə gəlir.
2. Körpə Nəğmə Anarı axtarıb tapır.
3. Ovçu ceyranı vurmaq istəyir.
4. Anar dondurma pulunu qıza verir.
5. Körpə Nəğmə özünə yuva axtarmağa başlayır.

**Ç** **Nəyə görə Körpə Nəğmə "Do, lya, fa" oxuyanda mənzili tapdı?**

**D** **Nə üçün Nəğmə ovçunun deyil, oğlanın qəlbində yuva qurdu?**

**E** **Sizcə, oğlan yatarkən nə üçün üzündə xoş təbəssüm var idi?**

**Ə** **Körpə Nəğməni eşitdiyiniz hansı nəğməyə bənzədərdiniz? O nəğməni ifa edin.**

fəsil 1

# DOSTLUĞUN GÜCÜ

**1 A** **“Bilməmək eyib deyil, soruşmamaq eyibdir” kəlamını izah edin. Bu fikrə münasibətinizi bildirin.**

## BİRİNCİ ADDIM
**1-ci hissə**

Vaqiflə bir məhəllədə yaşayırıq. Eyni sinifdə oxuyuruq. Çox vaxt dərsə də birlikdə gedib-gəlirik. Ya o məni çağırır, ya mən onu.

Bir səhər yenə mən onu səslədim. O özünü yetirdi:

– Gecikməmişik ki?



– Yox, hələ iyirmi dəqiqə var.

Birlikdə məktəbə tərəf yönəldik.

Yolda ondan soruşdum:

– Dərslərini öyrənmisən, Vaqif?

– Eh, haradan? Azərbaycan dilindən tapşırığa baxmağa heç vaxtım olmayıb.

Amma sən, yəqin, həmişəki kimi hamısını bilirsən. Başqa cür ola bilməz. Axı sinfimizin <u>gözü-sən</u>.

Vaqifin sözlərindən xoşlanmasam da, özümü o yerə qoymadım.

– İstəsən, sən də ola bilərsən.

– Eh, məndə o səbir hanı, oturum sənin kimi gecə-gündüz kitab oxuyum.

* * *

Dərsin başlanmasına bir neçə dəqiqə qalırdı. Məlum oldu ki, bəzi uşaqlar Azərbaycan dili dərsinə hazır deyillər. Ona görə də narahat idilər. Bir də gördüm uşaqlar ətrafıma yığışıblar. Dərsə aid suallar verməyə başladılar. Mən Vaqifi də çağırdım.

O, pəncərə qabağında durmuşdu, küçədən keçənlərə tamaşa edirdi. Mənim səsimə lovğalıqla əlini havada yellədi:



– Onları öyrət. Mən, necə olsa, çulumu sudan çıxara bilərəm.

Uşaqlardan hansısa onu sancdı:

– Birdən çulun ağır oldu, səni batırdı?!

– Öz dərdini çək, ey! Nə yaxşı ki Arif varmış, yoxsa nə edərdiniz?!

Mən sual və tapşırıqları izah elədim. Artıq sinifdə hamı dərsə hazır idi. Bircə dostum Vaqifdən savayı...

2-ci hissə

***

Dərs başlayan kimi müəllim Vaqifi lövhəyə çağırdı. Dostumun “yaman ilişdim...” sözləri aydınca eşidildi.

Mən ön sırada oturmuşdum. Vaqif mənə göz-qaş eləməyə başladı. Bu jestin mənasını başa düşmək çətin deyildi: “Arif, kömək elə, məni vəziyyətdən çıxart”. Bir sözlə, o istəyirdi ki, mən ona suflyorluq edim. Vaqifi indiyədək belə aciz görməmişdim.

Müəllim məsələni başa düşmüşdü. O bu dəfə məni çağırdı. Cavablarım müəllimin xoşuna gəldi. Məni xeyli təriflədi, Vaqifə nümunə göstərdi. Nədənsə mən dostumun yerinə utandım, sanki onun dərsə hazırlıqsız olmasında günahkar mən idim.

Dərs bitdi. Tənəffüsdə Vaqif məni acıladı:

– Bərk ayaqda səni yaxşı tanıdım. Bundan sonra mənim Arif adlı dostum yoxdur!

O gün ilk dəfə məktəbdən evə birlikdə qayıtmadıq. Yolboyu götür-qoy edirdim: “Niyə Vaqif məndən küsdü? Müəllimin gözü qabağında mən ona necə kömək edə bilərdim?! Axı mən dərsi uşaqlara izah edəndə onu da çağırdım. O isə lovğalanaraq əlini yellədi...”



**• Söz boğçası •**

- özünü o yerə qoymamaq
- çulunu sudan çıxarmaq
- göz-qaş eləmək
- suflyorluq
- aciz
- götür-qoy eləmək

## Nə anladın?

**B** **Mətnlə bağlı suallara cavab verin.**

1. Mətn kimin dilindən nəql edilir?
2. Uşaqlar nə üçün Arifin başına toplaşmışdılar?
3. Vaqif hansı çətinliklə qarşılaşdı?

## Düşün və cavab ver

**C** **Mətnin hissələrini uyğun yarımbaşlıqlarla adlandırın.**

**Ç** **Xüsusiyyətlərin Vaqifə və yaxud Arifə aid olduğunu müəyyən edin. Fikrinizi əsaslandırın.**

• səhlənkar • təmkinli • lovğa • çalışqan • məsuliyyətli

**D** **Debat**

**Hansı fikirlə razısınız? Mövqeyinizi əsaslandırın.**

A. Arif Vaqifə kömək etməli idi. B. Arif Vaqifə kömək etməməli idi.

**2A** **Sizcə, Vaqiflə Arifin münasibətləri necə davam edəcək? Mətnin davamını oxuyun. Təxminlərinizlə müqayisə edin.**

**3-cü hissə** İki həftə idi ki, Vaqiflə küsülü idik. Məktəbə ayrı gedir, ayrı qayıdırdıq. Nə mən onlara gedirdim, nə də o bizə gəlirdi.

Dünən mağazada Səadət xalanı gördüm. O, Vaqifdən gileyləndi. Dedi ki, dərslərini oxumur. Xahiş etdi ki, ona dərslərində kömək edim. Mən isə heç nə deyə bilmədim. Elə bil ağzımı qıfıllamışdılar.

Fikir məni götürmüşdü. Atamın səsinə diksindim:

– Sən məndən nə isə gizlədirsən. Bir şey olmayıb ki?

– Yox, ata, – deyə mızıldandım.

– Bəlkə, dostlarınla ***sözləşmisən?*** Neçə gündür, Vaqif gözümə dəymir.

Atam yaman yerdə yaxalamışdı məni. Elə mənim də ürəyim dolu idi. Odur ki olanların hamısını atama danışdım.

O, bir qədər fikrə gedib dedi:

– İki həftə küsülü qalmaq... Bu heç yaxşı hərəkət deyil. Oğul, yəqin ki, Vaqif də indi peşman olub. Deyirsən, o, lovğadır, qürurludur. Yaxşı olar ki, birinci addımı sən atasan.

– Bəs mənim qürurum yoxdur? Mən uşaqlara dərsi başa salanda onlara da, mənə də lağ edirdi. İndi mən onun ayağına gedim?!

Atam başını bulayıb dedi:

– Zəif adam yıxılıbsa, ona kömək edib ayağa qaldıran adamın mənliyinə xələl gəlməz. Bu gün Vaqiflə müqayisədə sən güclüsən. Onun sənə ehtiyacı var. Sən ona kömək etməsən, sinifdə qala bilər. Mənə elə gəlir ki, indi səni narahat edən budur. Birinci addımı atmağın səni daha da güclü edər. Mənimlə razısan?

– Razıyam.

– Onda vur bura.

Atam həmişəki kimi sağ əlini yuxarı qaldırdı. Mən də sağ əlimlə onun əlinə vurdum.

– Dostum, güclənmisən haa! – o, həmişə belə deyir.

Bu söhbətdən sonra xeyli ***yüngülləşdim***...

*Gülhüseyn Hüseynoğlunun*
*"Bərk ayaqda" hekayəsi əsasında*



**• Söz boğçası •**

- mızıldamaq
- sözləşmək
- fikrə getmək
- qürur
- ayağına getmək
- mənlik
- xələl gəlmək

## Söz ehtiyatı

**B** **Hansı cümlələrdə fərqləndirilmiş sözlər mətndəki mənasında işlənib?**

a) Odunları boşaltdıqdan sonra arabanın yükü bir az ***yüngülləşdi***.
b) Rəfiqəsi ilə barışan Lalə xeyli ***yüngülləşdi***.

a) Uşaqlar sinifdə ***sözləşdilər*** ki, istirahət günü gəzintiyə çıxsınlar.
b) Oqtayla Amal topu birinci atmaq üstündə ***sözləşdilər***.

## Nə anladın?

**C** **Mətnə aid suallara cavab verin.**

- Səadət xala kim idi? O nə üçün Vaqifdən gileylənirdi?
- Atası Arifə nə məsləhət verdi?

## Düşün və cavab ver

**Ç** **Arifin atasının hansı cəhətləri xoşunuza gəldi? Siz çətin anlarda kimlə məsləhətləşirsiniz?**

**D** **Atanın məsləhətinə uyğun gələn fikirləri seçin və əsaslandırın.**

- Dostluğun üstündən asanlıqla xətt çəkmək olmaz.
- Hər zaman qürurunu üstün tut.
- Xarakterсə güclü insanlar birinci addımı atmaqdan qorxmazlar.
- Dost tapmaq hər zaman mümkündür.
- Dostunla aranızda inciklik olarsa, onunla ünsiyyət qur və gərginliyi aradan qaldır.

**E** **Arifin yerində siz olsaydınız, birinci addımı atardınızmı? Cavabınızı əsaslandırın.**

## Yaradıcı iş

**Ə** **"Birinci addım" mətninin məzmununa və təxəyyülünüzə uyğun ssenari yazın və səhnələşdirin.**

| Qruplar | Mətnin hissələri | Rollar |
|---|---|---|
| I qrup | *Dərsdən əvvəl* | *Vaqif, Arif, uşaqlar* |
| II qrup | *Dərs zamanı* | *müəllim, Vaqif, Arif* |
| III qrup | *Atanın məsləhəti* | *Arif və atası* |
| IV qrup | *Arifin birinci addımı* | *Arif və Vaqif* |

**3 A** **Aşağıdakı cümlələrdə "ilişmək" sözünün mənalarını verilmiş izahlarla uyğunlaşdırın.**

***Cümlələr:*** *1. Vaqif pıçıldadı: "Yaman ilişdim".*
*2. Paltarım mismara ilişdi.*

***İzahlar:*** *a) Bir şeyə keçmək, taxılmaq.*
*b) Çarəsiz qalmaq, problemi həll edə bilməmək.*

**Sizcə, hansı cümlədə "ilişmək" sözü məcazi mənada işlənmişdir?**

• Yadda saxla • **FRAZEOLOJİ BİRLƏŞMƏLƏR**

Yalnız sözlər deyil, söz birləşmələri də məcazi mənada işlənə bilir:
Məsələn:
Ağzına su almaq – *susmaq*
Başa düşmək – *anlamaq*
Belə ifadələr **frazeoloji birləşmə** adlanır.


*ağzına su almaq (su içmək)*


*ağzına su almaq (susmaq)*

**B** **Uyğunluğu müəyyən edin.**

• Nümunə • 1 – d

1. yola düşmək
2. başa salmaq
3. yola salmaq
4. çulunu sudan çıxarmaq
5. bel bağlamaq
6. ağzı qıfıllanmaq

a) bacarmaq
b) susmaq
c) anlatmaq
ç) ötürmək
d) getmək
e) inanmaq

**C** **"Gözə dəymək", "özündən çıxmaq", "əldən düşmək", "ürəyi düşmək" frazeoloji birləşmələrini bir sözlə əvəz edin.**

• Nümunə • qulaq asmaq – **dinləmək**

**Ç** **Feilləri uyğun frazeoloji birləşmələrlə əvəz edib cümlələri köçürün.**

1. Ustalar günün sonuna qədər işlərini bitirdilər.
2. Müəllim ev tapşırıqlarına baxdı.
3. Koroğlunun nərəsindən dağ-daş titrədi.
4. Arif kənddəki dostlarını tez- tez xatırlayırdı.

- yada salmaq
- başa çatdırmaq
- nəzər salmaq
- lərzəyə gəlmək

# Dil qaydaları

**4 A** **Nöqtələrin yerinə uyğun hərfi yazaraq sözləri köçürün.**

| | | | |
|---|---|---|---|
| us...a (t, d) | top...uz (p, b) | əhən... (g, k) | kita... (b, p) |
| ağa... (ç, c), | tüfən... (k, g) | qana... (t, d) | çörə... (y, k) |
| sək...iz (g, k) | əlbət...ə (t, d) | saq...ız (k, q) | toq...a (q, k) |

• Bunları bilməliyik • Y, YOXSA YY

• Dilimizdə bəzi sözlər bir **y**, bəziləri isə qoşa **yy** ilə yazılır. Belə sözlərin yazılışına diqqət etmək lazımdır.

| y | yy |
|---|---|
| tərbiyə | hədiyyə |
| saniyə | ədəbiyyat |

**B** **Cümlələrdə fərqləndirilmiş sözlərin bəziləri səhv yazılmışdır. Onların düzgün yazılışını lüğət vasitəsilə dəqiqləşdirərək cümlələri köçürün.**

1. Hacı Zeynalabdin Tağıyev böyük *xeyriyaçi*, görkəmli *şaxsiyət* olmuşdur.
2. Xəlil öz *taxəyülünə* uyğun maraqlı *hekayə* yazdı.
3. Məktəbimiz *ehtiyyacı* olan insanlara *himayədarlıq* edir.
4. Səidə gözəl əl *qabiliyətinə* görə hamıdan seçilirdi.

• Bunları bilməliyik • N, YOXSA M

• Söz ortasında səslənən **[m]** samiti bəzən "**m**", bəzən də "**n**" kimi yazılır.

| | | | | |
|---|---|---|---|---|
| Doğru | şənbə | zənbil | kombayn | lampa |
| Yanlış | şəmbə | zəmbil | konbayn | lanpa |

**C** **Lüğətdən istifadə etməklə nöqtələrin yerinə uyğun hərfi yazaraq sözləri köçürün.**

*1. İlaxır çərşə...bələr xalqımız tərəfindən təntənəli qeyd olunur.*

*2. Tə...bəl adam vaxtın dəyərini bilmir.*

*3. Birdən yaxınlıqda bo...ba səsi eşidildi.*

*4. Filmdə ha...bal rolunun ifaçısı çox məşhur aktyor idi.*

**Ç** **Səhv yazılmış söz sütununu müəyyən edin.**

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| dinməz<br>sünbül<br>mənbə | səyyah<br>cəmiyyət<br>təyyarə | ehtiyyat<br>keyfiyyət<br>haşiyyə | pambıq<br>kombinat<br>tramvay |

fəsil 2

# ÖZÜNƏ İNAN

**1 A Şəkillərə baxın. Oxuduğunuz mətnləri xatırlayın. Bu mətnlərdə baş qəhrəmanın uğur qazanmasının səbəbi nə idi?**





## XOŞBƏXTLİK NƏDİR?

Dərsin başlanmasına az qalırdı. Uşaqlar dəhlizdə elan lövhəsinin qarşısına toplaşmışdılar. Ramin onları görüb ora yaxınlaşdı. Qızğın söhbət gedirdi. O, lövhədəki yeni elanı oxumağa başladı.



**ELAN**

16 mart 2021-ci il tarixdə

**məktəblərarası bilik yarışmasının final mərhələsi** keçiriləcək.

Komanda heyətini müəyyən etmək üçün

yarış iştirakçıları məktəbin akt zalına dəvət olunur.

Görüş **7 mart saat 11:00**-da keçiriləcək.

*Məktəb rəhbərliyi*

Məktəbin komandası final mərhələsinə kimi gəlib çatmışdı. Ramin də bu bilik yarışmasının bütün mərhələlərində iştirak etmişdi.

Deyilənə görə, bu yarış televiziya ilə birbaşa yayımlanacaqdı. Məktəbdə yarışa ciddi hazırlıq gedirdi. Məktəbin direktoru və müəllimlər neçə gün idi ki, komandanın tərkibini müəyyənləşdirir, hər bir iştirakçının imkanlarını müzakirə edirdilər.

**Söz boğçası**

- heyət
- nigaran
- gərgin
- intizarla

İki gün sonra məktəbin akt zalında komandanın tərkibi elan edildi. Yarışmanın ən fəal üzvlərindən olan Nahid komandanın kapitanı seçildi.

Komanda heyətində öz adını eşidən Ramin çox sevindi. Sinif yoldaşları onun başına toplaşdılar:

– Ramin, bizim sinifdən təkcə sənsən ha! Sinfimizin adını qaldırmalısan!

***

Nəhayət, gözlənilən gün gəlib çatdı. Yarışın başlanmasına dəqiqələr qalırdı. Amma Nahid hələ gəlib çıxmamışdı. Hamı nigaran idi. Elə bu zaman Əli müəllimin telefonu zəng çaldı. Zəng edən Nahidin anası idi. O dedi ki, Nahidin qızdırması qalxıb. Həkim onun evdən çıxmasına icazə vermir.



Bu xəbər komanda heyətini çox məyus etdi. Hamı çaşqınlıq içində idi.

Əli müəllim uşaqlara müraciət etdi:

– Uşaqlar, bilirsiniz ki, komandanı idarə etmək asan deyil. Kim bu işi öhdəsinə götürər?

Ortaya sükut çökdü. Hamı tərəddüd içində idi. Nəhayət, Əli müəllim dedi:

– Təklif edirəm, kapitan Ramin olsun.

– Mən?.. – həyəcandan Raminin səsi qırıldı.

Əli müəllim əlini onun çiyninə qoydu:

– Narahat olma. Əminəm ki, öhdəsindən gələcəksən. Sənə uğurlar!..

***

Yarış çox gərgin keçirdi. Heç bir komanda irəli çıxa bilmirdi. Komandaların ***xalları*** bərabərləşmişdi. İndi hər şey sonuncu sualdan asılı idi. Hamı nəfəs çəkmədən intizarla gözləyirdi.

Nəhayət, səhnəyə üç qutu gətirildi. Aparıcı bildirdi ki, qutuların hər birində bir top var. Amma bu toplar müxtəlif rəngdədir: qırmızı, göy və yaşıl. Sonra aparıcı qutuları iştirakçılara göstərdi. Birinci qutu qırmızı, ikinci yaşıl, üçüncü isə yarı qırmızı, yarı göy rəngdə idi.

Aparıcı sualı səsləndirdi:

– Qutuların rəngləri içindəki topların rənglərinə uyğun deyil. İndi deyin görüm, hansı top hansı qutudadır?

Raminin ürəyi sürətlə döyündü. Onun barmağı “cavab hazırdır” düyməsində idi.



Ancaq düyməni basmağa ürək eləmirdi. Nəhayət, o, həyəcanını boğub **düyməni** basdı. Aparıcı sözü Raminə verdi. Bir anda hamının nəzərləri ona zilləndi. Ramin aydın səslə, aramla sualın cavabını izah etdi:

– İkirəngli qutudakı yaşıl topdur. Qırmızı qutudakı göy, yaşıl qutudakı isə qırmızı topdur.

Aparıcının "Bu, ... düzgün cavabdır" sözləri səslənər-səslənməz alqış sədaları zalı bürüdü. Azarkeşlər əl çalır, "Ramin! Afərin!" – deyə qışqırırdılar.



Aparıcı Raminə yaxınlaşaraq mikrofonu ona tərəf tutdu:

– Həlledici xalı komandaya siz qazandırdınız! Tamaşaçılarımıza nə deyə bilərsiniz?

– Mən... Mən çox xoşbəxtəm!

*Reyhan Yusifqızı*

## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

1. Məktəbdəki görüşün məqsədi nə idi?
2. Kimi komandanın kapitanı seçdilər?
3. Komanda heyəti hansı problemlə qarşılaşdı?
4. Ramin hansı suala cavab verməklə komandaya qələbə qazandırdı?

## Söz ehtiyatı

**C** **Söz boğçasından fərqləndirilmiş sözlərə uyğun yaxınmənalı sözləri seçin.**

1. Olimpiadada iştirak edəcək komandanın ***tərkibi*** müəyyənləşdi.
2. Alpinist sıldırım qayaya qalxarkən ***çətin*** anlar yaşadı.
3. Ana əsgər oğluna görə ***narahat*** idi.
4. Babam doğma yurda qayıdacağı günü ***həsrətlə*** gözləyirdi.

**Ç** **Hansı cümlələrdə *xal* və *düymə* sözləri mətndəki mənasında işlənmişdir?**

a) Kəpənəyin qanadında böyük qara *xal* var idi.
b) Güləşçimiz növbəti fəndi ilə daha iki *xal* qazandı.

a) Klaviaturanın *düymələri* ilə müxtəlif əməliyyatlar yerinə yetirmək olur.
b) Dərzi paltoya iki iri, parlaq *düymə* tikdi.

## Düşün və cavab ver

**2 A** **Raminin cavabının doğruluğunu əsaslandırın.**

**B** **Sizcə, Raminin özünü xoşbəxt hiss etməsinə səbəb nə idi? Fikrinizi əsaslandırın.**

**C** **Mətnin hissələrini adlandırın. Hər bir hissə üzrə plan tərtib edin.**

**Ç** **“Məşhur riyaziyyatçı” mətnini dinləyin. Götürdüyünüz qeydlər və şəkillər əsasında mətni nəql edin.**



**D** **“Məşhur riyaziyyatçı” mətninə istinad edərək aşağıdakı fikirləri əsaslandırın.**

- Pontryagin alim olanda çox gənc idi.
- Lev məktəbi əla qiymətlərlə bitirdi.
- Dostları Levə dayaq oldu.
- Məktəbdə oxuyarkən görmə qabiliyyətini itirdi.
- Lev əzmkarlığı sayəsində çox şey öyrəndi.

**E** **Oxuduğunuz və dinlədiyiniz mətnləri növünə, məzmun və ideyasına görə müqayisə edin.**

**Ə** **Qruplarla iş**

**Oxuduğunuz və dinlədiyiniz mətnlərdəki hadisə iştirakçıları ilə müsahibə hazırlayın və təqdim edin.**

**I qrup:** Raminlə müsahibə
**II qrup:** Lev Pontryaginlə müsahibə
**III qrup:** Əli müəllimlə müsahibə
**IV qrup:** Levin anası ilə müsahibə

## 3 A Ramin bilik yarışmasından necə xəbər tutdu?

**• Faydalı məsləhət • ELAN**

**Elan, əsasən, hər hansı tədbir haqqında informasiya çatdırmaq məqsədi daşıyır.**
**Elan yazarkən:**
1. Məzmunu aydın olmalıdır.
2. Tədbirin keçiriləcəyi vaxt və yer dəqiq göstərilməlidir.
3. Sonda tədbirin təşkilatçısı göstərilməlidir.

**B** **Məlumatlardan istifadə edərək təlimata uyğun elan hazırlayın.**
Asfalt üzərində rəsm müsabiqəsi, məktəbin həyəti, rəsm dərnəyinin rəhbəri L.İsayeva, ibtidai sinif şagirdləri, 7 mart saat 11:00-da

| ELANIN TƏRTİBİ ÜZRƏ TƏLİMAT | ELAN |
|---|---|
| *Tədbirin keçiriləcəyi vaxt* | 25 mart saat 12:00-da |
| *Yer* | məktəbin akt zalında |
| *Tədbirin məqsədi* | “Bilik yarışı”nın qalibləri ilə görüş olacaq. |
| *Tədbirə dəvət olunanlar* | Görüşə IV sinif şagirdləri dəvət olunur. |
| *Tədbirin təşkilatçısı* | **Təşkilatçı: IV A sinfi** |

**C Qruplarla iş**

**Aşağıdakı mövzular üzrə elan hazırlayın və təqdim edin.**

***I qrup:*** *Uşaq yazıçısı Zahid Xəlil ilə görüş*
***II qrup:*** *“1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü”nə həsr olunmuş sərgi*
***III qrup:*** *“Şən uşaqlar” özfəaliyyət dərnəyinin konserti*
***IV qrup:*** *“Qarabağ Azərbaycandır” mövzusunda şeir müsabiqəsi*

# Dil qaydaları

**4 A** **Aşağıdakı cümləni oxuyun. Altından xətt çəkilmiş sözlərin yazılışına diqqət edin. Fərqi izah edin.**

Anar əvvəl vatman kağızının ətrafına düz <u>*xətt*</u> çəkdi. Elanı aydın və gözəl <u>*xətlə*</u> yazdı.

**• Bunları bilməliyik • Qoşa samitlə bitən təkhecalı sözlər**

- Dilimizdə eyni qoşa samitlə bitən təkhecalı sözlər var: *fənn, haqq* və s. Bu cür sözlərə samitlə başlayan şəkilçi artırdıqda qoşa samitlərdən biri ixtisar olunur: *fənlər, haqsız.*

**B** **Verilmiş sözləri nöqtələrin yerinə düzgün yazmaqla cümləni köçürün.**

***sirr***

**a.** *Təbiətin ...li hadisələri bitib-tükənmir.*
**b.** *Anam bu ...i hamıdan gizli saxlamışdı.*

***hədd***

**a.** *Müəllim uğurumuza ...siz dərəcədə sevindi.*
**b.** *Düşmənə olan nifrət son ...ə çatmışdı.*

**• Bunları bilməliyik • Qoşa samitlə bitən təkhecalı sözlər**

- Müxtəlif qoşa samitlə bitən təkhecalı sözlər yazılışından fərqli səslənə bilər. Belə sözlərin yazılışına diqqət etmək lazımdır.

| Doğru | Yanlış |
|---|---|
| hökm | höküm |
| üzr | üzür |

**C** **Fərqləndirilmiş sözlərin düzgün yazılışını müəyyən edib cümlələri köçürün.**

1. ***Zülüm*** heç vaxt yerdə qalmaz.
2. ***Qəsirdə*** gizlədilmiş kraliça dostlarının köməyi ilə azad olundu.
3. ***Hökümdar*** günahkarı tapmağı ***əmir*** etdi.
4. Küpəgirən qarı Əhmədin barmağından ***sehirli*** üzüyü çıxardı.
5. Nağılın əvvəlində söylənilən ***mətin*** qaravəlli adlanır.
6. Analar bütün həyatlarını övladlarına ***həsir*** edirlər.

**Ç** **Lüğətdən istifadə edərək verilmiş sözlərin izahını yazın.**

həsr – həsir
əmr – əmir
mətn – mətin
xeyr – xeyir

**• Diqqət et •**

Dilimizdə elə sözlər var ki, oxşar səslənir, lakin mənasına görə fərqlənir:
**Əsr** – 100 illik dövr
**Əsir –** müharibədə ələ keçirilən düşmən əsgəri

# ÜNSİYYƏT

**1 A** **Təmsil haqqında nə bilirsiniz? Hansı təmsilləri xatırlayırsınız?**

**B** **2-ci sinifdə tanış olduğunuz "Qanqal" mətnini xatırlayın. Sizcə, müəllif nə üçün baş qəhrəman kimi məhz bu varlığı seçib? Hansı fikir mətnin ideyasını əks etdirir?**

*A) Daxili keyfiyyətlər zahiri görünüşdən daha vacibdir.*
*B) Bütün bitkilər faydalıdır.*
*C) Bütün bitkilər gözəldir.*



**C** **Hiyləgərlik haqqında mətn yazsaydınız, hansı heyvanı baş qəhrəman seçərdiniz? Oxuduğunuz mətnlərdən nümunələr söyləməklə fikrinizi əsaslandırın.**

**Ç** **Məlumat vərəqlərinə əsasən qu quşu və çöl qazını müqayisə edin. Onların yaşayış tərzlərində hansı fərqli xüsusiyyətlər var?**

## QU QUŞU



*Qu quşu suda yaşayan ən böyük köçəri quşdur.*

- 20-25 ilə qədər
- Tək və qoşa
- 140-160 sm
- 15 kq-a qədər
- Bitkilər

## ÇÖL QAZI



*Çöl qazı suda və quruda yaşayan köçəri quşdur.*

- 10-15 ilə qədər
- Dəstə şəklində
- 1 m
- 3-5 kq
- Bitki və böcəklər

**D** **Şəkillərdən və cədvəldəki məlumatlardan istifadə edərək plan əsasında "Tənha Qu quşu" adlı təmsil qurub danışın.**

| Təmsilin mövzusu | Təmsilin ideyası | Varlığın özəl xüsusiyyətləri |
|---|---|---|
| Lovğalıq | Lovğalığın sonu xəcalətdir. | • Qu quşları tənha yaşamağı sevir.<br>• Qazlar dəstə ilə yaşayırlar. |

**PLAN:**

1. Qazların dostluq təklifi və Qu quşunun lovğa cavabı.
2. Qu quşunun donması.
3. Qazların köməyi.
4. Qu quşunun peşman olması.












**E** **Qu quşunun başına gələn əhvalatdan nəticə çıxarıb kəlamları tamamlayın.**

• Nümunə • **Başqasının eybini elə söylə ki, xətrinə dəyməsin.**

1. Kobud davranmaqdan çəkin ki, ...
2. Gözəlliyin ilə öyünmə, çünki ...
3. Dost qazanmağa çalış, çünki ...



**2 A** **Gicitkən haqqında məlumatı oxuyun. Onun əsas xüsusiyyətlərini müəyyən edin.**

## HAMINI DALAYAN DƏRMAN BİTKİSİ

Gicitkən hündürlüyü 1 metrə qədər olan bitkidir. Gövdəsi düz, yarpaqları iridir. Bitkinin bütün hissələri xırda tükcüklərlə sıx örtülmüşdür.

Gicitkən dərman bitkisidir. Ondan bir çox xəstəliklərin müalicəsində istifadə edilir. Lakin gicitkənə toxunanda dəri qızarır, şişir və göynəyir. Bitkini yığan zaman bunlara diqqət etmək lazımdır.

**B** **Gicitkən haqqında təmsil yazmaq istəsəniz, hansı əlamətinə görə onu baş qəhrəman seçərdiniz?**

**C** **Təmsili oxuyun. Fikirlərinizi şeirin məzmunu ilə müqayisə edin.**

## GİCİTKƏN
**(Təmsil)**

Yaxına buraxmırdı
Gicitkən heç bir kəsi.
Eşitsəydi bir qoyun,
Ya da bir quzu səsi,
Xırda tikanlarını
Qabardıb dayanardı,
Kim dadsa, dili-ağzı
***Alışardı,*** yanardı.
Gülüb bu an ürəkdən
Xoşlanardı Gicitkən.



• Söz boğçası •
dalamaq • gicitkən • büzüşmək
alışmaq • göynəmək

Gəl ki bu gün istidən
Yaman pis günə düşdü;
Tamam soldu Gicitkən,
Yarpaqları ***büzüşdü***...
– Qoymayın, soluram mən,
Artıq məhv oluram mən! –
Deyib haray salsa da,
Olmadı yaxın gələn.
Vaxtilə hamını bərk
***Dalamışdı*** Gicitkən.

*Hikmət Ziya*



## Nə anladın?

**Ç** **Mətnlə bağlı suallara cavab verin.**

1. Gicitkən ətrafdakılarla necə davranırdı?
2. Gicitkən nə üçün haray qopardı?
3. Niyə Gicitkənin köməyinə heç kim gəlmədi?

## Söz ehtiyatı

**D** **Hansı cümlələrdə fərqləndirilmiş sözlər mətndəki mənasında işlənib?**

a) Yun şərf boynumu ***dalayaraq*** qızartdı.
b) Akif acı sözləri ilə yoldaşlarını ***dalayırdı.***

a) Səhər tez oyanmağa artıq ***alışmışam***.
b) Bibərin acılığından əllərim ***alışıb*** yanırdı.

a) Şaxta tərəvəzləri ***büzüşdürmüşdü.***
b) Lalə soyuqdan çarpayıda ***büzüşüb*** qalmışdı.

## Düşün və cavab ver

**E** **"*Gülüb bu an ürəkdən, Xoşlanardı Gicitkən*" misraları baş qəhrəmanın hansı xarakterindən xəbər verir?**

**Ə** **Hansı atalar sözü şeirin ideyasına uyğundur? Seçiminizi izah edin.**

a) Dost dosta tən gərək, tən olmasa gen gərək.
b) Sözü müdrik olanın özü də müdrik olar.
c) Nə əkərsən, onu da biçərsən.

**F** **"Gicitkən" şeirini öz sözlərinizlə yazın. Yazdığınız mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edin.**

**3 A** **Cümlələri oxuyun. Sizcə, nə üçün obrazların adı böyük hərflə yazılıb?**

a) Tənha Qu quşu soyuqdan, az qala donmuşdu.
b) Yaxına buraxmırdı Gicitkən heç bir kəsi.

**• Yadda saxla •** **ŞƏXSLƏNDİRMƏ**

Təmsillərdə və bir çox nağıllarda heyvanlar və cansız əşyalar obraz kimi çıxış edir və insanlara aid xüsusiyyətləri daşıyır: danışır, sevinir, hirslənir və s. Buna **şəxsləndirmə** deyilir. Belə obrazlar "**kim?**" sualına cavab verir. Bu zaman onların adları böyük hərflə yazılır. Məsələn: *Qu quşu, Gicitkən, Qanqal, Qar dənəsi.*

**B** **Hansı cümlələrdə heyvanlar şəxsləndirilib?**

1. Canavarlar yuvalarını qayalıqda və suya yaxın yerlərdə düzəldirlər.
2. Canavar əkinçidən bir parça çörək istədi.
3. Tırtıl İlbizin çanağını rəngarəng naxışlarla bəzədi.
4. İlbizlərin bədəni bərk çanaq içərisində yerləşir.
5. Kəpənəyə yazığı gələn Qarışqa yanında ona yer verdi.
6. Kəpənəyin rəngli qanadları çox zərifdir.

**C** **Cümlələrdə obraz adlarına diqqət edin. Səhvləri düzəldib yazın.**

1. Tülkü qarğanı təriflməyə başladı.
2. Bir gün günəşlə külək mübahisə etdilər.
3. Küsəyən günəbaxan bir daha günəşlə danışmadı.
4. Çiçəklər qanqalın ətrafına yığışıb onu sakitləşdirdilər.

**Ç** **Qruplarla iş**

**Dialoqları davam etdirib yazın. Obraz adlarının yazılışına diqqət edin.**

**I qrup:** Bağda Alma, Armud, Nar, Üzüm yetişmişdi. Meyvələr özlərini tərif edirdi. Qırmızıyanaq Alma sözə başladı:

**II qrup:** Günlərin bir günü fəsillər bir araya gəldilər. Qızıl Payız lovğalandı:

**III qrup:** Bir gün Palıd, Şam, Çinar mübahisə etdilər. Palıd özünü öydü:

**IV qrup:** Cəngəllik kralı Aslan, Ayı, Pələng ovladıqları ovu bölə bilmədilər. Aralarında mübahisə düşdü. Aslan nərə çəkdi:

# Dil qaydaları

**4 A Verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.**

| | | |
|---|---|---|
| kamandir | yoxsa | komandir |
| mübahisə | | mubahisə |
| müdrük | | müdrik |
| həyəcan | | həyacan |

**• Bunları bilməliyik • O, YOXSA A**

• Bir sıra sözlərin tərkibindəki "**o**" saiti "**a**" kimi tələffüz olunur. Belə sözlərin yazılışına diqqət etmək lazımdır.

| Doğru | Yanlış |
|---|---|
| konsert | kansert |

**B Nöqtələrin yerinə uyğun gələn hərfi yazmaqla sözləri köçürün.**

a) k...mbayn (a, o) | k...lbasa (a, o) | p...çtalyon (a, o)

b) m...tor (a, o) | k...mpot (a, o) | şok...lad (a, o)

**• Diqqət et • SÖZLƏRDƏ BƏZİ SAİTLƏRİN YAZILIŞI**

| | Doğru | Yanlış |
|---|---|---|
| ü, yoxsa u | nümayiş | numayiş |
| ü, yoxsa i | müdir | müdür |
| ə, yoxsa a | nəqərat | nəqarət |

**C Nöqtələrin yerinə uyğun gələn hərfi yazmaqla sözləri köçürün.**

a) m...barək (u, ü) | n...munə (u, ü) | g...nah ( u, ü)

b) b...növrə (i, ü) | üf...q (i, ü) | üm...d (i, ü)

c) əqr...ba (a, ə) | t...başir (a, ə) | həş...rat (a, ə)

**Ç Fərqləndirilmiş sözlərin düzgün yazılışını müəyyən edin və cümlələri köçürün.**

1. Müəllim tədbirdə milli ***kastyum*** geyinməyi tapşırdı.
2. Bilik yarışında bizim məktəbin ***numayəndəsi*** də vardır.
3. ***Üfiqdə*** Günəşin batması çox gözəl görünür.
4. Qarabağ ***muharibəsi*** göstərdi ki, xalqımız cəsur və yenilməzdir.
5. ***Qəhraman*** oğullar torpaqlarımızı düşməndən azad etdilər.

**D Hər bir sütunda səhv yazılmış sözü tapın.**

a) pamidor | a) zürafə | a) mühüt

b) konfet | b) mukafat | b) müxbir

c) parovoz | c) müdafiə | c) mücrü

fəsil 4

# HÜQUQLARIMIZ

**1 A Uşaq hüquqları haqqında nə bilirsiniz? Həyatdan nümunələr gətirməklə bu mövzuda danışın.**

## QAVROŞ

Payızın sonu idi. Parisdə bərk külək əsir, yağış yağırdı. Qavroş əsə-əsə bərbərxananın qarşısında dayanmışdı. Bu zaman iki uşaq ora girdi. Onlar bərbərə nə dedilərsə, o hirsləndi. Ülgücü əlindən yerə qoymadan böyüyü əli ilə, kiçiyi dizi ilə itələyərək bayıra çıxartdı. Uşaqlar ağlaya-ağlaya yola düzəldilər. Qavroş özünü onlara yetirib soruşdu:

– Sizə nə olub, cücələr?

Yaşca böyük uşaq dedi:

– Bilmirik, harada yataq.

– Elə bu? Çox böyük iş olub! Bundan ötrü adam ağlayar? Dalımca gəlin, balalar!

Yağış daha da güclənmişdi. Qavroş iti addımlarla irəliləyirdi. Uşaqlar onun ardınca gedir, geri qalmamağa çalışırdılar. Sanki xilaskarlarını tapmışdılar. Qavroş soruşdu:

– Deməli, sizin də valideynləriniz yoxdur?

– Niyə ki? Var. Biz küçədə oynayırdıq. Gələndə evimizin qapısı bağlı idi. Deyirlər, ata-anamızı polislər aparıb. Bilmirik, indi onlar haradadır.



Çörək dükanının qarşısından keçəndə Qavroş soruşdu:

– Hə, balacalar, deyin görüm, nahar eləmisiniz?

Uşaqlardan böyüyü dilləndi:

– Heç nə yeməmişik. Zibil qutularını da axtarmışıq, yeməyə bir şey tapmamışıq.

Qavroş ayaq saxlayıb cibini eşələdi. Başını qaldırıb təntənəli bir görkəmlə dedi:

– Uşaqlar, sakit! Məncə, bu pullar axşam yeməyimiz üçün çatar.

Qavroş dükandan bir çörək aldı. Onu üç yerə bölüb ikisini uşaqlara verdi:

– Yeyin!

Parisin baş meydanında nəhəng fil heykəli var idi. Ora-burasında deşiklər açılmışdı, içi boş idi. Qavroş bir nərdivan tapıb filin ayağına söykədi. Heykəlin qarnındakı yekə deşiyi uşaqlara göstərib dedi:

– Bu nərdivanla qalxıb ora girin.

Uşaqlar qorxaraq bir-birinə baxdılar.

– Çağalar, qorxursunuz? Axı burada nə var ki?! Bir baxın!

Qavroş filin qıçından ikiəlli yapışdı. Bir göz qırpımında nərdivansız dırmaşaraq deşiyə çatdı və koramal kimi sürünərək ora girdi. Oradan başını çıxarıb dedi:

– Gördünüz?! İndi siz də çıxın!

Qavroş cəld sürüşüb aşağı düşdu. Balacaların qalxmasına kömək etdi.

– Budur, gəlib çatdıq. Hə, uşaqlar, indi siz mənim evimdəsiniz.

Qavroş qətranlı fitilin ucunu yandırdı. İçəri bir az işıqlandı. Uşaqlardan kiçiyi böyüyə qısılaraq dedi:

– Bura qaranlıqdır.

**Söz boğçası**

- bərbər
- ülgüc
- fitil
- həsir
- koramal
- meh
- çağa



Qavroşun uşağa yazığı gəldi:

– Ay səfeh, bayır qaranlıqdır, amma burada şam yanır. Orada yağış yağır, amma bura qurudur. Bayır soyuqdur, burada meh də əsmir.

Qavroş onlara köhnə həsirdən yatmağa yer düzəltdi:

– Bu həsiri zooparkdakı meymunlardan çırpışdırmışam.

Başqa bir qalın həsiri göstərib dedi:

– Bu isə zürafənindir. Dedim, filə lazımdır. Etiraz etmədi.

Qavroş: "İndi isə yatın!" – deyib işığı söndürdü. Elə həmin an siçovulların ciyiltisi eşidildi.

– Bu nə səsdir? – uşaqlardan balacası soruşdu.

– Siçovullardır.

– Bəs pişiyin yoxdur?

– Pişiyim vardı, onlar yedi.

– Bu siçovullar bizi də yeyə bilər?

– Əlbəttə, yeyərlər!

Uşaq çox qorxdu. Qavroş gülüb onu sakitləşdirdi:

– Qorxma! Onlar bizim yanımıza gələ bilməzlər. Mən buradayam. İstəyirsən əlimdən tut. Səsini kəs, yat.

Bir azdan uşaqlar mışıl-mışıl yatırdılar.

*Viktor Hüqonun "Səfillər" romanından*

## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

- Hadisələr nə zaman, harada baş verir?
- Uşaqlar niyə ağlayırdılar?
- Uşaqların sahibsiz qalmağının səbəbi nə idi?
- Qavroş uşaqlara necə kömək etdi?

## Söz ehtiyatı

**C** **Nöqtələrin yerinə "Söz boğçası"ndakı uyğun sözləri əlavə edib cümlələri oxuyun.**

1. O, otların arasında ... kimi sürünürdü.
2. Bacım qorxudan ... kimi ağlayırdı.
3. Şüşənin kənarı əlimi ... kimi kəsdi.

## Düşün və cavab ver

**Ç** **Nə üçün uşaqlar Qavroşa xilaskar kimi baxırdılar?**

**D** **Mətnə istinad edərək Qavroşun xarakterini əsaslandırın.**

| | | |
|---|---|---|
| • mərhəmətli | • qayğıkeş | • əliaçıq |
| • zarafatcıl | • kobud | • fərasətli |

**2 A** **Həyatdan nümunələr gətirməklə "hüquqları pozulmaq", "hüquqlarını müdafiə etmək" ifadələrinin mənasını izah edin.**

**"Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun aşağıda verilmiş maddələri ilə tanış olun.**
**Tapşırıqları yerinə yetirin.**

**Maddə 9.** Hər bir uşağın həyatı və sağlamlığının mühafizə edilməsi hüququ vardır.

**Maddə 14.** Hər bir uşağın fikir və söz azadlığı vardır.

**Maddə 17.** Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır.

**Maddə 20.** Hər bir uşağın mənzil hüququ vardır.

**Maddə 22.** Hər bir uşağın təhsil almaq hüququ vardır.

**Maddə 27.** Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

**B** **Qavroş və dostlarının hansı hüquqları pozulmuşdur?**

**a) "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa istinad etməklə fikrinizi əsaslandırın.**

• Nümunə • *Qavroş və dostları məktəbə getmir. "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun 22-ci maddəsinə əsasən hər bir uşağın təhsil almaq hüququ var.*

**b) Onların hüquqlarını müdafiə etmək üçün təkliflərinizi verin.**

**C** **"Kozetta" mətnini dinləyin. "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa istinad etməklə Kozettanın pozulmuş hüquqlarını müdafiə edin.**

- 8 yaşlı Kozetta mehmanxanada xidmətçi işləyir.
- Tenardye onu yarıac, yarıçılpaq saxlayırdı.
- Mehmanxana sahibi onu döyürdü.
- Kozetta qorxudan sahibəsinə etiraz edə bilmirdi.

**3 A** **Nümunəyə əsasən aşağıdakı cümlələri cədvəl üzrə qruplaşdırın.**

1. Ailənin hər bir üzvünə öz fikrini ifadə etmək imkanı verilməlidir.
2. Sinifdə şagirdlər arasında bərabər imkanlar yaradılmalıdır.
3. Ölkədə qaçqın uşaqlara xüsusi qayğı göstərilməlidir.
4. Hər bir uşağın mənzildə ailənin digər üzvləri ilə bərabər yaşamaq hüququ vardır.
5. Sinif özünüidarəsində bütün uşaqların iştirak etməsinə şərait yaradılmalıdır.
6. Hər bir uşağın tibbi yardım almaq hüququ vardır.

| Uşaq hüquqları | |
|---|---|
| Məktəbdə | *Sinifdə şagirdlər arasında bərabər imkanlar yaradılmalıdır.* |
| Ailədə | |
| Cəmiyyətdə | |

## B Qruplarla iş

**Müxtəlif yerlərdə davranış qaydalarını müəyyən edin və yazın.**

**I qrup:** Məktəbdə

**II qrup:** Ailədə

**III qrup:** Muzey və teatrlarda

**IV qrup:** Nəqliyyatda

## Dil qaydaları

**4 A** **Aşağıdakı sözlərin düzgün yazılışını müəyyən edin. Həmin sözlərdə hansı saitlər qoşa işlənməlidir?**

məllim | şayir | zəyif

**• Bunları bilməliyik •** **Qoşasaitli sözlər**

• Bəzi qoşasaitli sözlərin yazılışında səhvə yol verilir.

| Doğru | Yanlış |
|---|---|
| müraciət | müracət |
| təbiət | təbiyət |

**B** **Səhvləri düzəldərək sözləri köçürün.**

dayima | mütaliyə | şeyir | dayirə | xayin | teyatr

**C** **Nöqtələrin yerinə buraxılmış hərfləri yazın.**

m...ayinə | mə...ttəl | m...əyyən | tə...ssüf
inşa...t | təbi... | f...aliyyət | stad...on

**Ç** **Cümlələrdə səhv yazılmış sözün düzgün yazılışını müəyyən edin.**

1. Məktəbimizdə dərslik məllifləri ilə görüş keçirildi.
2. Kəndin camatı meydana toplaşmışdı.
3. Azər kosanın papağına təccüblə baxdı.
4. Fərid ayiləsi ilə birlikdə Amerikaya köçdü.
5. Kayinatda sonsuz sayda səma cisimləri var.

**D** **Cümlələrdə səhv yazılmış şəxs adlarını düzəldərək köçürün.**

1. Sinif yoldaşım Səyidə bizi ad gününə dəvət etdi.
2. Şahmat yarışında birinci yeri Şayiq qazandı.
3. Nayilə xala bizi bayram süfrəsinə qonaq etdi.
4. Fayiq əmi ağacların dibini bellədi.

**E** **Dördündən biri səhv yazılıb.**

| | | | |
|---|---|---|---|
| a) malicə | b) müavin | c) müasir | ç) səadət |
| a) möcüzə | b) mötərizə | c) əhaali | ç) elan |
| a) radio | b) mayili | c) dialoq | ç) sait |
| a) şücayət | b) sual | c) fauna | ç) mətbuat |

# Ümumiləşdirici təkrar

**5 A** **Nöqtələrin yerinə elə sözlər yazın ki, frazeoloji birləşmə alınsın.**

1) ... düşmək (təşvişə, həyatə)
2) ... açmaq (qutu, söz)
3) ... getmək (fikrə, bağçaya)
4) ... kəsmək (ağacı, sözünü)

**B** **Frazeoloji birləşmələri bir sözlə əvəz edib cümləri köçürün.**

1. Ovçu ayının hücumundan ***özünü itirdi***.
2. Sona çox işlədiyi üçün ***taqətdən düşmüşdü***.
3. Müğənninin səsi tamaşaçıları ***heyrətə saldı***.
4. Oğul, bacını incitmisən, get ***könlünü al.***
5. Ağacı qırdığımıza görə bağban ***cin atına mindi***.

**C** **Dördündən biri səhv yazılmışdır.**

| | | | |
|---|---|---|---|
| a) fənn | b) xətt | c) hiss | ç) sir |
| a) hököm | b) üzr | c) qəsr | ç) nəbz |
| a) kampüter | b) pomidor | c) motor | ç) komandir |
| a) anbar | b) çərşəmbə | c) zənbil | ç) sünbül |
| a) kombayn | b) lampa | c) panbıq | ç) kombinat |
| a) təyyarə | b) hədiyyə | c) saniyyə | ç) məsuliyyət |

**Ç** **Nöqtələrin yerinə uyğun gələn sözü artırıb köçürün.**

| | |
|---|---|
| mətn, mətin | a) Əsgərlərimiz paradda ... addımlarla irəliləyirdilər.<br>b) Şagirdlər plan əsasında ... yazdılar. |
| həsr, həsir | a) Ad günü münasibətilə anama şeir ... etdim.<br>b) Dəhlizdəki alabəzək ... evə yaraşıq verir. |
| əsr, əsir | a) XXI ... mühüm tarixi hadisələrlə yadda qaldı.<br>b) Döyüşdə xeyli düşmən ... götürüldü. |

**D** **Səhv yazılmış sözləri düzəldərək cümlələri köçürün.**

1. Məllim bizi teyatra, aktyorlarla görüşə apardı.
2. Otağın havası rütübətli və soyuq idi.
3. Qəhraman oğullarımız Vətəni qoruyur.
4. Ətraf mühüti qorumaq hamımızın borcudur.
5. Aprel ayının 12-si Kasmanavtika günüdür.
6. Üfiqdə Günəşin batmasını seyr etdim.

# 2 QARABAĞ – ANA YURDUM

**A** Azərbaycan xəritəsində II Qarabağ müharibəsi nəticəsində azad edilmiş rayon və şəhərləri müəyyən edin. Həmin ərazilər haqqında bildiklərinizi danışın.




**B** Qarabağla əlaqədar oxuduğunuz mətnləri xatırlayın. Həmin mətnlərin məzmununa istinad edərək verilmiş fikirləri əsaslandırın.







1. Qarabağda yerləşən Azıx mağarası dünyanın ən qədim yaşayış məskənlərindən biridir.
2. Qarabağ atları gözəl görünüşü, sürətli, çevik olması ilə dünyada şöhrət qazanıb.
3. İşğal nəticəsində Qarabağ əhalisi yurd-yuvasından didərgin düşmüşdü.
4. 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağ işğaldan azad olundu.

**C** **Qruplarla iş**

**Məlumat vərəqlərindəki faktları rabitəli mətn şəklində təqdim edin.**



### Qarabağ şikəstəsi

**Yaranma tarixi:** XIX əsr
**Sözləri:** xalq bayatıları
**Musiqisi:** Aşıq Valeh
**Məşhur ifaçısı:** Xan Şuşinski

“Qarabağ şikəstəsi” muğam sənətinin rəmzinə çevrilib.



### Üzeyir bəy Hacıbəyli

**Yaşadığı illər:** 1885 – 1948
**Doğum yeri:** Ağcabədi
**Böyüdüyü yer:** Şuşa
**Fəaliyyəti:** jurnalist, bəstəkar, musiqişünas, ictimai xadim
**Dəfn olunduğu yer:** Bakı, Fəxri Xiyaban

Azərbaycan Respublikasının dövlət himninin bəstəkarıdır. Onun doğulduğu gün – 18 sentyabr Milli Musiqi Günü kimi qeyd olunur.

### Cıdır düzü



**Yerləşdiyi ərazi:** Şuşanın ən yüksək hissəsində sıldırım qayalar və meşələrlə əhatələnmiş yer

Burada Novruz bayramı, el şənlikləri, “cıdır” adlanan at yarışları, “Xarıbülbül” adlı musiqi festivalı keçirilirmiş.

### Uzundərə rəqsi



**Yaranma dövrü:** XIX əsr
**Yarandığı yer:** Ağdam
**Mahir ifaçıları:** Əminə Dilbazi, Əlibaba Abdullayev və b.
**Musiqisi:** xalq

Rəqsin adı Ağdamda yerləşən bir dərənin adı ilə bağlıdır. Uzundərədən keçməli olan insanlar dincəlmək üçün yolüstü əylənib rəqs edərmişlər.

**Ç** **Səməd Vurğunun “Azərbaycan” şeirindən verilmiş bəndi oxuyun. Suallara cavab verin.**

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

1. Şeirdə Qarabağın təbiəti və musiqisi haqqında hansı məlumatlara rast gəldiniz?
2. Şeirin məzmunundan çıxış edərək "havalansın" sözünün mənasını izah edin.

•fəsil• 1

# QARABAĞ XANLIĞI

**1 A** **“Cavad xan” mətnini xatırlayın. Bu mətndə hansı tarixi şəxsiyyətlərdən danışılır? Hansı tarixi hadisə təsvir olunur?**

**B** **Qarabağın tarixi haqqında nə bilirsiniz?**

## PƏNAHƏLİ XAN

*Təxminən 270 il əvvəl Azərbaycan ərazisində iyirmiyə yaxın kiçik dövlət var idi. Bu dövlətlər xanlar tərəfindən idarə olunurdu, ona görə də xanlıq adlanırdı: Gəncə xanlığı, Qarabağ xanlığı, Naxçıvan xanlığı, Şəki xanlığı, İrəvan xanlığı, Şamaxı xanlığı və başqaları. Bu mətndə Azərbaycan xanlıqlarından birinin – Qarabağ xanlığının yaranmasından bəhs olunur.*

**Qarabağ xanlığı haqqında nəyi öyrənmək istərdiniz? Suallar tərtib edin və mətni oxuyarkən həmin suallara cavab axtarın.**



Qarabağ xanlığının banisi **Pənahəli xan Cavanşir** (1693-1763)

**• Söz boğçası •**

- əyan
- nüfuz
- sürgün
- iqamətgah
- bani
- miras

### Nadir şahın sarayında

Nadir şah dünya tarixində məşhur sərkərdələrdən biri olub. Onun əyanları arasında iki qardaş var idi: Fəzləli bəy və Pənahəli bəy. Onlar ağıl və fərasətlərinə görə böyük nüfuz qazanmışdılar. Bu qardaşlar Qarabağın Cavanşirlər soyundan idilər.

1736-cı ildə Nadir özünü şah elan edir və mərkəzi hakimiyyətini gücləndirmək məqsədilə bir sıra tədbirlər görür. Onun şahlığına etiraz edən bir neçə tayfanı, o cümlədən Cavanşirlər tayfasını sürgünə göndərir. Bu vaxt Fəzləli bəy həmyerlilərini müdafiə etmək üçün şahı fikrindən döndərmək istəyir. Ancaq buna nail ola bilmir və özü də cəzalandırılır.

### Yurda dönüş

Pənahəli bəy qardaşı Fəzləlinin ağır cəzalandırılmasını görüb sarayı tərk edir. Bundan xəbər tutan Nadir şah onu ələ keçirmək üçün ardınca çapar göndərir. Lakin onu tutmaq mümkün olmur. Pənahəli bəy Qarabağa gəlir. Bir müddət dağlarda, meşələrdə gizlənir. Camaatı incidənlərə qarşı mübarizə aparır, qarabağlıların ümid yerinə çevrilir.

- **soy** – əsil, əcdad, nəsil, kök.

Xan qızı Xurşidbanu Natəvan, Ağabəyim ağa, məşhur xanəndə Xan Şuşinski də Cavanşirlər soyundan olub.

**Qarabağ xanlığının yaranması**

Nadir şah 1747-ci ildə düşmənləri tərəfindən öldürülür. Bu hadisədən sonra Qarabağda böyük nüfuz qazanmış Pənahəli bəy özünü xan elan edir. Beləliklə, Qarabağ xanlığının əsası qoyulur.

Pənahəli xan xanlığı möhkəmləndirmək üçün tədbirlər görür. Vaxtilə yurdlarından sürgün edilmiş Qarabağ tayfalarının qayıtmasına kömək edir. Xanlığın müdafiəsini təmin etmək üçün güclü qoşun yaradır. İqamətgah üçün əvvəl Bayat, sonra Şahbulaq qalalarını tikdirir. Qısa müddətdə Qarabağ Azərbaycanın ən güclü xanlıqlarından birinə çevrilir.

**Şuşa qalası**

Pənahəli xan 1752-ci ildə Qarabağın hündür yerlərindən birində qala-şəhər saldırmaq qərarına gəlir. Bir tərəfdən uçurum, digər tərəfdən sıldırım qayalarla əhatə olunmuş yüksəklikdə indiki Şuşa şəhəri salınır. Şəhər xanın şərəfinə Pənahabad adlandırılır.

Qarabağ xanlığının iqamətgahı Şahbulaq qalasından buraya köçürülür. Şəhərdə "pənahabadi" adlı gümüş pul buraxılmağa başlayır.



*Şuşa qalası. Rus rəssamı Vereşaginin rəsmi. 1865-ci il.*

Şəhər 2,5 km uzunluqda müdafiə divarları ilə əhatə olunmuşdur. Qalanın dairəvi bürcləri, mazğalları və üç darvazası vardır.

Şuşa qalası Pənahəli xanın bizə miras qoyduğu ən böyük yadigardır. Bu qala indi də Azərbaycan xalqı üçün yenilməzlik və zəfər simvoludur.

## Söz ehtiyatı

**C** **Sözlərin izahları ilə tanış olun. Şəkillərlə uyğunlaşdırın.**

**Mazğal** – qala divarlarında atışma üçün qoyulan deşik.
**Bürc** – qala üzərində qurulmuş müşahidə və müdafiə qülləsi.
**Darvaza** – qədim şəhərlərin, qalaların hasarındakı böyük qapı.



## Nə anladın?

**Ç** **Mətnlə bağlı suallara cavab verin.**

1. Nadir şah ona qarşı etiraz edənləri necə cəzalandırdı?
2. Qarabağ xanlığı nə zaman yarandı?
3. Pənahəli xan Qarabağın müdafiəsini necə təşkil etdi?
4. Şuşa şəhərinin yerləşdiyi ərazini təsvir edin. Şəhərin həmin ərazidə salınmasının səbəbi nə idi?

**2 A** **Pənahəli xan hansı soydan idi? Həmin soydan olan hansı məşhur şəxslər var? Bu haqda mətnin hansı hissəsində məlumat verilir?**

**B** **"Pənahəli xan" mətnini yazmaqda müəllifin məqsədi nədir? Düzgün fikirləri seçin və seçiminizi əsaslandırın.**

1) Qarabağ xanlığının yaranması haqqında məlumat vermək
2) Qarabağ tayfaları haqqında məlumat vermək
3) Nadir şahın Qarabağ camaatı ilə münasibətindən bəhs etmək
4) Azərbaycan tarixində mühüm yer tutan Pənahəli xanı tanıtmaq

**C** **Mətndə hansı hadisələrin tarixi göstərilmişdir?**

• Diqqət et • XRONOLOGİYA

- **Xronologiya** – hadisələrin tarixi ardıcıllıqla əks olunmasıdır. Tarixi-informativ mətnlərdə hadisələr xronoloji ardıcıllıqla təsvir edilir.

**Ç** **Mətnə əsasən tarixi hadisələrin xronoloji ardıcıllığını müəyyən edin.**

A) Nadir şah düşmənləri tərəfindən öldürülür.
B) Qarabağın bir çox tayfaları Nadir şaha qarşı çıxır.
C) Dağların əhatəsində əlçatmaz Şuşa şəhəri salınır.
Ç) Pənahəli xan Qarabağ xanlığını yaradıb özünü xan elan edir.
D) Bayat qalası tikilir və Qarabağ xanlığının mərkəzi elan olunur.

**D** **Mətndəki məlumatlardan çıxış edərək aşağıdakı hadisələrin tarixini müəyyənləşdirin.**

1. Pənahəli Nadir şahın sarayını tərk edib Qarabağa qayıtdı.

A) **1733**  B) **1751**  C) **1738**

2. Pənahəli xanın ölümündən sonra oğlu İbrahimxəlil Qarabağ xanı oldu.

A) **1736**  B) **1748**  C) **1763**

**E** **Aşağıda verilmiş yaddaş xəritəsinə uyğun qeydlər götürməklə "Hüseynqulu xan" mətnini dinləyin.**




**Ə** **Götürdüyünüz qeydlərə əsaslanaraq "Hüseynqulu xan" mətninin tarixi-informativ mətn olduğunu əsaslandırın.**

**3 A** **Sizcə, tarixi mətnlərin müəllifləri keçmişdə baş vermiş hadisələr haqqında məlumatları necə əldə edirlər?**

• Diqqət et • **TARİXİ MƏNBƏ**

- Qədim əşyalar, abidələr, rəsmlər, xalçalar və əsərlər – **tarixi mənbələrdir**. Tarixi mənbələr qədim dövrlərdə yaşamış insanların həyatını, adət-ənənələrini, mədəniyyətini öyrənməyə kömək edir.

**B** **Aşağıdakı tarixi mənbələr "Pənahəli xan" mətnində verilmiş hansı məlumatı təsdiq edir?**

**1835-ci ildə rus tarixçilərindən biri yazırdı:**

"Şuşa sanki möcüzə nəticəsində yaranmışdır. Gəncə tərəfdən onu hündür daş divarlar, dar mazğallar və uca qüllələr əhatə edir. Qalanın daxilindəki kiçik dördbucaqlı qəsrlərdə isə Pənahəli xan və onun ailəsi məskunlaşıb."

**1847-ci ildə Mirzə Camal Cavanşir "Qarabağ tarixi" əsərində yazılırdı:**

"Nadir şah tərəfindən Xorasana köçürülmüş Qarabağ tayfaları vətənlərinə gəlməkdə idilər. Pənahəli xan adamları ilə birlikdə sürgündən qayıdan qarabağlıları qarşılamaq üçün sərhədə qədər getdi. Hər kəs yurduna qayıdıb rahatlandı..."

**Bu mənbələrdən əlavə hansı məlumatları əldə etdiniz?**

**C** **Azərbaycan Milli Tarix Muzeyində saxlanılan bu eksponat Qarabağ xanlığı haqqında hansı məlumatı təsdiq edir? “Pənahəli xan” mətninin hansı hissəsində bu tarixi mənbəyə istinad edə bilərik?**




Qarabağ xanlığının gümüş pulu – pənahabadi

**Ç** **Aşağıdakı bayatını oxuyun. Mətnin məzmunu ilə əlaqələndirin. Pənahəli xanın Azərbaycan tarixindəki rolu haqqında danışın.**

Bu qala bizim qala,
Həmişə bizim qala,
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala.

**Bayatıda işlənən “qala” sözünün mənalarına diqqət edin. Hansı misralarda “qala” sözü həm isim, həm də feil kimi düşünülə bilər?**

**D** **“Pənahəli xan” mətninə və aşağıdakı tarixi mənbələrə istinad edərək qalaların tikilmə ardıcıllığını müəyyən edin. “Qarabağ qalaları” adlı tarixi-informativ mətn hazırlayın.**

“Şuşa şəhərinin binasını qoydular. Şahbulaqda sakin olanları buraya gətirdilər. Sonra Pənah xan öz ailəsi üçün uca imarətlər və geniş binalar saldırdı...”

Mirzə Adıgözəl bəy (1845-ci il)

“Pənahəli xan öz iqamətgahını Bayat qalasından Şahbulağa köçürdü. Lakin buranın iqlimi isti idi. Həm də xanlığın mərkəzi kimi əlverişli deyildi. Bu səbəbdən xan burada həmişəlik qalmağı münasib görmədi...”

Əhməd bəy Cavanşir (1884-cü il)



Ağdam, Şahbulaq qalası



Şuşa qalası



Ağcabədi, Bayat qalası

# Dil qaydaları

**4 A** **Cümlələrdə "Şuşa" sözünə əlavə edilmiş şəkilçiləri müəyyən edin.**

***Şuşa*** *gözəl şəhərdir.* ***Şuşanın*** *əsrarəngiz təbiəti var.* ***Şuşanı*** *dünyanın bir çox yerlərində tanıyırlar.* ***Şuşaya*** *istirahət etməyə gələnlərin sayı çox olur. Hər il* ***Şuşada*** *“Xarıbülbül” festivalı keçirilir. Bu ətirli çiçəkləri* ***Şuşadan*** *gətiriblər.*

• Bunları bilməliyik • **İSMİN HALLANMASI**

• İsimlər cümlədə işlənərkən müxtəlif şəkilçilər qəbul edir. Buna **ismin hallanması** deyilir.

**İsmin 6 halı var:**

| Halların adı | Şəkilçilər | Nümunə |
|---|---|---|
| Adlıq | yoxdur | kitab |
| Yiyəlik | $-ın^4$ | kitab***ın*** |
| Yönlük | $-a^2$ | kitab***a*** |
| Təsirlik | $-ı^4$ | kitab***ı*** |
| Yerlik | $-da^2$ | kitab***da*** |
| Çıxışlıq | $-dan^2$ | kitab***dan*** |

**B** **Sualların yerinə “müəllim” sözünü uyğun şəkildə dəyişib köçürün.**

*1. (Kim?) sönməyən günəşdir. 2. Cəmiyyətin formalaşmasında (kimin?) zəhməti böyükdür. 3. (Kimə?) hörmət etmək hamının borcudur. 4. (Kimi?) məclisin başına dəvət edərlər. 5. (Kimdə?) olan səbir heç kimdə olmaz. 6. Biz həyatda düzgün yaşamağı (kimdən?) öyrənirik.*

**C** **İsimlərə uyğun şəkilçilər artırıb yazın. Hər bir ismin halını müəyyən edin.**

1. Malik balta ... itilədi.
2. Ləman pəncərə... bağladı.
3. Eldar usta ... kömək etdi.
4. Bakı ... havası küləklidir.
5. Kapitan gəmi ... idarə etdi.
6. Sərgi ... məşhur adamlar gəlmişdi.

• Diqqət et • **BİTİŞDİRİCİ SAMİTLƏR**

| **SAMİTLƏ** bitən sözlər | **SAİTLƏ** bitən sözlər | |
|---|---|---|
| dəftərin | meşənin | suyun |
| dəftərə | meşəyə | suya |
| dəftəri | meşəni | suyu |

**Ç** **Qruplarla iş**

**Aşağıdakı isimləri hallandırıb cümlələrdə işlədin.**

I qrup: rəssam, kəpənək, meşə
II qrup: qonaq, odun, Bakı
III qrup: övlad, sünbül, səma
IV qrup: gülçü, balıq, dəniz

# YADDAN ÇIXMAZ QARABAĞ

**1 A Vətənimiz üçün xidmətləri olmuş hansı Azərbaycan qadınlarını tanıyırsınız? Onlar haqqında bildiklərinizi danışın.**

## QARABAĞ ŞİKƏSTƏSİ

Qarabağ xanı İbrahimxəlilin qızı Ağabəyim ağa Fətəli şahla evlənərək İrana köçmüşdü. O, qürbət eldə Şuşasız çox darıxır, üzü heç gülmürdü. Kədərini, qəmini şeirlərə köçürürdü. Onun vətən həsrətli şeirləri dildən-dilə düşüb məclisləri dolaşırdı.

Deyilənə görə, bir dəfə Fətəli şah şeir məclisinə qonaq getmişdi. Kimsə yanıqlı avazla oxuyurdu:

*Mən aşiqəm, qara bağ,*
*Qara salxım, qara bağ.*
*Tehran cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ.*



Şah bu səsi dinlədikcə duyğulanır. Əyanlarından soruşur:

– Bu nə havadır belə?

– Qarabağ şikəstəsidir.

– Qarabağ şikəstəsini kim yazıbsa, sahibinə məndən xələt!

– Onda xələt Ağabəyim ağaya çatır.

Şahın kefi pozulur. Öz-özünə düşünür: "Axı, nə üçün Ağabəyim ağa Tehranı bəyənməsin?"

Bir neçə gün keçir. Şah məclislərin birində incikliyini üzə vurur:

– Ağabəyim, Qarabağ haqqında qoşduğun bayatı dillərdə dolaşır. De, sənin də dilindən eşidək, görək nə demisən, vətəni necə vəsf etmisən?

Ağabəyim ağa arif adam idi, **sözü göydə tutmuşdu.** Fətəli şahın ondan incidiyini anlamışdı. O, qavalı götürüb yanıqlı bir avazla oxumağa başladı.

*Mən aşıq kimə gedim,*
*Kimim var kimə gedim*
*Bu dərdi sən vermisən*
*Dərmana kimə gedim.*
*Di dur gəl, dərdin alım, sevirəm...*

Bütün məclis əhli bu ifadan təsirlənmişdi. Həm nəğ-

mənin ecazkarlığı, həm də Ağabəyim ağanın gözlərindəki nisgil Fətəli şaha incikliyini unutdurdu.

O, Ağabəyim ağadan soruşur:

– Eşitdim, bu havanı Qarabağ şikəstəsi adlandırmısan? Bu adla nə demək istəmisən, Ağabəyim?

– Şah sağ olsun, el-obamdan ayrı düşmüşəm. Yarı canım vətənimdə qalıb. Qarabağdan ayrılmaqla sanki şikəst qalmışam.

Fətəli şah dedi:

– Bu bayatını eşidəndə sahibinə xələt verməyi tapşırmışdım. İndi dilə, məndən nə dilərsən.

– Şah sağ olsun, bir bağ saldır. Qarabağdakı Xanbağına bənzəsin.

Fətəli şah əmr verir:

– Ağabəyimin arzusu yerinə yetirilsin! Xan bağına bənzər bağ salınsın! Bu bağın hər qarış torpağı, hər gülü, yarpağı, suyu, suvaranı da Qarabağdan gətirilsin!

Ay dolanır, il keçir, bağ ərsəyə gəlir. Ağabəyim ağa bu cənnət güşəni "Vətən bağı" adlandırır.

Qarabağdan gətirilən hər ağac, hər kol, hər gül Vətən bağında bitir. Bircə xarıbülbüldən başqa. Bağbanlar çox çalışsalar da, bu Qarabağ incisini Tehranda yetişdirə bilmirlər. Xarıbülbülün yoxluğu Ağabəyimi dilə gətirir:

*Vətən bağı al-əlvandır,*
*Yox içində xarıbülbül.*
*Nədən hər yerin əlvandır,*
*Köksün altı sarı, bülbül?!*

*Mehriban Vəzirin*
*"Ağabəyim ağa Cavanşir" əsəri*
*əsasında işlənmişdir.*



**• Söz boğçası •**

- şikəstə
- xələt
- ərsəyə gəlmək
- vəsf etmək
- köks
- nisgil

## Söz ehtiyatı

**B** **Hansı izah "sözü göydə tutmaq" ifadəsinin mənasına uyğundur?**

1. Gözəl səslə oxuya bilmək
2. Tez anlamaq, dərhal başa düşmək
3. Deyilənə əhəmiyyət verməmək

## Nə anladın?

**C** **Mətnlə bağlı suallara cavab verin.**

1. Ağabəyim ağa kim idi? O niyə Vətənindən ayrı düşmüşdü?
2. Fətəli şah Ağabəyim ağadan nə üçün incimişdi?
3. Ağabəyim ağanın vətən həsrətini azaltmaq üçün şah nə etdi?

**2** **A** **"Qarabağ şikəstəsi" mətnini yazmaqda müəllifin məqsədi nədir? Düzgün fikirləri seçin və seçiminizi əsaslandırın.**

1) İbrahimxəlil xan və Fətəli şahı tanıtmaq
2) Ağabəyim ağanın Vətən həsrətini çatdırmaq
3) Qarabağın gözəl təbiətini təsvir etmək
4) "Qarabağ şikəstəsi" muğamının yaranmasından bəhs etmək

**B** **Fikirlərin hansı mətnə aid olduğunu müəyyən edin. Seçiminizi əsaslandırın.**

**"Pənahəli xan"**

**"Qarabağ şikəstəsi"**

**Hər ikisi**

1. Faktlarla yanaşı, təxəyyül də var.
2. Tarixi hadisələr xronoloji ardıcıllıqla əks olunur.
3. Tarixi şəxsiyyətlərin adı çəkilir.
4. Mətndəki məlumatlar rəvayətə əsaslanıb.

**C** **Məlumat vərəqini oxuyun. Hansı faktlar "Qarabağ şikəstəsi" mətnində öz əksini tapıb?**

### Ağabəyim ağa Cavanşir



1780-1832

**Doğum yeri:** Şuşa
**Atası:** İbrahimxəlil xan
**Həyat yoldaşı:** Fətəli şah
**Fəaliyyəti:** şairə, diplomat, xeyriyyəçi
**Bildiyi dillər:** Azərbaycan, fars və fransız dili
**İranda yaşadığı illər:** 1801-1832
**Əsas xidmətləri:**
– Bütün var-dövlətini Qarabağın rus işğalından qorunmasına xərcləyib.
– İran dövlətinin idarə edilməsində yaxından iştirak edib.
– 1811-ci ildə Fransa və İngiltərə diplomatları ilə görüşlər keçirib.

**Ç** **Qruplarla iş**

**"Qarabağ şikəstəsi" mətni və məlumat vərəqi əsasında Ağabəyim ağa Cavanşir haqqında informativ mətn yazın.**

**3 A** **Ağabəyim ağanın hansı bayatısı Fətəli şahı incik salmışdı? Həmin bayatını bir daha oxuyun. Hər bir misrada hecaların sayını müəyyənləşdirin.**

• Yadda saxla • **BAYATI**

- **Bayatı** – dörd misradan ibarət şeir növüdür. Hər misrası yeddi hecadan ibarət olur.

*Çox vaxt "Mən aşiq", "Əzizim" sözləri ilə başlanır.*

*Əsas fikir son iki misrada söylənilir.*

Əzizim, yola baxar,
Həsrət könlümü yaxar.
Dönüb ağ göyərçinə,
Vətən, gəl məni apar.

*1, 2 və 4-cü misraları qafiyələnir.*

**B** **Misraların düzgün ardıcıllığını müəyyən etməklə bayatıları dəftərinizə köçürün.**

a Bir şirin sözə qaldı.
b Əzizim, sözə qaldı,
c El-oba bizə qaldı.
ç Yad qovuldu dağlardan,

a Bilirsənmi kimləri,
b Dörd yanı qala dağlar,
c Salıbsan yola, dağlar?
ç Əzizim, ala dağlar,

**C** **Aşağıdakı bayatıları oxuyun. Bayatılar hansı tarixi hadisələri yada salır? Həmin tarixi hadisələr haqqında bildiklərinizi danışın.**

Əzizim, yaralıyam,
Vətəndən aralıyam,
Yurdumda düşmən qaldı,
Haqqımı almalıyam.

***

Sevin bu gün, gül bu gün,
Yadda saxla, bil bu gün.
Şuşamız azad oldu,
Nəğmə deyir dil bu gün.

*Mina Rəşid*

Mən aşiqəm, əsirdi,
Külək çox sərt əsirdi.
Kimə dərdimi deyim?
Zəngilanım əsirdir.

***

Əzizim, bülbül gəlir,
Həm də xarı gül gəlir.
Üçrəngli al bayrağım,
Qarabağda yüksəlir!

*Qəhrəman Əli*

**Ç** **Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü haqqında nə bilirsiniz? Aşağıdakı mətni oxuyun və öyrəndiyiniz yeni məlumatları qeyd edin.**

## XUDAFƏRİN KÖRPÜSÜ



Min illərlə xalqa sevinc, bərəkət gətirən Araz çayı, həm də xalqın taleyində ayrılıq simvoluna çevrilib.

Belə ki, 1828-ci ildə Azərbaycan iki yerə bölündü. Azərbaycanın cənub torpaqları İrana, şimalda yerləşən torpaqları isə Rusiyanın tərkibinə keçdi. Araz çayı Cənubi Azərbaycan ilə Şimali Azərbaycanı ayıran sərhədə çevrildi. Əlaqələri kəsmək üçün Araz çayı üzərindəki Xudafərin körpüsü dağıdıldı. Sərhəd çəpərləri çəkildi.

1989-cu il dekabrın 31-də xalq həsrətə son qoymaq üçün sərhəd çəpərlərini sökdü. Bununla da Azərbaycan Respublikasının müstəqilliyinə yol açıldı. Heydər Əliyevin qərarı ilə dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunmağa başladı.

1993-cü ildə Xudafərin körpüsünün yerləşdiyi Cəbrayıl rayonu Ermənistan tərəfindən işğal olunmuşdu. Rəşadətli Ordumuz 2020-ci ildə Xudafərin körpüsünü işğaldan azad etdi.

Azərbaycanın şimalı ilə cənubunu birləşdirən Xudafərin xalqımızın birlik rəmzidir.

**D** **Mətndə əks olunan tarixi hadisələrlə bağlı suallar hazırlayın.**

**E** **Aşağıdakı bayatıları oxuyun. Oxuduğunuz mətndəki tarixi hadisəyə əsasən bayatıları şərh edin.**

Keçmə, Araz dərindir,
İçmə, suyu sərindir.
Həsrət baxan bu ellər,
Sənin də ellərindir.

Araz, Araz, Xan Araz!
Dağlardan axan Araz!
Qardaşdan ayrı saldın,
Evimi yıxan Araz!

**Ə** **“Zəfər paradı” mətnini dinləyin.**
**Mətnə istinad edərək aşağıdakı fikirləri əsaslandırın.**

1. Fikirlərimizi daha aydın və təsirli çatdırmaq üçün şeir nümunələrindən istifadə edə bilərik.
2. Bir çox xalq mahnılarımız və şeirlərimiz dillər əzbəridir.
3. Bir çox şeirlərimizdə xalqın tarixi əks olunur.
4. Şeir və musiqi nümunələrində Azərbaycan xalqının vətən sevgisi aydın görünür.



# Dil qaydaları

**4 A** **Boyaların rəngini fərqləndirmək üçün hansı sözlərdən istifadə edərdiniz?**



• Bunları bilməliyik • **SİFƏTİN DƏRƏCƏLƏRİ**

• Sifətlər varlığın əlamətinin az və ya çox olduğunu ifadə edə bilər. Buna **sifətin dərəcələri** deyilir:

| Adi dərəcə | Azaltma dərəcəsi | Çoxaltma dərəcəsi |
|---|---|---|
| *göy* | *göyümtül, açıq-göy* | *tünd-göy* |

**B** **Sifətləri dərəcələrinə görə qruplaşdırın.**

*qara, şipşirin, yupyumru, sapsarı, göyümtül, yağlı, kəmşirin, acıtəhər, açıq-qırmızı, dümağ, bozumtul, doğru, tumturş*

a) azaltma dərəcəsi b) adi dərəcə c) çoxaltma dərəcəsi

• Bunları bilməliyik • **BİTİŞİK, AYRI, YOXSA DEFİSLƏ**

| Defislə yazılır | Bitişik yazılır | Ayrı yazılır |
|---|---|---|
| **açıq-boz**<br>**tünd-qırmızı**<br>**ala-çiy** | **yamyaşıl**<br>**kəmşirin**<br>**acıtəhər** | **ən yaxşı**<br>**daha maraqlı**<br>**lap uzun** |

**C** **Səhvləri düzəltməklə cümləri köçürün.**

*1. Qoğallar yup-yumşaq və dadlı idi.*
*2. Kərim ən-yüksək mükafata layiq görüldü.*
*3. Həyətin darvazası açıq yaşıl rəngdədir.*
*4. Dünənki qarpız lapşirin idi.*
*5. Çəmənlikdə qıp-qırmızı lalələr göz oxşayırdı.*
*6. Nigarın topu daha-böyükdür.*
*7. Ananasın turş-təhər dadı var.*
*8. Qırmızı kəmər lapqısadır.*
*9. Ayxan düm-ağ köynək geyinmişdi.*

**Ç** ***Sifətləri cümlələrdə uyğun dərəcələrdə işlədin.***

*boz → azaltma dərəcəsi*
*yumru → çoxaltma dərəcəsi*
*turş → azaltma dərəcəsi*

*sağlam → çoxaltma dərəcəsi*
*bənövşəyi → azaltma dərəcəsi*
*təmiz → çoxaltma dərəcəsi*

•fəsil• 3

# QARABAĞ AZƏRBAYCANDIR!

**1 A Ulu öndər Heydər Əliyev haqqında bildiklərinizi danışın. Onunla bağlı daha nə öyrənmək istərdiniz? Bu haqda suallar hazırlayın.**

## Zəfərə aparan yol



*9 oktyabr 1998-ci il. Biləsuvar. Məcburi köçkünlərlə görüş*



*2020-ci il, 8 noyabr. Şəhidlər xiyabanı. Şuşa zəfərinin elan edilməsi*

**• Söz boğçası •**

- ataşkəs
- münaqişə
- modern
- müjdə
- taktika
- yenilməzlik

**I Qarabağ müharibəsi.** 1991-ci il oktyabrın 18-də Azərbaycan Rusiya imperiyasının tərkibindən çıxıb dövlət müstəqilliyini bərpa etdi. Yenicə müstəqillik qazanan ölkə hələ ordusunu möhkəmləndirə bilməmişdi. Fürsətdən istifadə edən Ermənistan ordusu Azərbaycan torpaqlarını işğal edir, minlərlə azərbaycanlı öz yurd-yuvalarından didərgin salınırdı. Belə bir vaxtda 1993-cü il iyunun 15-də xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi. Onun səyi nəticəsində 1994-cü ildə Ermənistan və Azərbaycan arasında atəşkəs elan olundu. Bu, işğal olunmuş torpaqların geri qaytarılması üçün vacib idi.

Azərbaycan Respublikası özünü müdafiə etməyə qadir ordu yaratmalı, dünyada müstəqil və güclü dövlət kimi tanınmalı idi. Ulu öndər bu missiyanı yerinə yetirmək üçün böyük işlər gördü. O deyirdi: "Hamımızın bir müqəddəs arzusu var. O da Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır".

2003-cü ildə İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışır, eyni zamanda müasir və peşəkar Azərbaycan Ordusunun yaranmasına səy göstərirdi.

**Aprel döyüşləri.** Atəşkəsi tez-tez pozan Ermənistan işğalçı əməllərinə davam edirdi. Növbəti hücum 2016-cı ilin aprel ayında oldu. Dörd gün davam edən döyüşlərdə Azərbaycan Milli Ordusu düşmənə layiqli cavab verdi. İşğal altında olan bir sıra yerlər azad olundu. Münaqişənin sülh yolu ilə həlli üçün Azərbaycan yenidən döyüşləri dayandırdı. Lakin düşmənin Qarabağı qaytarmaq niyyəti yox idi.

**II Qarabağ müharibəsi.** 2020-ci ilin sentyabr ayında düşmən yenidən hücuma keçdi. Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycan ordusuna bu hücumların qarşısını almaq üçün əks-hücum əmrini verdi. Qarabağ uğrunda ağır döyüşlər başlandı.

Ordumuz böyük şücaət göstərərək işğal altında olan torpaqları 44 gündə azad etdi. 8 noyabr Azərbaycan tarixinə Zəfər Günü kimi daxil oldu. Həmin gün sıldırım qayalar üzərində yerləşən Şuşa düşmən tapdağından xilas edildi. İlham Əliyev bu müjdəni verərkən dedi: "... Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın dünya azərbaycanlıları!"



*2020-ci il, 10 noyabr. Bakı. Vətəndaşların qələbə sevinci*

Uzun illər vətən həsrəti ilə yaşayan xalq bu zəfəri böyük çoşqu ilə qeyd etdi. Bu qələbə Azərbaycan xalqının iradəsini, ordumuzun yenilməzliyini və dövlətimizin gücünü dünyaya tanıtdı. Bu savaş dünya hərb tarixinə "modern müharibə örnəyi" kimi daxil oldu. Hərbçilərimizin istifadə etdiyi döyüş taktikası dünyanın bir çox hərbi məktəblərində öyrədilməyə başlandı.



*2020-ci il, 10 dekabr. Bakı. Zəfər paradı*

## Söz ehtiyatı

**B** **Verilmiş izahlar söz boğçasındakı hansı sözlərə uyğundur?**

1. Müharibənin müvəqqəti dayandırılması
2. Şad xəbər, sevindirici söz
3. Müasir, çağdaş; yeni dövrün tələblərinə uyğun
4. Məqsədə çatmaq üçün seçilmiş yol, üsul

## Nə anladın?

**C** **Mətnlə bağlı suallara cavab verin.**

1. Heydər Əliyev hakimiyyətə nə zaman gəldi?
2. Heydər Əliyevin Azərbaycan üçün hansı xidmətləri olub?
3. Aprel döyüşləri nə ilə nəticələndi?
4. 8 noyabrda hansı tarixi hadisə qeyd edilir?

**Ç** **Mətnə aid şəkilaltı şərhlərdən hansı əlavə məlumatları almaq olar?**

**D** **Tarixləri qeyd etməklə aşağıdakı tarixi hadisələrin xronoloji ardıcıllığını müəyyənləşdirin.**

1. Heydər Əliyev hakimiyyətə gəldi.
2. Ermənistan və Azərbaycan arasında atəşkəs elan olundu.
3. Zəfər paradı keçirildi.
4. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdi.
5. Qarabağ işğaldan azad edildi.

**E** **Oxuduğunuz mətndəki tarixi hadisələr və aşağıda verilmiş məlumatlar əsasında xronoloji cədvəl tərtib edin.**

*2021-ci il oktyabrın 4-də Cəbrayıl, 17-də Füzuli, 20-də Zəngilan, 25-də Qubadlı işğaldan azad edildi. Noyabrın 8-də Şuşa şəhərinin azad olunması ilə müharibənin taleyi həll olundu. Bundan iki gün sonra Ermənistan təslim oldu. Düşmənin hərbi qüvvələri noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını tərk etdi.*

| Tarix | Hadisə |
|---|---|
| 1991-ci il 18 oktyabr | Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. |
| | |

**2 A** **Mətndən tarixi şəxsiyyətlərin söylədikləri fikirləri seçin. Həmin fikirləri fərqləndirmək üçün hansı durğu işarələrindən istifadə olunub?**

• Yadda saxla • **SİTAT**

- Mətndə başqa bir müəllifə aid olan sözlər **sitat** adlanır. Sitat dırnaq içərisində yazılır və onun müəllifi göstərilir.

*Hərbçi olmaq istəyən gənclər hərbi təhsil almalı, savadlı və bacarıqlı olmalıdırlar. Ulu öndər Heydər Əliyev hərbçilərlə görüşlərin birində demişdir: “Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır!”*

**B** **“Güllələnmiş heykəllər” mətnini qeyd götürməklə dinləyin. Verilmiş plan və sitatlar əsasında mətnin qısa məzmununu yazın.**

**PLAN:**

1. Qarabağın görkəmli incəsənət xadimləri.
2. Abidələrimizin ermənilər tərəfindən dağıdılması.
3. Heykəllərin xilas edilməsi.
4. Abidələrin Şuşaya qaytarılması.

## SİTATLAR:

**1)** "...Dahi şəxsiyyətlərimizin büstləri bizim qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma vətənə qayıdıblar. Biz onları qaytarmışıq".

*(Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev)*

**2)** "Mən bir vətəndaş olaraq sevinirəm ki, büstlər tarixi məkanına qaytarıldı. Qoy gələcək nəsillər ermənilərin Azərbaycana qarşı törətdikləri vəhşilikləri heç vaxt unutmasınlar".

*(Heykəltəraş Namiq Dadaşov)*



*Dahi şəxsiyyətlərimizin büstləri: Üzeyir bəy Hacıbəyli, Xurşidbanu Natəvan, Bülbül*

**C** **Sizcə, mətndə başqa bir müəllifin sözlərindən nə üçün istifadə olunur? Fikrinizi əsaslandırın.**

1) Mətnin maraqlı olması üçün
2) Mövzu üzrə geniş məlumat vermək üçün
3) Öz fikrini əsaslandırmaq üçün

**Ç** **Aşağıdakı fikirləri əsaslandırmaq üçün hansı aforizmlərdən istifadə etmək olar? Uyğunluğu müəyyən edin.**

## FİKİRLƏR:

1. Bir işə başlamazdan əvvəl başqalarının fikrini, rəyini soruşmaq lazımdır.
2. Dinləyiciləri yormamaq üçün fikrimizi qısa çatdırmağa çalışmalıyıq.
3. Çətinliklərə dözmək, məqsədə çatmaq üçün yorulmadan çalışmaq lazımdır.
4. Mütaliə etmək insanın dünyagörüşünü artırır, xoşbəxt yaşamağına kömək edir.

## AFORİZMLƏR:

a) "Yaxşı kitab çox qiymətli xəzinədir" (Həsən bəy Zərdabi).
b) "Səbir ilə yaranar hər böyük zəfər" (Səməd Vurğun).
c) "İşi bilənlərlə məsləhətləşən adam heç vaxt ziyan çəkməz" (Həzrəti Məhəmməd).
ç) "Çox sözün kərpictək qiyməti olmaz" (Nizami Gəncəvi)

**3 A** **Sizcə, ölkə başçısının hansı keyfiyyətləri olmalıdır? Çətin problemlərin həllində milli liderin rolu nədən ibarət ola bilər? Fikrinizi əsaslandırın.**

• Diqqət et • **MÜHAKİMƏ VƏ SİTAT**

• Bir çox mətnlərdə müəllifin fikirləri – mühakimələri əks olunur. Müəllif fikirlərini əsaslandırmaq üçün bəzən sitatlardan istifadə edir.

**B** **Mətni oxuyun. Suallara cavab verin.**

## Vətənə məhəbbət onu tanımaqdan başlayır

Hər kəs öz Vətəninin keçmişini bilməli, gələcəyini düşünməlidir.

Ölkəsini daha yaxından tanıyan vətəndaş Vətəni sevəcək, onu göz bəbəyi kimi qoruyacaq. Görkəmli alim Xudu Məmmədovun gözəl bir fikri var: "Uşaqlara Vətəni sevməyi öyrətmək lazım deyil. Siz onlara Vətəni tanıdın, özləri sevəcəklər”.

Ana dilimiz, adət-ənənələrimiz, mədəniyyətimiz, tarixi torpaqlarımız bizə ulu babalarımızdan miras qalıb. Uzun illərdir ki, mənfur düşmən Azərbaycana məxsus bu dəyərləri mənimsəməyə çalışır. Bunun qarşısını almağın ən uğurlu yolu vətənini tanımaq, onun dəyərlərini qorumaq və həqiqəti dünyaya çatdırmaqdır. Ulu öndər Heydər Əliyev demişkən: "Xalqın, millətin taleyi hər bir insanın taleyinə çevrilməlidir".

Deməli, biz bu dəyərləri qorumalı və gələcək nəsillərə ötürməliyik.

1) Mətnin giriş, əsas və sonluq hissəsini müəyyən edin.
2) Müəllifin mətndəki əsas fikri, mühakiməsi nədən ibarətdir?
3) Müəllif öz fikrini necə əsaslandırır?
4) Sitatları müəyyən edin.

**C** **Suallara cavab verməklə verilmiş fikirlərə münasibət bildirin. Sitatlardan istifadə etməklə fikrinizi əsaslandırın və mətn yazın.**

**I qrup**

| | |
|---|---|
| Fikir: | **İstənilən sənət, peşə ilə ölkəni dünyaya tanıtmaq olar.** |
| Sual: | İdmançı, rəssam və başqa peşə sahibləri vətənini beynəlxalq yarışlarda necə təmsil edirlər? |
| Sitat: | Elm və sənət qoşa qanaddır. *(Xudu Məmmədov)* |

**II qrup**

| | |
|---|---|
| Fikir: | **Öz ana dilimizlə yanaşı, xarici dil də öyrənməliyik.** |
| Suallar: | 1. Ana dilinin həyatımızda rolu nədən ibarətdir?<br>2. Xarici dil öyrənməyin hansı üstünlükləri var? |
| Sitat: | Başqa dil həyata yeni baxış deməkdir. *(italyan rejissoru Federiko Fellini)* |

## Dil qaydaları

**4 A** **Verilmiş sözləri "sürmək" feili ilə işlədərək söz birləşmələri düzəldin. Hər bir sözə uyğun gələn sualı müəyyən edin.**

çox
geri
sürətlə
axşam

→ **SÜRMƏK**

**Suallar**

nə vaxt?
necə?
nə qədər?
hara?

• Bunları bilməliyik • **ZƏRF**

• **Zərf** – hərəkətin icra tərzini, zamanını, yerini, miqdarını bildirir.
**cəsarətlə** (necə?) danışmaq, **irəli** (hara) getmək
**hərdən** (nə vaxt?) görüşmək, **birə-beş** (nə qədər?) artırmaq

**B** **Sual bildirən sözləri uyğun zərflərlə əvəz edib cümlələri köçürün.**

**dünən, həmişə, bir qədər, qəflətən, təəccüblə, yuxarı**

1. Əli (necə?) baxdı.
2. Körpə (necə?) yıxıldı.
3. O, (nə vaxt?) sərgiyə getdi.
4. İdmana (nə vaxt?) birlikdə gedirik.
5. Biz liftlə (hara?) qalxdıq.
6. Siz parkda (nə qədər?) gözlədiniz.

**C** **Aşağıdakı zərfləri cümlələrdə işlədin.**

*qəhrəmancasına, irəli, yavaş, yenə, sakitcə, bayaq, aşağı, dəfələrlə*

**Ç** **Hansı cümlədə "xeyli" sözü hərəkətin miqdarını bildirir?**

| | |
|---|---|
| Süfrədə **xeyli** meyvə var. | Elvin bu səhər **xeyli** qaçdı. |

• Bunları bilməliyik • **ZƏRF HESAB EDİLİR**

• Cümlədə bəzi ad, əlamət, say bildirən sözlər hərəkətə aid olduqda zərf hesab edilir.
Məsələn: Gülay ***gözəl*** *(zərf)* oxudu. Sara ***gözəl*** *(sifət)* don geyinmişdi.

**D** **Hansı cümlələrdə fərqləndirilmiş sözlər zərfdir?**

| | |
|---|---|
| **1. Yaxşı** oğulla fəxr edirlər. | sifət, *yoxsa* zərf |
| **2.** Arif imtahana **yaxşı** hazırlaşıb. | sifət, *yoxsa* zərf |
| **3. Gecə** gündüzdən sərin olur. | isim, *yoxsa* zərf |
| **4.** Kəndə **gecə** çatdıq. | isim, *yoxsa* zərf |

**1 A** **“4a” sinfinin hazırladığı divar qəzeti ilə tanış olun və tapşırıqları yerinə yetirin.**

# GÜNƏŞ

№ 2 / 20 oktyabr 2022

## QƏHRƏMANLARIMIZI TANIYAQ

# Dastana döndü...



Xudayar Yusifzadə (1998-2020)

*Xudayar Müslüm oğlu Yusifzadə II Qarabağ savaşında şəhid olmuş qeyrətli Azərbaycan oğullarından biridir. O həm döyüşlərdə göstərdiyi şücaəti, həm də ifa etdiyi “Vətən yaxşıdır” mahnısı ilə milyonların sevimlisinə çevrildi.*

*Həmsöhbətimiz Radə Yusifzadə bizi oğlunun həyat yolu ilə tanış etdi.*

**– Xudayarı necə təqdim edərdiniz?**

– O, ailənin sonbeşiyi idi. Çox şən, zarafatcıl, vətənpərvər olub. Yoldaşları belə deyirlər: “Döyüş vaxtı Xudayar duzlu zarafatları, vətənə aid mahnıları, qəhrəmanlığı ilə bizi qələbəyə ruhlandırırdı”.

**– Xudayarın ifasından hamı danışır. Onun musiqi təhsili vardımı?**

– Bəli. O, Bərdə şəhər 1 nömrəli musiqi məktəbində muğam təhsili alıb.

**– Xudayarın döyüş yolu necə başladı?**

– O, sərhəd qoşunlarında gizir kimi xidmət edirdi. Onun döyüşdə olduğunu bilmirdim. Bizimlə gülə-gülə danışırdı. Amma bir dəfə danışanda güllə səsi eşitdim. Tez dilləndi: “Ana, narahat olma, yoldaşlarım atəşfəşanlıq edirlər. Qubadlı azad olunub”. Sən demə, Xudayar müharibə başlanan gündən könüllü döyüşürmüş. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan uğrunda qəhrəmancasına vuruşub. Onunla fəxr edirəm.

**– Şəhidlərimizin ruhu şad olsun! Onların xatirəsini yaşatmaq borcumuzdur. Müsahibəyə görə çox sağ olun.**

## ŞEİR GUŞƏSİ

**Azərbaycandır Qarabağ!**
*(Vahid Əziz)*

Doğmadır torpağı, daşı,
Xalqım qədim vətəndaşı,
Ömrü-günü, can sirdaşı;
Biri alov, biri ocaq –
Azərbaycandır Qarabağ!

Tanıyarlar boyumuzdan –
İrsimizdən, soyumuzdan,
Su içər öz quyumuzdan;
Biri gövdə, biri budaq –
Azərbaycandır Qarabağ!

Baba adı “Odlar yurdu”,
Keşikçisi böyük Ordu,
Oğlu-qızı igid, qoçaq!
Bizimdir, bizim olacaq;
Azərbaycandır Qarabağ!

Qəzetin yaradıcı heyəti: Redaktor: Lalə Kazımlı.
Dizayner: Fuad Nəzərli.
Müxbirlər: Məryəm Cəfərzadə, Ümid Əlizadə, Xədicə Qurbanova.

**• Söz boğçası •**

• qəzet • heyət • redaktor • rubrika
• məqalə • dizayner • gizir

## HİKMƏT XƏZİNƏSİ

Vətənçün yaşayan, vətənçün ölən,
Səmimi bir insan nə bəxtiyardır!...
*(Mikayıl Müşfiq)*

Vətən bir millətin evidir.
*(Əhməd Midhəd)*

Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.
*(Atalar sözü)*

Qürbət görməyən adam vətən qədri bilməz.
*(Atalar sözü)*

## AYIN XƏBƏRİ

**Maraqlı gün**

Oktyabrın 14-də sinif rəhbərimiz Mehriban Alıyevanın rəhbərliyi ilə Hərbi Qənimətlər Parkında olduq.
Parkda Azərbaycan ordusunun müharibədə ələ keçirdiyi hərbi qənimətlər nümayiş etdirilir.




## TARİXİN BU GÜNÜ

2020-ci il oktyabrın 20-də Zəngilan şəhəri işğaldan azad edilmişdir.

# Nə anladın?

**B** **Qəzetlə bağlı sualları cavablandırın.**

1. Qəzetin adı nədir?
2. Qəzetin bu nömrəsi hansı mövzuya həsr olunmuşdur?
3. Qəzetdə hansı rubrikalar var?
4. Qəzetdə Azərbaycanın hansı qəhrəmanı haqqında məlumat verilmişdir?
5. “Hikmət xəzinəsi” rubrikasındakı aforizmləri seçib oxuyun.
6. Qəzetdə verilən xəbər nə ilə bağlıdır?

# Düşün və cavab ver

**C** **“Vətən yaxşıdır” nəğməsini dinləyin. Xudayar haqqındakı məqalənin niyə belə adlandırıldığını izah edin.**

**Ç** **Məktəbiniz və ya sinfinizlə bağlı xəbər hazırlayın.**

**D** **Araşdırma**

**“Zəfər Günü” mövzusunda divar qəzeti üçün araşdırma aparın.**

1. Zəfər Gününün tarixi haqqında məlumat toplayın.
2. II Qarabağ müharibəsini əks etdirən fotoşəkillər əldə edin.
3. Mövzu ilə bağlı şeirlər seçin.
4. Qarabağ müharibəsinin qəhrəmanları haqqında məlumat toplayın.

**2 A** **Divar qəzeti ilə bağlı təlimatı oxuyun və qəzet hazırlamaq üçün iş bölgüsü aparın.**

**TƏLİMAT**

**1. Divar qəzetinizin redaksiya heyətini müəyyən edin:**

**Redaktor** – redaksiya heyətinin rəhbəri. Qəzet materiallarına düzəlişlər edir.
**Müxbirlər** – qəzet üçün mövzu üzrə materiallar hazırlayırlar.
**Dizayner** – qəzet materiallarının bədii tərtibatını verir: mətn və fotoşəkillərin qəzet səhifəsində yerini müəyyən edir.

**2. Qəzeti tərtib edərkən aşağıdakıları nəzərə alın:**

*Qəzetin hazırlandığı tarix və qəzetin nömrəsi qeyd olunur.*

*Divar qəzeti üçün seçilən ad ilboyu dəyişməz qalır.*

*Məzmuna uyğun fotoşəkil və ya rəsmlərdən istifadə olunur.*



GÜNƏŞ

№ 2 / 20 oktyabr 2022

QƏHRƏMANLARIMIZI TANIYAQ

**Dastana döndü...**

Xudayar Yusifzadə (1998-2020)

*Xudayar Müslüm oğlu Yusifzadə II Qarabağ savaşında şəhid* **olmuş qeyrətli** *Azərbaycan* **oğullarından biridir**. *O həm döyüşlərdə göstərdiyi şücaəti, həm də ifa etdiyi "Vətən yaxşıdır" mahnısı ilə milyonların sevimlisinə çevrildi.*

*Həmsöhbətimiz Rədə Yusifzadə bizi oğlunun həyat yolu ilə tanış etdi.*

**– Xudayarı necə təqdim edərdiniz?**

– O, ailənin sonbeşiyi idi. Çox şən, zarafatcıl, vətənpərvər olub. Yoldaşları belə deyirlər: "Döyüş vaxtı Xudayar duzlu zarafatları, vətənə aid mahnıları, qəhrəmanlığı ilə bizi qələbəyə ruhlandırırdı".

**– Xudayarın ifasından hamı danışır. Onun musiqi təhsili vardımı?**

– Bəli. O, Bərdə şəhər 1 nömrəli musiqi məktəbində muğam təhsili alıb.

**– Xudayarın döyüş yolu necə başladı?**

– O, sərhəd qoşunlarında gizir kimi xidmət edirdi. Onun döyüşdə olduğunu bilmirdim. Bizimlə gülə-gülə danışırdı. Amma bir dəfə danışanda güllə səsi eşitdim. Tez dilləndi: "Ana, narahat olma, yoldaşlarım atəşfəşanlıq edirlər. Qubadlı azad olunub". Sən demə, Xudayar müharibə başlanan gündən könüllü döyüşürmüş. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan uğrunda qəhrəmancasına vuruşub. Onunla fəxr edirəm.

**– Şəhidlərimizin ruhu şad olsun! Onların xatirəsini yaşatmaq borcumuzdur. Müsahibəyə görə çox sağ olun.**

HİKMƏT XƏZİNƏSİ

Vətənçün yaşayan, vətənçün ölən,
Səmimi bir insan nə bəxtiyardır!...
*(Mikayıl Müşfiq)*

Vətən bir millətin evidir.
*(Əhməd Midhəd)*

Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.
*(Atalar sözü)*

Qürbət görməyən adam vətən qədri bilməz.
*(Atalar sözü)*

AYIN XƏBƏRİ

**Maraqlı gün**

Oktyabrın 14-də sinif rəhbərimiz Mehriban Əliyevanın rəhbərliyi ilə Hərbi Qənimətlər Parkında olduq.
Parkda Azərbaycan ordusunun müharibədə ələ keçirdiyi hərbi qənimətlər nümayiş etdirilir.

TARİXİN BU GÜNÜ

2020-ci il oktyabrın 20-də Zəngilan şəhəri işğaldan azad edilmişdir.

ŞEİR GUŞƏSİ

Azərbaycandır Qarabağ!
*(Vahid Əziz)*

Doğmadır torpağı, daşı,
Xalqımın qədim vətəndaşı,
Ömrü-günü, can sirdaşı;
Biri alov, biri ocaq –
Azərbaycandır Qarabağ!

Tanıyarlar boyumuzdan –
İrsimizdən, soyumuzdan,
Su içər öz quyumuzdan;
Biri gövdə, biri budaq –
Azərbaycandır Qarabağ!

Baba adı "Odlar yurdu",
Keşikçisi böyük Ordu,
Oğlu-qızı igid, qoçaq!
Bizimdir, bizim olacaq;
Azərbaycandır Qarabağ!

Qəzetin yaradıcı heyəti: Redaktor: Lalə Kazımlı.
Dizayner: Fuad Nəzərli.
Müxbirlər: Məryəm Cəfərzadə, Ümid Əlizadə, Xədicə Qurbanova.

*Materiallar müxtəlif rubrikalarda qruplaşdırılır.*

*Qəzet tərtibçilərinin adı yazılır.*

**B Təqdimat**

**Topladığınız məlumatlar əsasında "Zəfər Günü" mövzusunda divar qəzeti hazırlayın.**

**3 A** **Müsahibəni oxuyun. Sizcə, müxbir aşağıdakı cavabları almaq üçün müsahibinə hansı sualları verib? Həmin sualları təxmin edin və müsahibəni tamamlayın.**

## QƏHRƏMAN DİLƏFRUZ ANA

*Müsahibimiz I Qarabağ müharibəsində 6 il döyüşmüş və əsgərlərə tibbi yardım göstərmiş Diləfruz xanımdır.*



***Müxbirin sualı:*** – Özünüzü təqdim edin.

– Mən, Hüseynova Diləfruz Nuru qızı. Ağdamda doğulmuşam. Tibb bacısı olaraq gizir rütbəsində Azərbaycan ordusunda xidmət etmişəm.

***Müxbirin sualı:*** – ...

–1989-cu ildə ermənilər tez-tez kəndimizə hücuma keçirdilər. Bir gün eşitdim ki, qardaşlarım, qohumlarım döyüşə gedirlər. Mən də onlara qoşulmağa qərar verdim.

***Müxbirin sualı:*** – ...

– Ailəm əvvəl etiraz etdi. Anam 4 körpəmi qoyub getməyimə razı deyildi. Dedim ki, Vətənimizin dar günüdür, əsgərlərimizin köməyə ehtiyacı var.

***Müxbirin sualı:*** – ...

– 6 il döyüşmüşəm. Ağdam, Tərtər, Kəlbəcər, Şuşa döyüşlərində iştirak etmişəm. Azərbaycanın ilk könüllü özünümüdafiə dəstəsinin üzvü olmuşam.

***Müxbirin sualı:*** – ...

– Çətinliklər çox idi. Təkcə tibbi çantamın ağırlığı 40 kq idi. Bununla bərabər silahımı da daşıyırdım. Həmişə əsgərlərlə çiyin-çiyinə gedirdim. Əsgər qardaşlarım mənə çox güvənir, onları xilas edəcəyimə inanırdılar.

***Müxbirin sualı:*** – ...

– Ən ağır günlərimdən biri Tərtərin Umudlu kəndində olub. Həmin gün mühasirəyə düşmüşdük. Düşmən Murovdağın yüksəkliyindən başımıza güllə yağdırırdı. Qarlı-şaxtalı günlərdə ac-susuz 2 ay mühasirədə qaldıq. Çətinliklə də olsa, mühasirədən çıxa bildik.

***Müxbirin sualı:*** – ...

– Məni Qarabağın Həcəri adlandırırdılar. Deyirdim ki, məni öz adımla çağırın. Qoy gələcəkdə Həcər kimi qadınlarımızın çox olduğu bilinsin.

**B** **Müsahibədən aldığınız məlumatlar əsasında Diləfruz Hüseynova haqqında informativ mətn yazın.**

## Dil qaydaları

**4 A** **Şəxs əvəzliklərini seçin.**

yuxarı, mən, təəccüblə, top, sən, yaxın, biz, oxu, o, irəli, onlar, sapsarı

**B** **Birinci cümlədəki fərqləndirilmiş sözə sual verin. İkinci cümlədə həmin sözü hansı söz əvəz edir?**

1. Polad **məsuliyyətli** şagirddir.
2. Belə şagirdlə valideyn də, müəllim də fəxr edir.

• Bunları bilməliyik • **İŞARƏ ƏVƏZLİKLƏRİ**

- Dilimizdə elə sözlər var ki, müxtəlif anlayışları – varlığı, əlaməti, hərəkətin tərzini işarə etmək üçün işlədilir. Belə sözlər işarə əvəzliyi adlanır:

**O** (hansı?) kitab daha maraqlıdır.
**Bu** (kim?) mənim qardaşımdır.
**Həmin** (hansı?) ev təmir edildi.
**Belə** (necə?) dostdan inciməzlər.
**Elə** (necə?) danış ki, səni eşidim.

**C** **Cümlələrdə işarə əvəzliklərini müəyyən edin.**

1. Həmin jurnalı mən oxumuşam.
2. Eldar bu müsabiqənin qalibi olacaq.
3. Elə yatmışdı ki, oyada bilmədim.
4. Belə tapşırıqlar çox asandır.
5. Sən də belə oxuya bilərsən.
6. Elə sözlər ürəyimə yağ kimi yayılır.
7. Bu çantanın içində heç nə yoxdur.
8. Mənə belə baxanda narahat oluram.

**Ç** **Dialoqlarda işlənən “o” əvəzliyinə sual verin. Hansı cümlədə o əvəzliyi şəxs bildirən sözü əvəz edib?**

– Rauf Gəncəyə getdi.
– **O** nə vaxt qayıdacaq?

– Yaşıl top sənindir?
– **O** top mənim deyil.

• Bunları bilməliyik • **“O” əvəzliyi**

- ***“O”*** sözü həm şəxs, həm də işarə əvəzliyi kimi işlənə bilər:

*O, (kim?) qələmi mənə verdi.*

*O (hansı?) qələmi mənə ver.*

**D** **Cümlələrdə “o” əvəzliyinə sual verin. Onların şəxs, yoxsa işarə əvəzliyi kimi işləndiyini müəyyən edin.**

1. Biz hədiyyə üçün **o** kəməri seçdik.
2. **O,** qızımın idman müəllimidir.
3. Babam **o** ağacı keçən il əkib.
4. Parka girmək üçün **o** qapıdan keçin.
5. Kitabı mənə **o** gətirdi.
6. **O** oğlan bizim binada yaşayır.
7. Aşıq Ədalət **o** mahnını gözəl ifa etdi.
8. **O**, məşhur üzgüçü idi.

# Ümumiləşdirici təkrar

**A** **Şeirdəki sifətləri müəyyən edin. Həmin sözlər sifətin hansı dərəcəsindədir?**

**VƏTƏN**

Ey Vətən, ana Vətən,
Heyranam sana, Vətən!
Dupduru göllərin var,
Yamyaşıl çöllərin var.

Dağların baş-başadır,
Düzlərin tamaşadır.
Dərələrin dərindir,
Yaylaqların sərindir.

*Əhməd Cəmil*

**B** **Səhvləri düzəldərək sözləri düzgün yazın.**

tündyaşıl, kəm şirin, düm-düz, qap-qara, tum-turş, yup yumru, açıq göy, tər-təmiz

**C** **Nöqtələrin yerinə uyğun hal şəkilçiləri əlavə edib yazın. Həmin sözlərin ismin hansı halında işləndiyini qeyd edin.**

1. Yalançı... evi yandı, heç kim ona inanmadı.
2. Ağıllı düşmən... qorxma, axmaq dostdan qorx.
3. Dəmir qapının da taxta qapı... işi düşər.
4. Ev... bişməyib, qonşudan gəlməyib.
5. Şirin dil ilan... yuvasından çıxardar.

**Ç** **Fərqləndirilmiş sözlərə sual verin və nümunəyə uyğun olaraq cədvəli tamamlayın.**

1. **Dünən** kəndə yağış yağırdı.
2. **Doğru** söz acı olar.
3. Əsgərlər **qəhrəmancasına** vuruşurdular.
4. Qardaşım ingilis dilində **yaxşı** danışır.
5. Şənliyə **az** adam gəlmişdi.
6. **Çox** çalış ki, məqsədinə çatasan.

| Söz | Sualı | Aid olduğu anlayış |
|---|---|---|
| dünən | nə vaxt? | Hərəkəti izah edir, zərfdir. |

**D** **İşarə əvəzliklərini seçin. Onların hansı sözü əvəz etdiyini müəyyən edin.**

Ana xırda yarpaqlı otu İradəyə göstərdi:
– Qızım, bax bu, kəklikotudur. Çaya bundan əlavə edəndə ətirli olur.
İradə diqqətlə həmin ota baxdı. Burnuna yaxınlaşdırıb iylədi və dedi:
– Bəh, bəh, bunun nə gözəl ətri var!
İlkin ota nəzər salıb dedi:
– Bu, həm də dərman bitkisidir. Xəstələrin tez sağalmasına kömək edir. Belə bitkiləri çay kimi dəmləyib içmək olar.

# 3 SEVİMLİ QƏHRƏMANLARIM

**A** **Oxuduğunuz hansı əsərlərin qəhrəmanlarını xatırlayırsınız? Hansı əsər qəhrəmanından daha çox xoşunuz gəlir? Ona oxşamaq istərdinizmi? Nə üçün?**

**B** **Şəkillərə baxın və məlumatları oxuyun.**
**Məlumatların hansı qəhrəmana aid olduğunu müəyyənləşdirin.**

a


b


c


ç


1 Herakl bir çox yunan əfsanələrinin qəhrəmanıdır. Rəvayətə görə, Arqos şəhərinin hökmdarı Herakla paxıllıq edirmiş. O, cəsur qəhrəmana çətin və təhlükəli işlər tapşırır, bu yolla onu məhv etməyə çalışır. Herakl tapşırıqların öhdəsindən uğurla gəlir, hər dəfə igidlik göstərərək daha da məşhurlaşır.

**Söz boğçası**

- səxavətli
- səltənət
- sərgüzəşt
- ədəbiyyat

2 Tutu "Qaraca qız" əsərinin baş qəhrəmanıdır. Qarayanız olduğu üçün anası onu "Qaraca" deyib əzizləyirdi. Qaraca qız nadinc olmasına baxmayaraq, rəhmdil və səxavətli idi. Əlinə nə düşsəydi, yoldaşları ilə bölüşərdi. O, gözəl rəqs edirdi.

3 Dünya ədəbiyyatında macəra axtaran bir çox obrazlar var. Bunların arasında Tom Soyer bənzərsiz və fərqlidir. Onun on iki yaşı var. Tom müxtəlif problemlərlə rastlaşır, lakin hazırcavablığı, diribaşlığı və fərasəti ilə çətin vəziyyətdən çıxış yolları tapır. Bu sərgüzəştlər "Tom Soyerin macəraları" əsərində öz əksini tapıb.

4 Supərisi balıq quyruqlu, beldən yuxarı qadın görünüşlü qeyri-real varlıqdır. Bu obraza bir çox xalqların nağıllarında, əfsanələrində rast gəlmək olar. Bunlardan ən məşhuru "Kiçik Supərisi" nağılıdır. Dəniz səltənətində yaşayan Supərisi gözəl olduğu qədər də xeyirxahdır. Bu dəniz gözəli insanlarla ünsiyyət qurmağa çalışır və quruya çıxmağa can atır.

**C Əsər qəhrəmanları haqqında məlumatlara əsasən cədvəli tamamlayın.**

| Qəhrəmanın adı | İştirak etdiyi əsər | Qəhrəmanın xarakteri |
|---|---|---|
| *Herakl* | *yunan əfsanələri* | *cəsur, ağıllı, güclü* |
| | | |
| | | |
| | | |

**Ç Nümunəyə əsasən sevimli qəhrəmanınız haqqında təqdimat hazırlayın.**

• Nümunə •

Mənim sevimli qəhrəmanımın adı Fitnədir. Bu obraz Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinin qəhrəmanlarından biridir.

Fitnə ağıllı və cəsarətlidir. O, padşaha sözün düzünü söyləməkdən çəkinmir. Öz cəsarəti ilə hamının hörmətini qazanır.



fəsil 1

# VƏFALI DOST

**1 A Kitabın üzqabığına baxın və kitab haqqında məlumatla tanış olun. Aşağıdakı suallara cavab verin.**




*"Qaraca qız" Süleyman Sani Axundovun "Qorxulu nağıllar" kitabına daxil olan hekayələrdən biridir. Əsərin baş qəhrəmanı Tutu adlı qızdır. Hekayədə valideynlərini itirmiş Tutunun qarşılaşdığı çətinliklərdən danışılır.*

**1. Hansı məlumat diqqətinizi daha çox cəlb etdi?**
**2. Bu kitabı nə üçün oxumaq istərdiniz?**

## QARACA QIZ

Günlərin bir günü Hüseynqulu ağa dostları ilə ova çıxmışdı. Bu zaman qəribə hadisə ilə qarşılaşdı. Nəhəng bir ayı mağaranın ağzında durub qəzəblə nərildəyirdi. Ovçular ayını görən kimi atəş açdılar. Ayı nərildəyə-nərildəyə oradan uzaqlaşdı. Mağaradan balaca bir qız uşağı çıxdı. Hüseynqulu ağa qızın valideynlərini tapmaq üçün yaxınlıqdakı kəndə soraq saldı. Öyrəndi ki, bu qız zəlzələ zamanı valideynlərini itirib. Əsl adı Tutudur. Qarayanız olduğu üçün hamı onu Qaraca qız çağırır. Hüseynqulu ağanın kimsəsiz uşağa ***yazığı gəldi***:

– Mən bu qızı özümlə aparıram. Bağbanım Piri kişi ilə qalar. Hərdənbir Ağca ilə də oynayar. Onun da təklikdən ***ürəyi sıxılmaz.***

Hüseynqulu ağanın qızı Ağca xanım elə ilk gündən Qaraca qız ilə dostlaşdı. Bu, Ağcanın anası Pəricahan xanımın heç ***xoşuna gəlmədi***. Onunla görüşməyi qızına qadağan etdi:

– Sən bəy qızısan, rəiyyət qızı ilə oturub-durmaq sənə yaraşmaz. Mən razı ola bilmərəm ki, qızım bir xidmətçi ilə dostluq etsin.

Hüseynqulu ağa isə Ağcanın darıxdığını görüb tez-tez onu bağa aparırdı. Bu zaman dostlar görüşür, birlikdə vaxt keçirirdilər. Qaraca qız Ağca xanıma rəqs etməyi öyrədirdi. İşi belə görən Pəricahan xanım "Şəhərdə işlərim çoxdur", – deyə Ağcanı da götürüb şəhərə getdi. Yayın istisinə baxmayaraq, onlar bir müddət şəhərdəki evlərində qaldılar.



**Söz boğçası**

- rəiyyət
- rica etmək
- nökər
- koma
- istehza
- çarə
- mürəbbiyə
- tənə

***

Artıq yayın sonu idi. Ağca xanım anasından rica etdi ki, tətilin son günlərini kənddə keçirməyə icazə versin. Pəricahan xanım razılaşdı:

– Yaxşı, qızım, mən özüm də səninlə bərabər kəndə gedəcəyəm. Ancaq şərtim budur ki, o xidmətçi qız ilə əlaqəni tamamilə kəsəsən. Yoxsa Piri kişini də, Qaraca qızı da qovaram.

Bu sözlərdən Ağca xanım çox pərişan oldu. O, indi kəndə getməsinə şad deyildi.

Qatar stansiyaya çatanda Ağca xanım Qaraca qızın kənarda dayandığını gördü. Pəricahan xanımın başı əşyalarına qarışmışdı. Nökərlər çamadanları alıb faytona yığırdılar. Ağca xanım bundan istifadə edərək gizlicə dostunun yanına qaçıb onunla görüşdü. Qaraca qız onu tələsdirdi:

– Tez ol, get, xanım bizi görməsin, yoxsa yenə ***acığı tutar***.

Onlar evə çatanda xidmətçilər cərgə ilə düzülmüşdülər. Qaraca qız onların arasında yox idi. Pəricahan xanım qızının ürəyini ondan soyutmaq üçün istehza ilə dedi:

– Qızım, bu da dostun Qaraca qızın vəfası, gör səni necə tez unudub, heç qarşılamağa da gəlməyib.

Ağca xanım susub anasına cavab vermədi. Üzünü yana çevirib gülümsündü.

***

Bir neçə gün keçdi. Rəfiqələr hələ də görüşməyə macal tapmamışdılar.

Ağca xanım mürəbbiyəsi ilə bağda oturmuşdu. Mariya İvanovna kitab oxuyur, Ağca xanım isə evcik tikirdi. Birdən onun qulağına Qaraca qızın səsi gəldi. Rəfiqəsini görmək üçün çəpərə yaxınlaşdı. Çəpərin dibində qıvrılıb özünü günə verən ilanı görmədi. Ayağını onun üstünə basdı. Zəhərli ilan atılıb Ağca xanımın qolundan sancdı. Ağca xanım qışqırıb özünü mürəbbiyəsinin üstünə atdı. Səsə Pəricahan xanım, nökərlər tökülüb gəldilər.

Ağca xanımın qışqırığını eşidən Qaraca qız ildırım kimi götürüldü. O, həyətə girəndə Pəricahan xanım ağlayaraq yalvarırdı:

– Aman, sizə qurban olum! Allah xatirinə Ağcanın yarasından ilanın zəhərini sorub yerə tökün.

Lakin heç kəs bu qorxulu işə cürət etmirdi.



Qaraca qız Ağca xanıma yaxınlaşdı. Rəfiqəsinin qolundan zəhəri sorub yerə tökdü. Hamı qorxudan donmuş halda bu səhnəni seyr edirdi. Pəricahan xanım isə Qaraca qızın saçlarını sığallayaraq yalvarırdı:

– Qaraca qız, mənə ***rəhmin gəlsin***, rəfiqəni ölməyə qoyma.

Bu zaman Piri kişi gəlib çıxdı.

– Baba, gördünmü başımıza nə gəldi? – deyə Pəricahan xanım şikayətləndi.

– Bəli, gördüm. Onu da görürəm ki, öz balanı xilas etmək üçün bu atasız-anasız uşağı ***balaya salmısan***.

Pəricahan xanım dedi:

– Ona heç nə olmayıb.

Amma Qaraca qız çox halsız görünürdü. O, güclə pıçıldadı:

– Baba, mənə su ver! Su!

– Gəl, qızım, gedək. Görüm sənə nə çarə edə bilərəm.

Pəricahan xanım onun qabağını kəsdi:

– Baba, sənə yalvarıram, Qaraca qızı aparma. Qoy burada qalsın. Hüseynqulu ağa şəhərdən həkim gətirər, onu sağaldar.



Piri baba tənəli nəzərlərlə ona baxdı:

– Yazıq Qaraca qızımı komaya aparım, burada qalsa, xanıma əziyyət olar.

Bunu deyib Piri baba Qaraca qızı öz komasına apardı.

*Süleyman Sani Axundovun*
*"Qaraca qız" hekayəsi əsasında işlənmişdir.*

## Söz ehtiyatı

**B** **Söz boğçasında verilmiş hansı söz və ifadələr mətndəki hadisələrin keçmişdə baş verdiyini göstərir?**

**C** **Verilmiş frazeoloji birləşmələri bir sözlə əvəz edin.**

*ürəyi sıxılmaq • acığı tutmaq • xoşuna gəlmək"*

**Ç** **Mətndə fərqləndirilmiş hansı frazeoloji birləşmələr cümlədəki feili əvəz edə bilər?**

| |
|---|
| O, dilənçinin yazıq görkəminə çox acıdı. |

## Nə anladın?

**D** **Mətnlə bağlı suallara cavab verin.**

1. Qaraca qız kim idi?
2. Pəricahan xanım nə üçün qızının Qaraca qızla dostluq etməsini istəmirdi?
3. Ağca xanım hansı təhlükə ilə qarşılaşdı?
4. Qaraca qız dostunu necə xilas etdi?

**2 A** **"Qaraca qız" mətninin planını tərtib edin. Plan əsasında mətnin qısa məzmununu nəql edin.**

## Düşün və cavab ver

**B** **Mətndə dəmiryol vağzalındakı hadisəni xatırlayın. Sizcə, Ağca xanım anasının Qaraca qız haqqında dediyi sözləri dinləyərkən nə üçün gülümsədi?**

**C** **"Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun aşağıda verilmiş maddələrini oxuyun. Maddələrdə əks olunmuş fikirlərdən istifadə etməklə Qaraca qızın hüquqlarını müdafiə edin.**

**Maddə 6.** Bütün uşaqlar bərabər hüquqa malikdirlər. Onlar maddi vəziyyətindən, milliyyətindən, dilindən, təhsilindən asılı olmayaraq ayrı-seçkiliyə məruz qala bilməzlər.

**Maddə 9.** Hər bir uşağın həyatı və sağlamlığının mühafizə edilməsi hüququ vardır.

**Maddə 14.** Hər bir uşağın fikir və söz azadlığı vardır.

**Maddə 22.** Hər bir uşağın təhsil almaq hüququ vardır.

**Maddə 27.** Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

**Ç** **Qruplarla iş**

**Mətnə əsasən obraz xəritəsi tərtib edin.**

**I Qrup:** Qaraca qız
**II Qrup:** Piri baba
**III Qrup:** Ağca xanım
**IV Qrup:** Pəricahan xanım

**D** **Sizcə, bundan sonra qəhrəmanların taleyi necə olacaq? Təxəyyülünüzə əsasən mətnin sonluğunu yazın.**

**3 A** **Mütaliə üçün kitab seçərkən nəyə diqqət edirsiniz? Kitab seçiminizin səbəbləri haqqında danışın.**

• Yadda saxla • **ANNOTASİYA**

- Annotasiya kitabın əvvəlində əsər və onun müəllifi haqqında verilən qısa məlumatdır. Bu məlumat oxucuda kitaba maraq yaradır və onu oxumağa sövq edir.

**B** **Kitabın üzqabığına baxın və annotasiyanı oxuyun. Aşağıdakı suallara cavab verin.**

"Melisa" əsərinin müəllifi azərbaycanlı yazıçı Sevinc Nuruqızıdır. 10 -15 yaşlı oxucular üçün yazılmış bu əsər bir sıra mükafatlara layiq görülmüşdür. Əsərin baş qəhrəmanı Melisa adlı gəlincikdir. O öz dostu Zöhrədən ayrı düşür. Bundan sonra Melisanın həyatında yeni sərgüzəştlər başlayır. Bu sərgüzəştlər bir-birini əvəz edən yeni qəhrəmanlarla yadda qalır: Xal adlı it, çəkməçi baba, əzazil qarı, kimsəsiz uşaqlar, elektrik dirəyində yuva quran leyləklər və başqaları.




**Suallar**

1. **Annotasiyada verilən hansı məlumatlar sizi daha çox maraqlandırdı?**
2. **Sizcə, nə üçün annotasiyada əsərin məzmunu sona qədər əks etdirilməyib?**
3. **Müəllifin daha hansı əsərləri ilə tanışsınız?**

**C** **Aşağıdakı məlumatlardan istifadə edərək annotasiya yazın.**

- **Müəllif haqqında məlumat:** fransız yazıçısı Jül Vern
- **Kitabın adı:** "80 gün dünya ətrafında səyahət"
- **Nəzərdə tutulmuş yaş qrupu:** 8-10 yaşlı uşaqlar
- **Məzmunu:** *Londondakı məşhur bir klubun üzvü Fileas Foq dostları ilə dünyanı 80 gündə dövr edəcəyinə dair mərc gəlir. Bununla da heyrətamiz bir səyahət başlayır.*




**Ç** **Aşağıdakı təlimata uyğun oxuduğunuz kitablardan biri haqqında annotasiya yazın.**

**• Təlimat•**

1. Əsərin müəllifi haqqında qısa məlumat verin.
2. Əsərin qısa məzmununu yazın:
   - Əsərdəki hadisələr haqqında ümumi məlumat verin.
   - Əsərdəki hadisələrin nəticələrini qeyd etməyin.
   - Oxucunun diqqətini cəlb edəcək məlumatları əks etdirin.

# Dil qaydaları

**4 A** **Hər şəklə aid bir söz birləşməsi yazın. Söz birləşmələrinin tərkibindəki hansı söz dəyişməz qaldı? Bəs hansı sözlər məna fərqi yaratdı?**



**B** **Nöqtələrin yerinə uyğun sözlər yazmaqla söz birləşmələri düzəldin. Onlar arasındakı fərqi izah edin.**

... / ... / ... → yazmaq    ... / ... / ... → getmək    ... / ... / ... → oxumaq

**• Bunları bilməliyik •** **İSMİ VƏ FEİLİ BİRLƏŞMƏLƏR**

Söz birləşməsinin ifadə etdiyi mənada əsas rolu sonuncu söz oynayır. Bu sözdən asılı olaraq, birləşmələr iki cür olur:

| İSMİ BİRLƏŞMƏ | FEİLİ BİRLƏŞMƏ |
|---|---|
| *zəhərli **ilan*** | *məktub **yazmaq*** |
| *bağlı **qapı*** | *mətni **oxuyanda*** |
| *yayın son **günü*** | *səylə **çalışan*** |

**C** **Söz birləşmələrini aşağıdakı cədvəl üzrə qruplaşdırın.**

*əsgər məktubu, pəncərədən baxanda, tibb bacısı, şirin alma, musiqi dinləmək, nağıl danışmaq, şəlalənin səsi, meyvə şirəsi, çox çalışan, meyvə dərəndə, sevimli obraz, futbol oynamaq, dördüncü siniflər, diqqətlə oxuyan, güllü parça*

| İsmi birləşmə | Feili birləşmə |
|---|---|
| | |

**Ç** **Nöqtələrin yerinə uyğun sözləri artırmaqla feili birləşmə düzəldin.**

çiçək ... (ətri, dərəndə)
xeyli ... (işləmək, adam)
rəsm ... (albomu, çəkərkən)
aşağı ... (mərtəbə, enmək)

dağlardan ... (aşmaq, uca)
cəld ... (uşaq, qaçan)
xoşbəxt ... (insan, yaşamaq)
bayram ... (keçirəndə, şənliyi)

•fəsil• 2

# DƏNİZ GÖZƏLİ

**1 A Tanıdığınız hansı nağıl və cizgi film qəhrəmanları real varlıq deyil? Nümunələr gətirməklə fikrinizi əsaslandırın.**

## KİÇİK SUPƏRİSİ

Açıq dənizdə suyun rəngi gömgöy, şüşə kimi şəffaf idi. Onun dibində dəniz padşahının mərcan sarayı yerləşirdi. Sarayın pəncərələri kəhrəbadan, damı isə balıqqulaqlarından hazırlanmışdı.

Bu sarayda dəniz padşahının gözəl qızı – supərisi yaşayırdı. O, gününün çox hissəsini nənəsi ilə keçirirdi. Nənənin danışdığı hekayətləri dinləyirdi. Kiçik supərisini insanlar haqqında hekayələr çox maraqlandırırdı. Verdiyi sualların ardı-arası kəsilmirdi. Nənəsi də ona bildiklərini danışırdı:

– İnsanlar xüsusi varlıqlardır. Onlar çox ağıllı və güclüdürlər. Lakin bizdən fərqli olaraq dənizin dibində yaşaya bilmirlər.

Kiçik supərisi insanları görmək arzusunda idi. Lakin hələ kiçik olduğundan ona suyun üzünə çıxmağa icazə vermirdilər.



Günlər, aylar keçdi, Supərisi böyüyüb boya-başa çatdı. İndi o, tez-tez suyun üzünə qalxırdı. Ətrafdakı gəmilərə tamaşa edir, ulduzları seyr edərək mahnı oxuyurdu. Dənizçilər bu ecazkar səsin sahibini görmək üçün diqqətlə dənizə baxır, dalğaların arasında onu axtarırdılar.

Bir gün supərisi təzəcə suyun üzünə qalxmışdı ki, nəhəng bir gəmi gördü. Gəminin **göyərtəsində** xeyli insan var idi. Birdən göyün üzünü qara buludlar aldı, güclü külək dənizi təlatümə gətirdi. Nəhəng dalğalar uğultu ilə gəmiyə çırpılır, onu beşik kimi yırğalayırdı. Gəmi bu hücuma tab gətirməyib dənizin dibinə çökməyə başladı.

Dalğalarla çarpışan insanlar xilas olmağa çalışırdılar. Yaraşıqlı bir gənc bir neçə dəfə suya batıb-çıxdı, sonra isə görünməz oldu. Supərisi nənəsinin sözlərini xatırlayıb köməyə tələsdi. Gəncin hərəkətsiz bədənindən yapışıb sahilə doğru üzdü. Onu sahildəki qayaların üzərinə qaldırdı. Gəncin özünə gəldiyini görüb oradan uzaqlaşdı.

Bu hadisədən sonra Supərisinin insanlara olan marağı daha da artdı:

– Axı nə üçün insanlar dəniz səyahətinə çıxa bilirlər, amma biz onların yaşadıqları torpaqlarda gəzə bilmirik?

Çox düşündükdən sonra Supərisi dəniz cadugərindən kömək istədi.

Dəniz cadugəri onu dinləyib dedi:

– Sənə kömək edərəm! Mən elə edərəm ki, quyruğun ayaqlarla əvəz olunar. Lakin unutma ki, sənin hər bir addımın ağrılı olacaq. Bir də, günəş batana kimi geri dönməlisən. Yoxsa ayaqların yenidən balıq quyruğuna çevriləcək. Bunun əvəzində isə gözəl səsini istəyirəm.

Supərisi cadugərin bütün şərtləri ilə razılaşırdı, təki yer üzünə bir dəfə də olsa ayaq bassın.

Supərisi cadugərin ona verdiyi sehrli məlhəmi içdi. Dərhal huşunu itirdi. Gözlərini açanda özünü sahildəki qayalıqların üzərində gördü. Onun ətrafına xeyli insan toplaşmışdı. Fırtınada xilas etdiyi gənc də onların arasında idi. Kimsə dedi:

– Gözəl qız, necə böyük xoşbəxtlikdir ki, sizi xilas ediblər. Amma biz yaxınlaşanda ətrafda heç kim yox idi. Xilaskarınızı gördünüzmü?

Gənc oğlan söhbətə qoşuldu:

– Bu yaxınlarda bizim də gəmimiz fırtınaya düşüb parçalandı. Adamların çoxu dənizdə **qərq oldu**. Mənim sağ qalmağım isə bir möcüzədir. Camaat danışır ki, məni supəriləri xilas edib. Əlbəttə, bu bir **cəfəngiyyatdır**. İndiyə kimi heç kim supərisi deyilən varlıq görməyib.

Bu sözləri eşidən Supərisi istədi ki, gənc oğlan öz xilaskarını tanısın. Amma ayaqları üzərində dayanan bir qızın supərisi olduğuna kim inanardı?

*Hans Xristian Andersenin*
*"Supərisi" nağılı əsasında*



**Söz boğçası**

- mərcan • kəhrəba • göyərtə
- cadugər • qərq olmaq
- cəfəngiyyat • tab gətirmək

## Söz ehtiyatı

**B** **Mətnə əsasən aşağıdakı sözlərin mənasını izah edin. Lüğət vasitəsilə dəqiqləşdirin.**

göyərtə | cadugər | cəfəngiyyat | qərq olmaq

# Nə anladın?

**C** **Mətnin məzmununa aid suallara cavab verin.**

1. Supərisini ən çox nə maraqlandırırdı?
2. Nənəsi Supərisinə insanlar haqqında hansı məlumatları vermişdi?
3. Supərisi cadugərə nə üçün müraciət etdi?
4. Supərisi xəyallarına çatmaq üçün hansı şərtləri qəbul etdi?

# Düşün və cavab ver

**Ç** **Sizcə, “Kiçik supərisi” mətnini bitmiş hesab etmək olarmı? Sizi maraqlandıran məqamlar haqqında suallar tərtib edin.**

**D** **İllüstrasiyalara və təxəyyülünüzə əsasən mətnin sonluğunu yazın.**





**2 A** **“Kiçik supərisi” mətnindəki hansı obraz real varlıqdır? Bəs hansı obrazlar qeyri-realdır?**

**B** **Aşağıda verilmiş yaddaş xəritəsinə uyğun qeydlər götürməklə “Supərisi mövcuddurmu?” mətnini dinləyin.**

**“SUPƏRİSİ MÖVCUDDURMU?”** mətni

- *Xristofor Kolumbun söylədikləri*
- *Supərisinin xarici görünüşü*
- *Henri Hudsonun qeydləri*
- *Dəniz inəyi*

**C** **Sizcə,“Supərisi mövcuddurmu?” mətnini yazmaqda müəllifin məqsədi nədir?**

**Ç** **“Supərisi mövcuddurmu?” dinləmə mətni üzrə götürdüyünüz qeydlər və öz mülahizələriniz əsasında mətnin qısa məzmununu yazın.**

## 3 A Mütaliə nə üçün vacibdir? Mütaliə zamanı hansı məqamlara diqqət edirsiniz?

**Faydalı məsləhət** KİTABI NECƏ OXUMALI?

• Düzgün kitab seçimi mütaliənin əsas şərtidir. Bunun üçün aşağıdakılara diqqət edin:

| | |
|---|---|
| Kitabla ümumi tanışlıq → | *Kitabın üzqabığına, müəllifin adına, illüstrasiya və yarımbaşlıqlara diqqət edin.* |
| Motivasiya → | *“Mən bu haqda nə bilirəm, daha nələr öyrənmək istəyirəm?” sualı ətrafında düşünün.* |
| Məzmunla tanışlıq → | *Annotasiyanı oxuyaraq kitabın qısa məzmunu ilə tanış olun.* |

**B “Kitabi-Dədə Qorqud”un üzqabığı, annotasiyası və bir neçə səhifəsi ilə tanış olun. Suallara cavab verin.**




*Kitabın üzqabığı*




*Kitabın səhifələri*

### ANNOTASİYA

"Kitabi-Dədə Qorqud" on iki boydan ibarətdir. Hər boy oğuz qəhrəmanlarının başına gələn əhvalatlardan bəhs edən bitkin hissədir. Qazan xan, Beyrək, Basat, Buğac, Uruz və başqaları bu gün də oxucuların sevimli qəhrəmanlarıdır.

Dastan təxminən min il bundan əvvəl yazıya alınıb. Bu əsərin əlyazma nüsxələri dünyanın müxtəlif kitabxanalarında qorunub saxlanmış və günümüzə qədər gəlib çatmışdır.

- **Kitabla tanış olarkən nəyə diqqət etdiniz?**
- **Bu mövzuda hansı məlumatlarınız var? Daha nəyi öyrənmək istərdiniz?**
- **Kitabın annotasiyasındakı hansı məlumatlar oxumağa maraq yaradır?**
- **Bu kitabı nə üçün oxumalısınız? Bu kitabın sizə hansı faydası ola bilər?**
- **Kitabı öz yaşınıza uyğun hesab edirsinizmi? Fikrinizi əsaslandırın.**

# Dil qaydaları

**4 A** **Verilmiş söz və söz birləşmələrindən cümlələr düzəldin.**

*1. Rəna, məktəb kitabxanası, maraqlı kitab, götürmək;*
*2. Müəllim, şagirdlər, rəsm sərgisi, aparmaq.*

**• Bunları bilməliyik • CÜMLƏ ÜZVLƏRİ**

Cümləni əmələ gətirən sözlər və söz birləşmələri cümlə üzvləri adlanır. Hər bir cümlə üzvü müəyyən suala cavab verir. Məsələn:

Külək ağacın yarpaqlarını tökdü.

Külək — nə?
ağacın yarpaqlarını — nəyi?
tökdü — nə etdi?

**B** **Cümlələrdəki hər bir cümlə üzvünün sualını müəyyən edin.**

1. Səlim kitab oxumağı çox sevir.
2. Əli nənəsi üçün çox darıxmışdı.
3. Uşaqlar quş evciyi düzəldəcəklər.
4. Rayonlarda güclü qar yağdı.

a. Kimlər? nə? nə edəcəklər?
b. Harada? necə? nə? nə etdi?
c. Kim? kim üçün? nə qədər? nə etmişdi?
ç. Kim? nəyi? nə qədər? nə edir?

**C** **Uyğun cümlə üzvü artırmaqla cümlələri tamamlayın. Əlavə etdiyiniz cümlə üzvü hansı suala cavab verir?**

1. Yaz gələndə ağaclar ...
2. ... xəstələri müalicə edir.

**• Bunları bilməliyik • CÜMLƏNİN ƏSASI: MÜBTƏDA, XƏBƏR**

***Kazım** dünən İstanbula **getdi**.*

Bu cümlədəki əsas fikri iki cümlə üzvü ifadə edir:

***Kazım*** → **mübtəda**: Haqqında danışılan anlayışı bildirir.

***getdi*.** → **xəbər**: Haqqında danışılan anlayışa aid hərəkət və ya hökmü bildirir.

**Ç** **Cümlələrin əsasını müəyyənləşdirin.**

1. Maşinist qatarı stansiyada saxladı.
2. Elçin və Sərdar meşəyə getdilər.
3. Aydın səhvini başa düşdü.
4. Səməd Vurğun görkəmli şairdir.
5. Elxanın rəqibi çox güclüdür.
6. Müəllim mövzunu izah etdi.

# MACƏRALAR ALƏMİNDƏ

**1 A Sizcə, ekskursiyalar hansı məqsədlə təşkil olunur? İştirak etdiyiniz ekskursiyalar haqqında danışın.**

## TOM VƏ BEKKİNİN MAĞARA SƏRGÜZƏŞTİ

Tom və Bekki dəstə ilə birlikdə mağaranın qaranlıq dəhlizlərini gəzirdilər. Buranın sirli-sehrli, qeyri-adi görkəmi uşaqları heyrətə salmışdı. Sonra söhbət eləyə-eləyə uşaqlardan uzaqlaşdılar. Elə bir yerə çatdılar ki, burada qayanın üstündən tökülən balaca bir çay şəlalə əmələ gətirmişdi. Şəlalədən o tərəfdə, iki divar arasındakı darısqal keçid Tomun diqqətini cəlb etdi. Orada təbiətin daşlardan yaratdığı pilləkən var idi. Həmin an Tomda macəraçılıq həvəsi oyandı. O, Bekkini də həvəsləndirdi.

**•Söz boğçası•**

• tavan • xəlvət • kaha
• tədqiq etmək • qət etmək



Uşaqlar həmin pilləkənlərlə xəlvət kahalara qədər endilər. Burada tavandan aşağıya doğru uzanan yoğun stalaktitlər* gördülər. Onların arasından yüzlərlə yarasa bir-birinə sarmaşıb yumaq kimi sallanmışdı. İşıqdan narahat olmuş yarasalar yerlərindən qopub Tomun əlindəki şama tərəf şığıdı.

Tom yarasaların təhlükəli olduğunu bilirdi. Tez Bekkinin əlindən yapışıb dəhlizlərdən birinə tərəf çəkdi. Yarasalar onları uzun müddət qovdular. Amma uşaqlar canlarını birtəhər qurtara bildilər.

Bir azdan uşaqlar yeraltı gölə rast gəldilər. Tom gölün sahilini tədqiq etmək xəyalına düşdü. Bekki narahat oldu:

– Tom, biz çoxdandır ki, heç kəsin səsini eşitmirik.

– Əlbəttə, Bekki, geri qayıtsaq, yaxşı olar.

– Tom, sən yolu tapa biləcəksənmi?

*__stalaktit__ – bəzi mağaraların tavanından sallanan, buz lüləsinə bənzəyən mineral maddə.

– Yarasalar olmasaydı, mən yolu tapa bilərdim. Qorxuram, vurub şamları söndürərlər, işimiz lap xarab olar. Gəl başqa yolla gedək ki, onlarla rastlaşmayaq. Onlar bir dəhlizə girdilər, uzun müddət dinməzcə getdilər. Lakin mağaradan çıxmaq üçün yolu tapa bilmədilər. Tom çaşıb qalmışdı. Bekki isə ağlayırdı:

– Tom, yarasalar olsa da, gərək həmin yolla qayıdaydıq.

Uşaqlar gəldikləri yola tərəf qayıtmaq istədilər. Amma məlum oldu ki, geriyə də yolu itiriblər. Bekki daha da həyəcanlandı. O, yerə çöküb acı-acı ağladı:

– Tom, biz azmışıq. Bu dəhşətli mağaradan bir daha çıxa bilməyəcəyik! Axı nə üçün başqalarından ayrıldıq?

Tom da özünü danlayırdı.

Nəhayət, uşaqlar özlərini toplayıb ayağa qalxdılar. Heç bir yerdə dayanmadan elə hey gedirdilər. Bir bulağa rast gəldilər. Bir az su içdilər. Tom dedi:

– Bilirsənmi, Bekki, biz burada qalmalıyıq, çünki burada içməli su var. Həm də şam qurtarır, bu, axırıncıdır.

– Tom, yəqin, yox olduğumuzdan xəbər tutub bizi axtaracaqlar.

– Bəs necə, əlbəttə, Bekki.

Budur, sonuncu şam da əriyib qurtardı. Bekki dizlərini qucaqlayıb oturmuşdu. Tom isə çıxış yolu düşünürdü. Birdən Tomun ağlına parlaq bir fikir gəldi. O, cibində gəzdirdiyi ipi çıxartdı. İpin bir ucunu qayanın çıxıntısına bağladı. Əlini ora-bura sürtə-sürtə və ipi aça-aça irəlilədi. İki dəhlizdən keçib üçüncüsünə buruldu. Ancaq ip qurtardığından geri qayıtmaq istədi. Elə bu an gündüz işığına bənzəyən bir parıltı gördü. O, ipi buraxıb işığa tərəf süründü. Deşikdən başını bayıra çıxartdı. Qarşıda doğma Missisipi çayı axırdı.



Tom geri qayıdıb bu şad xəbəri Bekkiyə çatdırdı. Uşaqlar mağaradan çıxıb çayın sahilinə endilər. Yaxınlıqdan keçən balıqçılar onları qayığa mindirdilər. Uşaqlar mağarada azdıqlarını söyləyəndə balıqçılar təəccübləndilər:

– Siz nə danışırsınız? Mağara buradan beş mil* aralıda, çayın yuxarısındadır. Bu qədər yolu necə qət etmisiniz? Evlərinə çatanda aydın oldu ki, dostları, müəllimləri, hətta polislər hələ də mağarada Tom ilə Bekkini axtarırlar. Axı heç kimin ağlına gəlməzdi ki, bu iki uşaq əsrlərdir burada yerləşən tarixi bir mağaradan yeni çıxış yolu kəşf edəcək.

*Mark Tvenin "Tom Soyerin macəraları" əsərindən*

***mil** – əsasən, ABŞ və İngiltərədə istifadə olunan uzunluq ölçü vahididir; 1 mil 1420 metrə bərabərdir.

## Söz ehtiyatı

**B** **Aşağıda verilmiş ifadələri söz boğçasındakı yaxınmənalı qarşılıqları ilə uyğunlaşdırın.**

1. mağara | 2. gizli | 3. getmək | 4. araşdırmaq

## Nə anladın?

**C** **Mətnlə bağlı suallara cavab verin.**

1. Əsərdə hansı obrazlar var?
2. Uşaqlar hansı təhlükələrlə rastlaşdılar?
3. Uşaqlar necə xilas oldular?

## Düşün və cavab ver

**Ç** **Haşiyədə mil haqqında verilmiş məlumatdan istifadə etməklə Tom və Bekkinin mağarada getdikləri yolu metrlə ifadə edin.**

**2 A** **"Tom və Bekkinin mağara sərgüzəşti" mətnindəki hadisələrin ardıcıllığını müəyyən edin.**

A. Çayın kənarında Tom və Bekki balıqçılarla rastlaşdılar.
B. Tom və Bekki mağaranın dərinliklərinə gedib çıxdılar.
C. Tom və Bekki qrup üzvlərindən ayrı düşdülər.
Ç. Tom mağaranın daha bir qapısını kəşf etdi.
D. Uşaqlar geri qayıtmaq üçün yolu tapa bilmədilər.

**B** **Sizcə, Tom nə üçün cibində gəzdirdiyi ipin bir ucunu qayanın çıxıntısına, digər ucunu isə öz belinə bağladı?**

**C** **Aşağıdakı epizodlara əsasən Tom və Bekkinin xarakterləri haqqında fikir yürüdün. Verilmiş sözlərdən istifadə edin.**

1. Tom və Bekki xəbərdarlıq etmədən dəstədən ayrıldılar.
2. Darısqal keçidin hara gedib çıxması Tomu maraqlandırdı.
3. Azdıqlarını anlayan Bekki hönkür-hönkür ağlayırdı.
4. Tom bulağın yanında qalmağı məsləhət gördü.
5. Tom mağaradan çıxış yolu tapdı.

fərasətli
məntiqli
məsuliyyətsiz
macəraçı
qorxaq

**Ç** **Tom və Bekkinin başına gələn hadisələrdən nəticə çıxararaq uşaqlara məsləhətlər verin. Ekskursiya zamanı şagirdlərin davranış qaydalarını tərtib edin.**

**D** **Məlumat vərəqini oxuyun. Burada verilmiş məlumatları "Tom və Bekkinin mağara sərgüzəştləri" mətnindəki faktlarla müqayisə edin.**
**Mətndə yarasalarla bağlı verilmiş faktların həqiqiliyi haqqında fikir yürüdün.**

### Yarasa

1. Məməli heyvandır.
2. Meşələrdə, mağaralarda sürü ilə yaşayırlar.
3. 20 ilə qədər ömür sürür.
4. Qulaqları çox böyükdür.
5. Ayaq üstə dayana bilmədiyindən başıaşağı sallanır.
6. Gecələr ova çıxır.



- Vampir yarasalar dişləri vasitəsilə quduzluq xəstəliyini ötürə bilərlər.

**3 A** **"Tom və Bekkinin mağara sərgüzəşti" mətnində mağaranın təsviri ilə bağlı beş açar söz deyin.**

**• Yadda saxla • BƏDİİ MƏTNLƏRDƏ TƏSVİR**

- Mətnlərdə çox zaman hadisələrin baş verdiyi məkan ətraflı təsvir olunur. Təsvirlər hadisəni daha aydın təsəvvür etməyə imkan yaradır.
- Təsviri mətndə əvvəlcə məkan haqqında ümumi məlumat verilir.
  Məsələn: *aylı gecədə dəniz*.
- Daha sonra məkanın yaddaqalan detalları göstərilir.
  Məsələn: *sakit ləpələr, uzaqda yanıb-sönən mayak, dəniz sularında əks olunan ay.*

## B Qruplarla iş

**Verilmiş sözlərdən istifadə edərək şəkilləri təsvir edin.**

***İstifadə üçün sözlər***: yamyaşıl, ürkək, rəngbərəng, alabəzək, xalı kimi



***İstifadə üçün sözlər***: yaşıl, səsli-küylü, xoşbəxt, şən, karusel



***İstifadə üçün sözlər***: ağappaq, dumanlı, başı göylərə dəyən, uca, seyrək, burulan



***İstifadə üçün sözlər***: yelkənli, buludlu, ay işığı, güzgü kimi, qayıq



## C Meşənin görünüşü haqqında bənzətmələri müəyyənləşdirin.

... Azərlə babası meşəyə yollandılar. Kənardan meşə yalın budaqlı ağacları ilə çox solğun görünürdü. Xəzəl əlvan xalça kimi yeri bəzəyirdi. Yeridikcə qurumuş yarpaqların xışıltısı ətrafa yayılırdı. İrəli getdikcə qarşıda qəribə mənzərə açılırdı. Bəzi ağaclar yarpaqlarını tökməmişdi. Açıq-sarı rəngə boyanmış palıd ağacları budaqlarını geniş açıb dayanmışdı. Qoca pəhləvan kimi əzəmətli duruşları diqqəti cəlb edirdi. Ağcaqayınların yarpaqları isə nar kimi qızarmışdı. Tozağacların yarpaqları qızıl sırğa kimi sallanır, xəfif küləkdən ora-bura yellənirdi...

## Ç Elə təsəvvür edin ki, Tom və Bekki mağarada yox, qaranlıq meşədə azıblar. Həmin meşəni elə təsvir edin ki, oxucuda həyəcan yaradasınız.

## Dil qaydaları

**4 A Cümlələrin xəbərini müəyyən edin. Suallarla uyğunlaşdırın.**

1. Türkan mətni oxuyur.
2. Bu bulağın suyu təmizdir.
3. Ömərin anası müəllimdir.
4. Quşların yuvası oradadır.

a. kimdir?
b. nə edir?
c. haradadır?
ç. necədir?

**• Bunları bilməliyik • FEİLİ XƏBƏR VƏ İSMİ XƏBƏR**

• Xəbərin iki növü var: **ismi xəbər** və **feili xəbər**.

| Növləri | Sualları | Nümunələr |
|---|---|---|
| **Feili xəbər** | nə edir? nə etdi? nə edəcək?<br>nə olub? nə olur? nə olacaq? və s. | Əsgərlərə məktub ***yazırıq.***<br>Cəfər mövzunu ***başa düşdü***. |
| **İsmi xəbər** | nədir?, kimdir?, haradır,<br>neçədir? necədir? və s. | Kitab çox ***maraqlıdır.***<br>Əlinin anası ***həkimdir.*** |

**B Suallara cavab verməklə cümlələri tamamlayın. Xəbərlərin növünü müəyyənləşdirin.**

1. Bayrağımız ... (necədir?).
2. Mən rəfdən kitabı ... (nə etdim?).
3. Bura ... (haradır?).
4. Mənim bacım ... (kimdir?).
5. Sərçələr ... (necədir?).
6. Ustalar ... (nə etmişdilər?)

**C Cümlələrdə xəbərləri tapın. İsmi və ya feili xəbər olduğunu müəyyənləşdirin.**

1. Ərazi qalın meşəlikdir.
2. Cizgi filmləri maraqlıdır.
3. Şagirdlər müəllimi diqqətlə dinlədilər.
4. Biz bu günlərdə kəndə gedəcəyik.

**Ç Cümlələrin xəbərlərini tapın. Uyğunluğu müəyyən edin.**

1. Sənin qiymətin beşdir.
2. Dincəlmək üçün dayandılar.
3. Sabah hava soyuyacaq.
4. Bu işin səbəbkarı onlardır.

A. feili xəbər, nə etdilər?
B. İsmi xəbər, kimdir?
C. İsmi xəbər, neçədir?
Ç. feili xəbər, nə edəcək?

**D Xəbərləri frazeoloji birləşmələrlə ifadə olunan cümlələri seçib köçürün.**

1. Biz qonaqları yola saldıq.
2. Lalə həyati süpürür.
3. Məstan kölgədə uzanıb.
4. Müəllim jurnala nəzər saldı.
5. Babam keçmiş günləri yada saldı.
6. Bu gün səhər gəmilər yola düşdü.
7. Onlar Vətən uğrunda döyüşürdülər.
8. Ətrafda heç kim gözə dəymirdi.

# YENİLMƏZ QƏHRƏMANLAR

**1 A** **Herakl haqqında bilgilərinizi xatırlayın. Hansı məlumat sizin diqqətinizi daha çox cəlb etmişdi? Onun haqqında daha nə öyrənmək istərdiniz?**

## HERAKLIN STİMFAL QUŞLARINI QOVMASI

Heraklın şöhrəti bütün Yunanıstana yayılmışdı. O, bir-birinin ardınca ağlasığmaz qoçaqlıqlar göstərirdi. Əvvəlcə bədheybət Nemey şirini, sonra isə Lerney əjdahasını məhv etdi. Daha sonra Yeriman qabanına qalib gəldi. Kireney maralını tutub gətirdi. Bütün bunlar Arqos şəhərinin hökmdarı Evrisveyi çox narahat edirdi. Belə getsə, Herakl Arqos səltənətini ələ keçirə bilərdi. Buna görə də ona bu dəfə daha çətin bir tapşırıq verdi:

– Sən Stimfal meşəsinə get. Orada yaşayan Stimfal quşlarını meşədən qov.

Herakl tapşırığı yerinə yetirmək üçün meşəyə yollandı. O hələ meşəyə çatmamış Stimfal quşlarının səsini eşitdi. Onlar elə bərkdən qaqqıldaşırdılar ki, səsdən qulaq tutulurdu. Herakl onlara yaxınlaşdıqda quşlar dəstə ilə havaya qalxdılar. Bu zaman ətrafı qulaqbatırıcı cingilti səsi bürüdü. Herakl öz-özünə düşündü: “Yoxsa, bu quşların lələkləri misdəndir?” O, düz tapmışdı: Stimfal quşlarının iti, qorxunc dimdikləri, qarmağa oxşar caynaqları və lələkləri xalis misdən idi.

Heraklı görən quşlar dəstə ilə onun üzərinə şığıdı. Onlar bir-birinin ardınca Heraklın başı üzərindən **süzüb** keçirdilər. Elə bu zaman böyük bir ox Heraklın başındakı Nemey şirinin dərisini dəlib keçdi. Ox onun saçlarına ilişdi. Herakl oxun haradan atıldığını anlamadı. Sonra gördü ki, bu, Stimfal quşunun lələyidir. Onlar qanadlarını silkələyərək iri, parlaq lələklərini ona tərəf tullayırdılar.

Herakl ağacların arxasına sığındı. Hərb ilahı Apollonun bağışladığı qızıl oxları ***yaya*** qoyub quşlara sarı atdı. Sərrast ovçunun atdığı oxların hamısı hədəfə dəyir, quşlar bir-bir yerə düşürdü. Lakin onların sayı-hesabı yox idi. Heraklın isə cəmi on iki qızıl oxu var idi.



**•Söz boğçası•**

- bədheybət
- mis
- xalis
- ilah
- pər
- sərrast
- şaxşax

Herakl oxlarının hamısını atıb qurtardıqdan sonra quşların mis lələklərini yaya qoyub atmağa başladı. Lakin onların ardı-arası kəsilmirdi. Herakl anladı ki, belə getsə, Stimfal quşlarının öhdəsindən gələ bilməyəcək.

O, quşları ovlamaq fikrindən daşındı. Nemey şirinin dərisi altında daldalanıb dərin yuxuya getdi. Hər dəfə çətin anlarda müdriklik ilahəsi Afina Heraklın yuxusuna gələr, ona çıxış yolu göstərərdi. Bu dəfə də o, yuxuda Herakla məsləhət verdi:

– Dəmirdən pərli şaxşaxlar düzəlt. Quşlar şaqqıltı səsindən qorxur.

Herakl yuxudan ayılan kimi yaxınlıqdakı kəndə yollandı. Bu kəndin əhalisi əkin sahələrini quşlardan qorumaq üçün şaxşaxdan istifadə edirdi. Onların köməyi ilə Herakl çoxlu şaxşax hazırladı. Gecə düşəndə Stimfal meşəsinə getdi. Şaxşaxları quş yuvaları olan ağacların dibinə düzdü.

Elə ki külək əsdi, pərlər hərləndi, şaxşaxlar şaqqıldamağa başladı, meşəni qulaqbatırıcı bir səs bürüdü. Ürkmüş quşlar havaya qalxdılar. Çığırtı ilə meşəni tərk etdilər. Herakl isə vurduğu mis quşlardan bir neçəsini götürüb Evrisfeyin hüzuruna apardı.

*"Heraklın on iki qoçaqlığı" kitabından*

## Söz ehtiyatı

**B** **Hansı cümlələrdə fərqləndirilmiş sözlər mətndəki mənasında işlənib?**

a. Mən ***yay*** tətilimi kənddə babamın yanında keçirdim.
b. Nənəm xəmiri dairəvi formada ***yaydı.***
c. Qazan xan ***yayı*** çəkib oxu atdı.

a. Anam armudu stəkanlara çay ***süzdü.***
b. Göyərçinlər mavi səmada sıra ilə ***süzürdülər***.
c. Arif kişi zəhmli baxışlarla onu başdan ayağa ***süzdü.***

## Nə anladın?

**C** **Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| **1.** Evrisfey | **A.** Meşə |
| **2.** Herakl | **B.** Hərb ilahı |
| **3.** Arqos | **C.** Müdriklik ilahəsi |
| **4.** Afina | **Ç.** Şəhər |
| **5.** Apollon | **D.** Hökmdar |
| **6.** Stimfal | **E.** Qəhrəman |

## Düşün və cavab ver

**Ç** **Mətnə istinad etməklə aşağıdakı fikirlərin doğruluğunu əsaslandırın.**

- Heraklın Stimfal quşlarını qovması onun beşinci qoçaqlığıdır.
- İlahlar Herakla hörmət edir, ona yardım etməyə çalışırdılar.
- Şaxşaxın səs çıxarması üçün onu hərləmək və ya silkələmək lazımdır.

**2 A** **“Aldədə” əfsanəsini xatırlayın. Sizcə, Aldədə obrazını nə üçün real obraz adlandırmaq olmaz? Obrazla bağlı hadisələr danışmaqla fikrinizi əsaslandırın.**

**• Yadda saxla •** **MİFİK OBRAZLAR**

Bir çox əfsanə qəhrəmanlarının qeyri-adi xüsusiyyətləri və bacarıqları olur. Onlara **mifik obraz** deyilir. Hər bir xalqın özünəməxsus mifik obrazları vardır.

| Mifik obraz | Xalq | Əsər |
|---|---|---|
| **Təpəgöz** | oğuz türkləri | Kitabi-Dədə Qorqud |
| **Herakl** | yunan | Yunan əfsanələri |

**B** **“Heraklın Stimfal quşlarını qovması” mətnində hansı mifik obrazlar iştirak edib?**

**C** **Sizcə, aşağıdakı şəkillər Heraklın hansı qoçaqlıqlarını əks etdirir?**




**Ç** **Planı genişləndirərək “Heraklın Nemey şirini məhv etməsi” haqqında mətn yazın. Şəkillərdən istifadə edin.**





- Evrisfey Herakla Nemey şirini məhv etməyi tapşırır.
- Herakl Nemey şirinin yaşadığı mağaraya yollanır.
- Mağarada iki girişin olması şiri tutmağa imkan vermir.
- Herakl şiri tutmaq üçün tədbir görür.
- Herakl şiri məhv edir.

**Mətni yazarkən:**

- Evrisfey və Herakl arasındakı dialoqları yazın.
- Nemey şirinin yaşadığı mağaranı təsvir edin.

**Açar sözlər:** tilsimli, qaranlıq

- Nemey şirini təsvir edin.

**Açar sözlər:** güclü, hiyləgər, oxbatmaz

## 3 A Aşağıdakı cümlələrin hansında daha çox məlumat verilir?

1. Oqtay getdi.
2. Dünən qardaşım Oqtay Türkiyəyə getdi.

**• Bunları bilməliyik •** **CÜMLƏNİN İKİNCİDƏRƏCƏLİ ÜZVLƏRİ**

- İkincidərəcəli üzvlər mübtəda və xəbərə aid olur, cümləni genişləndirir.
  Məsələn: ***Saralmış yarpaqlar yavaş-yavaş yerə töküldü.***

***yarpaqlar*** (mübtəda)
hansı?
***saralmış***

***töküldü*** (xəbər)
necə? — ***yavaş-yavaş***
hara? — ***yerə***

## B Suallara cavab yazaraq cümlələri genişləndirin.

1. (Hansı?) qızlar (nəyi?) yığdılar.
2. Sevil (nə üçün?) (nə qədər?) çalışdı.
3. Baba (kimlə?) (harada?) gəzir.
4. (Hansı?) musiqiçi kamançada (necə?) ifa edirdi.

## C İkincidərəcəli üzvlərin iştirak etdiyi cümlələri seçib yazın.

1. Musiqi səsi eşidildi.
2. Müəllim tapşırığı izah etdi.
3. Kitabxanaçı kitabları rəflərə düzdü.
4. Xəstənin vəziyyəti yaxşılaşırdı.
5. Güllərin gözəlliyi göz oxşayırdı.

## Ç İkincidərəcəli üzvlər əlavə etməklə cümlələri genişləndirin.

1. Səməd yazacaq.
2. Külək əsir.
3. Bayraq dalğalandı.
4. Şir qəzəbləndi.
5. Polis tələb etdi.
6. Həkim müalicə edəcək.
7. Meyvələr yetişir.
8. Əsgərlər döyüşdü.

## D İkincidərəcəli üzvləri ixtisar etməklə cümlələri köçürün.

a) Gəmi sahildə üç saat dayandı.
b) Ata cəbhədəki oğlundan məktub aldı.
c) Birinci siniflər sıraya düzülmüşdü.
ç) Hündür dalğalar şiddətlə qayalara çırpılırdı.
d) Xəfif dəniz küləyi adamı üşüdürdü.

# Ümumiləşdirici təkrar

**A** **Nöqtələrin yerinə uyğun sözləri artırmaqla feili birləşmə düzəldin.**

- çay ... (qabı, içmək)
- çox ... (çalışanda, iş)
- musiqi ... (səsi, bəstələmək)
- yuxarı ... (hissə, qalxan)
- nağıl ... (danışmaq, kitabı)
- asta ... (oxumaq, hərəkət)
- qoyun ... (pendiri, otarmaq)
- yaxşı... (fikirləşmək, fikir)

**B** **Cümlələrdəki hər bir cümlə üzvünün sualını müəyyənləşdirin.**

1. Məryəm | rəqs etməyi | çox | sevir.
2. Evimizin yanında | yeni | kitabxana | açılıb.
3. Tumurcuqlayan | ağaclar | göz oxşayırdı.
4. Qoca | poçtalyon | Əhmədin yazdığı | məktubu | anaya | çatdırdı.

**C** **Cümlələrin əsasını müəyyənləşdirin.**

1. Anam çaya kəklikotu qatmışdı.
2. Xırdaca cücülər işığa toplaşmışdı.
3. Səhər Mahmud kəşfiyyata gedəcək.
4. Abdulla fərasətli və zirək oğlandır.
5. Axşam gün batanda biz kəndə çatdıq.
6. Çobanlar qoyunları yaylağa qaldırdılar.

**Ç** **Nöqtələrin yerinə uyğun sözlər artırmaqla həm ismi, həm də feili xəbərli cümlələr qurun.**

**• Nümunə •**

*Kəpənəklər ... Kəpənəklər uçurdu. / Kəpənəklər rəngbərəngdir.*

1. Üçrəngli bayrağımız ... .
2. Mənim atam ... .
3. Ağacın yarpağı ... .
4. Qonaqlar ... .
5. Qardaşımın çantası ... .
6. Neft quyuları ... .
7. İdman yarışları ... .
8. Otaqlar ... .

**D** **İkincidərəcəli üzvlərin iştirak etdiyi cümlələri seçib yazın.**

1. Sıx duman yavaş-yavaş çəkilirdi.
2. Mən doğma kəndimizi tez-tez yada salıram.
3. Mənim dostum idmançıdır.
4. Musiqi festivalı başa çatdı.
5. Onlar gildən müxtəlif əşyalar hazırladılar.

# 4 İŞARƏLƏR VƏ SİMVOLLAR

**A** **Bu işarələrə harada rast gəlirik? Onlar bizə hansı informasiyanı ötürür?**

a)



b)



c)




**B** **Mətni oxuyun və suallara cavab verin.**

Biz informasiyanı yalnız söz və cümlələr vasitəsilə deyil, eyni zamanda işarələr vasitəsilə əldə edirik. Yollarda, parklarda, marketlərdə bizə məlumat ötürən işarələr var. Bu işarələrdən bir neçəsi ilə tanış olaq.

Təsəvvür edin ki, böyük bir marketin yeraltı maşın dayanacağındasınız. Hər tərəfdə yalnız maşınlar, divarlar, sütunlar görünür. Siz hara gedəcəyinizi bilmirsiniz. Birdən qarşınıza işarə çıxır.



- ***Sizcə, bu işarə bizə hansı informasiyanı verir?***

Düşünün ki, boya istehsal edilən fabrikə ekskursiya təşkil edilib. Fabrikin girişində plakat asılıb. Plakatda aşağıdakı işarələr təsvir edilib.

- ***Sizcə, bu işarələrlə bizə hansı məlumatlar ötürülür?***






Təsəvvür edin ki, ailənizlə birlikdə təbiətin qoynuna yürüş edirsiniz. Bir neçə saatdan sonra suyunuz tükənir. Yolda belə bir işarə ilə rastlaşırsınız.



- ***Bu işarə nəyi ifadə edir?***



Yoldaşlarınızla meşədə piknik etməyi planlaşdırırsınız. Yolun kənarındakı plakatda belə bir işarə göstərilmişdir.

- ***Bu işarə ilə hansı xəbərdarlıq edilir?***

## C Qruplarla iş

**Plakatlara baxın. İşarələrin mənasını müəyyənləşdirərək qaydaları tərtib edin.**

I QRUP

### MUZEYDƏ davranış qaydaları



II QRUP

### PARKDA davranış qaydaları



III QRUP

### METRODA davranış qaydaları



•fəsil• 1

# YAZIDA İŞARƏLƏR

**1 A** **Hansı durğu işarələrini tanıyırsınız? Onlar haqqında nə bilirsiniz?**

**B** **Şeiri oxuyun və haqqında danışılan durğu işarələrini qeyd edin.**

## NİDANIN LOVĞALIĞI

Günlərin bir günündə
Ağ vərəqin üstündə
Durdu ayağa Nida,
Bərkdən qışqırdı: "Ura!"
Səsə ayıldı sual.
Soruşdu: "De, bu nə hal?
Salmısan çığır-bağır,
Demirsən, kimsə yatır?
Sənlə heç yoxdur aram,
Yuxuma qatdın haram".
Nida güldü: "Əzizim,
Dinlə, sənədir sözüm.
Yuxuda gördüm ki, mən
Hamınızdan vacibəm.
Sizi oyatdım ki bəs,
Xəbərdar olsun hər kəs".
Gözünü ovuşdurdu,
Vergül sözə qoşuldu:
"Çox da boyun ucadır,
İşin ki balacadır.
Yerin cümlə sonudur,
Çoxu səni unudur.
Mən isə çox sərbəstəm,
Nəfəs dərməkdir peşəm".
Nöqtə qalxdı yerindən,
Gərnəşərək dərindən
Dedi: "Ay Nida qardaş,
Əl-ayağa az dolaş.
Mən xəbər gətirirəm,
Məlumat ötürürəm.
Arzu, xahiş, məsləhət,
Əmr, ya da nəsihət
Mən olmasam, **ötüşmür,**
Nida heç yada düşmür.
Hər cümlənin sonunda
Mən gəlirəm, ay Nida.
Sənin dediyin ancaq
Röyalarda qalacaq".

*Şəhla Zahidova*

• Söz boğçası •
• yuxusuna haram qatmaq
• röya • gərnəşmək



## Söz ehtiyatı

**C** **Hansı cümlədə "ötüşmək" sözü şeirdəki mənada işlənmişdir?**

*1. Yarışda maşınlar bir-biri ilə ötüşürdü.*
*2. Bu iş sən olmadan ötüşməz.*

## Nə anladın?

**Ç** **Mətnə əsasən suallara cavab verin.**

*1. Şeirin mövzusu nədir?*
*2. Şeirdə hansı durğu işarələrindən bəhs edilir?*
*3. Şeirdə qafiyələnən beş söz cütlüyünü seçin.*

## Düşün və cavab ver

**D** **Şeirdən aşağıdakı cümlələrə uyğun gələn hissələri seçib oxuyun.**

*1. Vergül sözlər və cümlələr arasındakı fasiləni ifadə edir.*
*2. Məlumat, xahiş, əmr bildirən cümlələrin sonunda nöqtə qoyulur.*
*3. Nida hiss, həyəcan bildirir.*

**E** **Şeirin sonunda nöqtənin dedikləri ilə razısınızmı? Sizcə, durğu işarələrinin cavabı necə olacaq?**

**2 A** **Verilmiş cümlələri oxuyun. Bu zaman hansı çətinliklə qarşılaşdığınızı söyləyin.**

BirkənddəAygünadlıgözəlqızyaşayırdıOgözəlliyiiləfəxredirdi
Bütüngünügözünügüzgüdənçəkmirdi

**B** **Aşağıdakı cümləni oxuyun. Sizcə, bu cümləni yazan şəxsin məqsədi məlumat vermək, yoxsa məlumat almaqdır? Fikrini dəqiqləşdirmək üçün o nə etməlidir?**

**Sabahkı tədbirdə Ramil də çıxış edəcək**

### SÖZLƏRDƏN İŞARƏLƏRƏ

Danışarkən fikrimizi düzgün və dəqiq çatdırmaq üçün intonasiyadan istifadə edirik: səs tonumuzu dəyişirik, sözlər, cümlələr arasında pauza veririk. Yazıda isə bu funksiyaları durğu işarələri yerinə yetirir. Durğu işarələri mətnin daha asan qavranılmasına kömək edir.

Bəs bu işarələr necə yaranmışdır?

Əvvəllər yazıda durğu işarələrindən istifadə olunmurdu. Sözlər və cümlələr arasında heç ara məsafəsi də olmurdu. Sonralar cümlələr arasında məsafə qoyuldu. Amma yenə də mətnləri oxuyub anlamaq çətin olurdu. Bu problemi aradan qaldırmaq üçün durğu işarələrinə ehtiyac var idi. İlk yaranan durğu işarəsi **nöqtə** oldu.

Vergül işarəsinin yaranması ərəb dili ilə əlaqələndirilir. Ərəb dilində “və” bağlayıcısı “vav” hərfi ilə – “و” ifadə olunurdu. Sonradan bu hərf vergül (,) işarəsi kimi istifadə edildi.

Sual işarəsi 600 il əvvəl İtaliyada tətbiq edildi. İlk dəfə Manutsi adlı naşir sual cümlələrinin sonunda “quaestio” sözünü yazmağa başladı. Bu sözün mənası “cavab axtarıram” demək idi.



*İtalyan naşiri Alda Manutsi*

**Söz boğçası**

- funksiya
- pauza
- naşir

Sonradan naşir bu sözün ilk və son hərflərindən istifadə etdi: **qo**. Nəhayət, o bu iki hərfdən xüsusi işarə yaratdı. Zaman keçdikcə həmin işarə indi bildiyimiz sual işarəsinə çevrildi:

quaestio → qo → ꝗ → ?

Nida işarəsi də latın dilindəki "İo" sözündən yaranmışdır. Bu söz sevinc, heyrət bildirirdi.

Beləliklə, deyə bilərik ki, bu gün yazıda istifadə etdiyimiz durğu işarələri çox maraqlı inkişaf yolu keçmişdir.



## Nə anladın?

**C** **Düzgün, yoxsa yanlış?**

*1. Vergül işarəsi latın əlifbasındakı hərfdən alınıb.*
*2. Manutsi kitab nəşri ilə məşğul olub.*
*3. Cümlələr arasındakı məsafə nöqtəni əvəz edə bilirdi.*
*4. Sual və nida işarələrinin yaranma tarixçələri bir-birinə bənzəyir.*

## Düşün və cavab ver

**Ç** **Cümlələri tamamlayın.**

*1. Sonunda durğu işarəsi olmayan cümlələri anlamaq çətin idi, çünki ...*
*2. "Quaestio" sözü tədricən sual işarəsinə çevrildi, çünki ...*
*3. Hiss, həyəcan bildirən sözlərin sonunda "io" sözündən istifadə edildi, çünki ...*

**D** **Sual işarəsinin yaranma ardıcıllığını bir daha nəzərdən keçirin. Aşağıdakı sxemə uyğun olaraq nida işarəsinin yaranmasını şərh edin.**

Io → I/o → !

**E** **Sizcə, hansı daha əvvəl yaranmışdır: hərflər, yoxsa durğu işarələri? Fikrinizi əsaslandırın.**

**Ə** **Verilmiş fikirlərin "Nidanın lovğalığı", yoxsa "Sözlərdən işarələrə" mətninə aid olduğunu müəyyən edin.**

1. Durğu işarələrinin yaranması ilə bağlı tarixi faktlar var.
2. Qafiyəli sözlərdən istifadə edilib.
3. Durğu işarələri şəxsləndirilib.
4. Daha dəqiq məlumatlar verilib.

**F** **Uyğun durğu işarələri artıraraq şeiri köçürün və ifadəli oxuyun.**

Füzulinin Sabirin
Vurğunun şirin dili
Sizinkidir balalar
Sevin bu azad eli

*Mikayıl Rzaquluzadə*

**3 A** **"Sözlərdən işarələrə" mətninin giriş, əsas və sonluq hissələrini müəyyənləşdirin.**

**B** **"Sözlərdən işarələrə" mətninin əsas hissəsi hansı cümlə ilə başlayır? Sizcə, bu cümləni işlətməkdə müəllifin məqsədi nədir?**

**• Diqqət et •** **MƏTNİN TƏRKİB HİSSƏLƏRİNİ NECƏ ƏLAQƏLƏNDİRMƏLİ?**

- İnformativ mətnin tərkib hissələri arasında əlaqənin düzgün qurulması vacibdir. Bunun üçün keçid cümlələrdən istifadə olunur.

**C** **"Sözlərdən işarələrə" mətninin giriş və əsas hissələri arasındakı keçid cümləsini hansı cümlə ilə əvəz etmək olar? Seçiminizi əsaslandırın.**

- Durğu işarələrinin hər birinin yazıda öz yeri var.
- Durğu işarələrinin yaranması ilə bağlı maraqlı fikirlər var.
- Durğu işarələrindən biri də nöqtədir.
- Bir çox dillərdə hərflər fərqli olsa da, durğu işarələri eynidir.

**• Diqqət et •** **MƏTNİN SONLUQ HİSSƏSİ**

- Mətnin sonluq hissəsi, adətən, aşağıdakı ifadələrlə başlanır:

*beləliklə, nəticədə, yekun olaraq* və s.

**Ç** **“Sözlərdən işarələrə” mətninin sonluq hissəsindəki cümlə hansı ifadə ilə başlanır? Aşağıdakı ifadələrdən hansı həmin ifadəni əvəz edə bilər?**

• Bütün bunlara baxmayaraq • Ümumiyyətlə • Bir sözlə

**D** **Mətni oxuyun və tərkib hissələrini müəyyən edin.**

## HEROQLİFLƏR

Tarix boyu dünya xalqları yazıda müxtəlif işarələrdən istifadə etmişlər. Bu işarələr görünüşünə və funksiyasına görə bir-birindən fərqlənir. Bir sıra xalqların istifadə etdiyi işarələr heroqlif adlanır.

Hərfdən fərqli olaraq, heroqliflər yalnız səsi deyil, sözü, anlayışı da işarə edir. Heroqliflərdən ilk dəfə olaraq qədim misirlilər istifadə etmişlər. Onlar heroqlifləri soldan sağa, sağdan sola və yuxarıdan aşağıya doğru yazırdılar. Bu işarələrin sayı çox idi. İnsanlar 700-750 heroqlifi yadda saxlamalı olurdular. Ona görə də Misir dilində yazını öyrənmək üçün 5-6 il vaxt lazım olurdu.

... müasir dövrdə də bir çox xalqlar – çinlilər, yaponlar və s. bu yazı sistemindən geniş istifadə edirlər.

| Heroqlif | Səs | Məna |
|---|---|---|
|  | D | Dost |
|  | E | Nəcib |
|  | Y | Ədalətli |
|  | A | Güclü |
|  | L | Təmkinli |
|  | M | Müdrik |
|  | T | Qarınqulu |

**E** **Mətnin girişindən əsas hissəyə keçid cümləsi düşünüb yazın.**

**Ə** **Hansı cümləni mətnin əsas hissəsinin sonuna əlavə etmək olar?**

- Heroqliflər papirus bitkisindən hazırlanmış lövhələr üzərində yazılırdı.
- Heroqlif və rəqəmlərin köməyi ilə kəsr saylarını da yazırdılar.
- Bu səbəbdən Misirdə oxuyub-yaza bilən insanlar böyük hörmət sahibi idilər.

**F** **Mətnin sonluğu hansı ifadə ilə başlana bilər?**

- Ona görə də
- Çətinliklə də olsa
- Bütün bunlara baxmayaraq
- Buna əsasən

## Dil qaydaları

**4 A** **Cümlələrin sonunda hansı durğu işarələri qoyulmalıdır? Fikrinizi əsaslandırın.**

1. Xahiş edirəm, qapını ört
2. Vay, dərsə gecikdim
3. Arzu, məşğələ hansı günlər olacaq
4. Mağazadan alma, armud, heyva aldım

**B** **Hiss, həyəcan bildirən sözlər artırmaqla nəqli cümlələri nida cümlələrinə çevirin.**

1. Lap əldən düşdüm.
2. Bu çiçəyin gözəl qoxusu var.
3. Bizim komanda qalib gəldi.
4. Biz meşədə tək qaldıq.

**C** **Hansı cümlənin sonunda məqsəddən asılı olaraq həm nöqtə, həm də sual işarəsi qoymaq olar?**

1. Sabah hava küləkli olacaq
2. Dərslərini yaxşı oxu
3. Məgər iclas artıq bitdi
4. Həmişə belə gülərüz ol

**Ç** **Sizcə, nə üçün cümlələrin sonunda həm sual, həm də nida işarəsindən istifadə olunmuşdur?**

1. Ay aman, bu nə bəla idi?!
2. Bəs mən indi nə edim?!

**• Bunları bilməliyik • ÜÇ NÖQTƏ**

- Durğu işarələrindən biri də **üç nöqtədir (...)**. Üç nöqtə, əsasən, fikrin bitmədiyini bildirir. Məsələn:

  – Dünənki tədbirdə iştirak etdin?
  – Xeyr, etmədim, çünki...
  – Yaxşı, sonra izah edərsən.

**D** **Cümlələri oxuyun. Üç nöqtənin hansı məqsədlə işləndiyini müəyyən edin və funksiyaları ilə uyğunlaşdırın.**

1 Mən... mən... bunu bilmirdim... heç güman da etmirdim.

2 Heydər Əliyev demişdir: "... Mən fəxr edirəm ki, azərbaycanlıyam".

3 Siz niyə dərsə gecikmisiniz?
– Biz gəlirdik, amma...
– Amma nə?

**A.** Sitatın ixtisar edildiyini göstərir.

**B.** Fikrin bitmədiyini bildirir.

**C.** Danışanın həyacanlı olduğunu əks etdirir.

# •fəsil• 2 • MUSİQİDƏ İŞARƏLƏR

**1 A** **Hansı simvol musiqiyə aiddir?**

a)



b)



c)



**B** **Musiqi notları haqqında nə bilirsiniz? Mətni oxuyun və yeni öyrəndiklərinizi qeyd edin.**

**NOTLARIN TARİXİ**

Bütün dünya xalqlarının anladığı bir dil var – musiqi dili. Musiqi dilinin əlifbası not sistemidir. Latın dilində *not* işarə deməkdir. Bəli, not – musiqi səsinin yazıda işarəsidir. Bu işarələrdən hər birinin öz adı var.




Not yaranana qədər də insanlar mahnı oxuyur, musiqi alətlərində melodiyalar ifa edirdilər. Lakin o dövrdə musiqi dildən-dilə keçməklə yayılırdı. Bu zaman dəyişikliyə məruz qalır, vaxt keçdikcə unudulurdu. İnsanlar musiqini yazıda ifadə etmək üçün yollar axtarırdılar. Nəhayət, musiqi notları kəşf olundu.




*Qvido not sistemi*

**•Söz boğçası•**

• kilsə • xor • məruz qalmaq

Təxminən 1000 il əvvəl İtaliyada Qvido adlı bir musiqiçi yaşayırdı. O, kilsədə xor kollektivinə rəhbərlik edirdi. Bir gün Qvido xorda oxuyan uşaqlara yeni bir nəğmə öyrədirdi. Lakin uşaqlar heç cür nəğmənin musiqisini yadda saxlaya bilmirdilər. Onda Qvido nəğmənin hər sətrindəki ilk hecanı ayırdı: ut, re, mi, fa, sol, lya. Musiqi səslərini bu hecalarla adlandırdı və onları not xətlərində kvadratlarla işarə etdi. Uşaqlar bu işarələri və onların adlarını yadda saxladılar. Onlara baxaraq musiqini ifa etməyə başladılar.

Tezliklə Qvidonun yaratdığı not sistemi hamı tərəfindən qəbul edildi və istifadə olunmağa başladı. Doğrudur, sonralar bu sistemdə bəzi dəyişikliklər edildi. Məsələn, birinci not "ut" deyil, "do" adlandırıldı. Belə ki, *ut* samitlə bitdiyi üçün uzunluğu ifadə etməkdə çətinlik yaradırdı. Bundan başqa, not sisteminə "si" notu əlavə edildi və beləliklə, yeddi musiqi notu yarandı. Qvidonun sistemində notlar ancaq səsin yüksəkliyini ifadə edirdi. Müasir not sistemində isə musiqi səslərinin uzunluğunu və pauzanı da ifadə edən işarələr var. Nəhayət, Qvidonun ilk dəfə olaraq istifadə etdiyi not xətlərinin sayı artırılıb beşə çatdırıldı.

Bütün bunlara baxmayaraq, not sisteminin banisi ____ əsrdə yaşamış Qvido hesab edilir.

Son olaraq qeyd etmək lazımdır ki, notun yaranması musiqinin inkişafına təkan verdi. Artıq neçə əsrdir ki, böyük bəstəkarlar yaratdıqları möhtəşəm musiqi əsərlərini notlar vasitəsilə yazıya köçürür və gələcək nəsillərə ötürürlər. Bu gün hər bir musiqiçi bu əsərləri not sisteminin köməyi ilə ifa edə bilər.

*Könül Cəlilova*



*Qvido Arezzonun abidəsi. (Florensiya)*

## Nə anladın?

**C** **"Söz boğçası"ndakı sözləri aşağıdakı izahlarla uyğunlaşdırın.**

– təsiri altında qalmaq
– musiqi əsərini birlikdə oxuyanlar dəstəsi
– xristianların ibadət yeri

**Ç** **Mətndə hansı suala cavab yoxdur?**

1. Not nədir?
2. İlk dəfə notları kim adlandırmışdır?
3. Qvido neçənci ildə anadan olub?
4. Musiqidə notların rolu nədən ibarətdir?

## Düşün və cavab ver

**D** **Mətndəki məlumatlara əsasən mavi boşluğun yerinə uyğun gələn sayı müəyyən edin.**

**E** **Qvidonun not sistemi ilə müasir not sistemi arasındakı dörd fərqi sadalayın.**

**2 A** **Aşağıdakı məlumatları "Notların tarixi" mətninin hissələri ilə uyğunlaşdırın.**

| | |
|---|---|
| 1. Musiqinin inkişafında notların rolundan danışılır. | GİRİŞ |
| 2. Notların yaranması haqqında məlumat verilir. | ƏSAS |
| 3. Notlar haqqında ümumi məlumat verilir. | SONLUQ |

**B** **Məlumatları mətnin hansı abzaslarına aid etmək olar?**

- Qvido notları əlinə yazıb xor zamanı uşaqlara əzbərlədirdi.
- Musiqi səslərini ifadə etmək üçün müxtəlif işarələr düşünürdülər.
- Florensiyada Qvido Arezzonun şərəfinə abidə qoyulmuşdu.

**C** **Mətnin giriş hissəsindən əsas hissəsinə keçid olan cümlələri seçin.**

- Notların musiqidə böyük rolu var.
- Musiqidə not sisteminin yaranmasının maraqlı tarixçəsi var.
- Notlar musiqi əsərlərinin daha asan yadda saxlanmasına kömək etdi.
- Bəs nəyə görə bu notlar məhz belə adlanır: *do, re, mi?..*

**Ç** **Mətni oxuyun və tərkib hissələrini müəyyən edin.**

## SƏFİƏDDİN URMƏVİ

Müxtəlif xalqlar musiqilərini gələcək nəsillərə ötürmək üçün yollar axtarırdılar. Buna görə dünyada fərqli not sistemləri icad olunmuşdu. Belə not sistemlərindən biri də Şərqdə* yaranmışdı.

Bu not sistemini yaradan musiqiçi türk dünyasının görkəmli alimi Səfiəddin Urməvi olmuşdur. O, notları hərf və rəqəmlərlə işarələmişdi. Hərflər səslərin yüksəkliyini, rəqəmlər isə uzunluğunu göstərirdi.

Urməvinin not sistemi musiqinin inkişafına təkan verdi. Ondan sonra gələn musiqiçilər müasir notlar yaranana kimi bu not sistemindən istifadə etmişlər.



**Şərq * –** Günçıxan səmtdə yerləşən ölkələr (bu mənada "Ş" böyük hərflə yazılır).

**D** **Mətndə hansı suala cavab yoxdur?**

1. Şərqdə notları kim icad edib?
2. Urməvi notları necə işarələyirdi?
3. Urməvi hansı musiqi alətlərində ifa edirdi?

**E** **Mətnin əsas hissəsinə keçid olan cümləni seçin.**

1. Səfiəddin Urməvinin musiqidə rolu nədən ibarət olub?
2. Bəs Şərqdə not sistemini kim yaradıb?
3. Bəs Şərqdə müasir not sistemi nə zaman istifadə olunmağa başladı?

**3 A** **Sizcə, "Notların tarixi" mətnini yazmaqda müəllifin əsas məqsədi nədir? Cavabınızı əsaslandırın.**

A. Notların yazıda zəruriliyini əsaslandırmaq
B. Notların yaranma tarixinə nəzər salmaq
C. Notların mənası haqqında məlumat vermək

**• Faydalı məsləhət • İNFORMATİV MƏTNİN ANNOTASİYASI**

İnformativ mətn haqqında annotasiyada aşağıdakılar əks olunur:

– mətnin adı, müəllifi;
– mətnin mövzusu;
– mətndəki əsas məlumatların qısa şəkildə ifadəsi.
– mətni yazmaqda müəllifin məqsədin.

**B** **"Notların tarixi" mətnində nədən bəhs edilir? Bu mətnə yazılmış annotasiyanı oxuyun. Fikirlərinizlə müqayisə edin.**

Könül Cəlilovanın "Notların tarixi" mətnində musiqi notlarının yaranması haqqında məlumat verilir.

"Notların tarixi" mətnini oxumaqla siz XI əsrdə Qvido adlı bir italyan musiqiçinin notları necə yaratdığını öyrənəcək, ilk not sistemi ilə müasir not sistemini müqayisə edə biləcəksiniz.

**C** **Suallara cavab verməklə "Səfiəddin Urməvi" mətninin məzmununu iki cümlə ilə ifadə edin.**

- Mətnin mövzusu nədir?
- Şərqdə not sistemini kim yaradıb?

# Dil qaydaları

**4 A** **"O", "bu" əvəzlikləri hansı cümlələrdə mübtəda vəzifəsində işlənir?**

1. O, sabah məktəbə gələcək.
2. Bu kitab mənimdir.
3. Bu, atamın pencəyidir.
4. O dəftər Raminindir.

**• Nümunə •**

O, kitab alacaq.

*Kim?* *(Mübtəda)*

**• Bunları bilməliyik •** **"O", "BU" ƏVƏZLİKLƏRİNDƏN SONRA VERGÜL**

- ***O, bu*** əvəzlikləri cümlədə mübtəda vəzifəsində işlənə bilir. Bu zaman:
  - onlardan sonra isim, sifət, say, zərf gələrsə, vergül qoyulur.

    *O, rəfdən kitab götürdü.*
  - onlardan sonra əvəzlik, feil və köməkçi sözlər gələrsə, vergül qoyulmur.

    *O gələndə hava qaralmışdı.*

**B** **Uyğun yerlərdə "o" və "bu" əvəzliyindən sonra vergül qoyaraq cümlələri köçürün.**

1. O Cavidə məktub yazdı.
2. Bu kitab türklərin tarixi haqqındadır.
3. Bu balaca qız mənim bacımdır.
4. O beş bacının bir qardaşıdır.
5. O danışanda mən susurdum.

**C** **Hansı cümlələrdə vergül işarəsi yanlış işlənmişdir? Səhvləri düzəldərək cümlələri köçürün.**

1. O, insanla söhbət etmək kitab oxumağa bərabərdir.
2. O, dünəndən bu görüşə hazırlaşır.
3. O, mənimlə musiqi dərnəyinə gedir.
4. Bu, növbəti həftə üçün verilən tapşırıqdır.
5. Bu, adamı əvvəllər də görmüşəm.

**Ç** **Buraxılmış vergül işarələrini yazaraq mətni köçürün.**

Natiqin dərin məntiqi təfəkkürü var. O aydın və səlis danışır. Bu bacarığa çoxlu kitab oxumaqla yiyələnib. O həm də şeir və hekayələr yazır. Bu yazıları ilə müxtəlif müsabiqələrdə iştirak edib. Bu yarışlarda dəfələrlə qalib gəlib və mükafatlar qazanıb.

**D** **Çərçivədə verilmiş cümləni oxuyun. Eyni fikri ifadə edən cümləni seçin.**

O, qoca balıqçı ilə dostluq edir.

A) Qoca balıqçı ilə dostluq edən odur.　　B) Balıqçı ilə dostluq edən o qocadır.

# SİMVOLLAR

**1 A** **Təsəvvür edin ki, kimsəsiz bir adadasınız. Uzaqdan keçən gəmilər, yüksəklikdə uçan təyyarələr sizi görmür. Onların diqqətini cəlb etmək üçün nə edərdiniz?**

## NAHAR YEMƏYİ



– Bilirsən, necə güclüdürlər?! Tankları elə sürürlər ki... Dünən saydım, on dənə tank keçdi...

– Güya mən bilmirəm?! Özüm görmüşəm onları. Biri tankın üstündə oturmuşdu. Mənə də əl elədi...

– Sən təyyarələri görmədin. Elə uçurdular ki... Biri düz başımın üstündən keçdi.

– Gördüm. Mən səndən qabaq gördüm.

Ana uşaqların söhbətini kəsdi:

– Uşaqlar, yeməyinizi yeyin. Mən tələsirəm. Xəstəxanada işim çoxdur... Teymur, bacından muğayat ol.

... Masanın üstündəki boşqabda qaynadılmış yumurta və kartof var idi.

– Mədiş, sən yeyirsən?

– Hə. Nədir, mənim payımı da yemək istəyirsən? Vermərəm.

– Yox. İstəmirəm. Mən öz payımı...

Teymur Mədinənin qulağına nə isə pıçıldadı. Mədinə gülümsədi. Teymurun gözlərinin içinə baxdı:

– Aaaa... Doğrudan?! Mənim də payımı aparaq... Dur, tez elə... İndi gəlib keçərlər...

**Sizcə, Teymur Mədinəyə nə təklif etdi?**

Teymur yeməyi cəld dəsmala bükdü. Bağlamanı götürüb qapıdan çıxdılar...

Yağış yağırdı. Hava əməlli-başlı soyumuşdu. Yola çatanda ikisi də su içində idi. Səkidə dayandılar. Heç nə gözə dəymirdi. Arabir maşınlar şütüyüb keçirdi.

Mədinə kədərlə dedi:

– Yəqin, gecikmişik. Gediblər...

Birdən uzaqda hərbi maşın karvanı göründü. Hər birinin üstünə Azərbaycan bayrağı sancılmışdı.

– Yaxınlaşırlar... Elə etməliyik ki, bizi görüb maşını saxlasınlar.

– Hə... Birdən saxlamazlar. Teymur, tez ol, nə isə fikirləş.

**Siz olsaydınız, maşınları saxlatmaq üçün nə edərdiniz?**

Teymur bacısının qırmızı gödəkcəsinə baxıb birdən qışqırdı:

– Tapdım... Amma gödəkcəni səndən almalı olacağam.

Mədinə gödəkcəni çıxartdı. Teymur tez bir budaq götürüb gödəkçəni ona keçirdi. Yuxarı qaldırıb o tərəf, bu tərəfə yellədi. Maşınlar bir-bir gəlib ötürdü. Teymurla Mədinə qışqırırdılar:

– Əsgərlər, saxlayın. Əsgərlərrr... Nə olar? Görmürsünüz bizi?

Səsləri maşınların və yağışın səsinə qarışıb eşidilməz olurdu.

Sonuncu maşının kabinəsində oturan komandir qəfildən dedi:

– Uşaqlara bax. Yolun kənarında...

– Görürəm, komandir. Atılıb-düşürlər. Dəcəllik edirlər.

**• Söz boğçası •**

- muğayat olmaq
- şütümək



– Yox. Nəsə deyirlər. Hətta...

Komandirin sərt baxışları təbəssümlə doldu:

– Bayraq da düzəldiblər, yelləyirlər. Saxla. Bəlkə, nəsə demək istəyirlər...

Sürücü maşının əyləcini basdı. Komandir atılıb yerə düşdü.

– Salam, uşaqlar. Bu soyuqda, yağışda nə işiniz var?

Teymur irəli keçdi. Əlindəki bağlamanı uzatdı:

– Sizin üçün gətirmişik... Nahar yeməyi... İki kartof, iki yumurta...

Komandir onları bağrına basdı. Bağlamanı aldı.

– Sağ olun, uşaqlar, payınız çox olsun. İndi isə birbaşa evə gedin. Oldumu, qoçaqlar?!

Onun gözləri yaşardı. Kövrəldi. İti addımlarla maşına doğru getdi. Qapını açıb oturanda uşaqlara bir də baxdı. Qəti səslə dedi:

– Biz qələbə çalacağıq.

*Sevinc Nuruqızı*

## Nə anladın?

**B** **Düzgün, yoxsa yanlış?**

1. Komandir uşaqların davranışından təsirləndi.
2. Uşaqların anası xəstəxanada işləyir.
3. Hadisələr yay fəslində baş verib.
4. Teymur bacısından yaşca böyükdür.
5. Uşaqlar hərbçilərə mənəvi dəstək olmaq istəyirdilər.
6. Teymurgilin ailəsi döyüş bölgəsində yaşayırdı.

## Düşün və cavab ver

**C** **Verilmiş hekayə hansı tarixi hadisə ilə bağlıdır?**

**Ç** **Sizcə, nə üçün komandir qələbə çalacağımıza əmin idi?**

**D** **Nəyə görə Teymur diqqəti cəlb etmək üçün bacısının gödəkcəsindən istifadə etdi?**

**E** **Qırmızı rəngdən hansı məqsədlərlə istifadə edilir? Həyatdan nümunələr gətirməklə izah edin.**

**2** **A** **Şəkillərə baxın. Bayrağın hansı məqsədlərlə istifadə edildiyi haqqında danışın.**




**B** **Şəkillər əsasında Türkiyə və Azərbaycan bayraqlarındakı oxşar təsvirlər, onların mənası haqqında bildiklərinizi danışın.**



## BAYRAQLAR

Bayrağın yaranması tarixi qədimdir. Əvvəllər bayraqları gəmilərdə, döyüşlərdə istifadə edərdilər. Zaman keçdikcə bayraqlar xalqların, dövlətlərin simvoluna çevrildi. Bu gün dünyada hər bir dövlətin öz bayrağı var. Bu bayraqlar rənginə və üzərindəki təsvirlərə görə bir-birindən fərqlənir.

Bayraqların üzərindəki təsvirlər hər bir xalqın milli-mənəvi dəyərləri, dini, təbii sərvətləri ilə bağlıdır.

***

Bayraqlarda ən çox istifadə edilən üç rəng – yaşıl, qırmızı və ağ rənglərdir. Qırmızı rəng azadlığı, həmrəyliyi ifadə edir. Ağ rəng saflıq və paklıq rəmzidir. Yaşıl rəng isə daha çox müsəlman ölkələrinin bayraqlarında istifadə edilir və islam dinini ifadə edir.

***

Bəzi dövlət bayraqlarının üzərində Günəş təsviri verilir. Günəş simvolu qədim dövrlərdən istifadə edilir, aydınlığa, işıqlı gələcəyə işarə edir.

Bir çox müsəlman ölkələrinin bayraqlarında istifadə edilən aypara və ulduz din və dövlət simvollarından biridir. Türk dünyasında bu simvollar həmişə müqəddəs sayılmışdır. Zaman keçdikcə məzmununu dəyişərək İslamın simvoluna çevrilmişdir.

***

Bəzi ölkələrin bayraqlarında müxtəlif heyvan, quş və bitki təsvirlərindən istifadə olunur. Bu simvollar həmin ölkənin təbiəti haqqında məlumat verir. Qədimdə türk bayraqlarında təsvir olunan bozqurd azadlığın, hürriyyətin simvolu idi. Bir çox bayraqlarda isə göyərçin sülhə çağırışı ifadə edir.

Son olaraq qeyd edək ki, bəzi simvollar bir çox ölkələrin bayraqlarında təkrar olunur. Bu həmin ölkələrin oxşar mədəniyyətə, yaşayış tərzinə və eyni dinə mənsubluğunu göstərir.

**Söz boğçası**

- hürriyyət
- mədəniyyət
- bozqurd
- mənsubluq



*Argentina*



*Türkmənistan*



*Pakistan*



*Polşa*

## Nə anladın?

**C** **Mətnlə bağlı məlumatlara əsasən cümlələri tamamlayın.**

1. Türkmənistan və Pakistan bayrağındakı yaşıl rəng ....
2. Türkmənistan bayrağındakı naxışlar ...
3. Argentina bayrağında günəş simvolu ...
4. Polşa bayrağındakı qırmızı rəng ...

## Düşün və cavab ver

**Ç** **Mətndə hansı cümlə girişdən əsas hissəyə keçidi göstərir?**

**D** **Mətnin əsas hissəsindəki məlumatlar necə qruplaşdırılmışdır?**

A) Bayraqların formasına və ölçüsünə görə
B) Bayraqların rənginə və üzərindəki təsvirlərə əsasən
C) Dövlətlərin bayraqlarına uyğun olaraq

**E** **Mətnin əsas hissəsindəki məlumatları yarımbaşlıqlarla adlandırın.**

**Ə** **Qruplarla iş**

**Gerblərdə təsvir edilmiş simvolların mənasını təxmin edin və təqdimat hazırlayın.**



*Türkiyə*



*Avstraliya*



*Azərbaycan*



*Gürcüstan*

## Araşdırma

**F** **“Bayraqlar” mövzusunda divar qəzeti hazırlamaq üçün araşdırma aparın.**

**3 A** **Şəkildə Bakının ilk gerbi təsvir edilmişdir. Məlumatları oxuyun və gerbdəki təsvirlərlə uyğunlaşdırın.**



1. Bakı şəhərinin karvan yollarının üstündə yerləşdiyini bildirir.
2. Liman şəhəri olduğunu bildirir.
3. Güc, qüdrət, hökmranlığı ifadə edir.
4. Torpaq altından çıxan qazın rəmzidir.

**B** **Məlumatları oxuyun. Suallara cavab verin.**

**Şəki şəhərinin gerbi**



**Simvollar:**
pələng,
alov,
tut ağacının budağı,
barama.

**Quba şəhərinin gerbi**



**Simvollar:**
pələng,
alov,
sünbül,
Beşbarmaq dağı.

1. Bakı, Şəki və Quba şəhərlərinin gerblərində hansı oxşar təsvirlər verilmişdir?
2. Sizcə, niyə Şəki şəhərinin gerbində barama təsvir olunmuşdur?
3. Sizcə, Quba şəhərinin gerbində sünbül təsviri nəyi ifadə edir?

**C** **Məlumat vərəqi əsasında "Şəhərlərimizin gerbləri" adlı informativ mətn yazın.**

**Ç** **Araşdırma materialları əsasında "Bayraqlar" mövzusunda divar qəzeti hazırlayın.**

# Dil qaydaları

**4 A** **Göy rənglə verilmiş işarələrin hansı məqsədlə işləndiyini söyləyin.**

– Arif, sən muzeydə olmusan?
– Bəli, biz muzeyə tez-tez gedirik.

**• Bunları bilməliyik •** **DEFİS İŞARƏSİ**

• Defis (-) işarəsini tire (–) ilə səhv salmaq olmaz. Defis tireyə nisbətən qısadır. Yazılarkən hər iki tərəfindən boşluq qoyulur.

Defis əsasən aşağıdakı hallarda işlənir:

- mürəkkəb sözlərin tərkib hissələri arasında: tez-tez, qeyri-adi, az-çox.
- ərəb rəqəmləri ilə şəkilçi arasında: 5-ci, 99-cu, 2-si.
- sözün sətirdən sətrə keçirilməsində: mək-təb.

**B** **Defis, yoxsa tire? Səhvləri müəyyən edin və fikrinizi əsaslandırın.**

- Uşaqlar, gəlin qaçdı – tutdu oynayaq.
- Kim birinci tutsun?
- Sanama söyləyək. Bir, iki, bizimki...

**C** **Defislə yazılan mürəkkəb sözləri seçib düzgün yazın.**

*topatopa, ağacdələn, kəklikotu, gecəgündüz, axşamüstü, dosttanış, eveşik, istisoyuq, yeraltı, dərətəpə, enişyoxuş, qabyuyan, qaydaqanun.*

**Ç** **Sayları ərəb rəqəmləri ilə ifadə edib yazın:**

1. Arzu dördüncü sinifdə oxuyur.
2. Arezzo Qvido on birinci əsrdə yaşamışdır.
3. Yarışın doqquzuncu günü komandamız qalib oldu.
4. XVI əsrə qədər Şərqdə Urməvinin not sistemindən istifadə edilib.

**D** **Şəklə əsasən dialoq qurub yazın.**

– *Hörmətli vətəndaş!*
– *Buyurun, cənab polis.*
...



# HƏYATIMIZDAKI İŞARƏLƏR

**1 A** **Sizcə, jestlərdən nə üçün istifadə edilir? Şəkillərdə təsvir edilmiş jestlər nəyi ifadə edir?**







## İŞARƏLƏR DİLİ

İnsanlar müxtəlif dillərdə danışırlar. Bu isə dilini bilmədiyimiz insanı anlamaqda çətinlik yaradır. Ancaq bir dil var ki, onu hamı bilir. Bu, jest və mimika dilidir. Bəzi jestlər var ki, beynəlxalq aləmdə tanınır və gündəlik həyatımızda istifadə edilir.

**"Yüksələn yumruq" işarəsi** əsasən "güc", "birlik" və "dəstək" mənalarını ifadə edir. Bu işarə ilk dəfə İspaniyada istifadə olunmuşdur. Müharibə vaxtı döyüş yerindən təxliyə olunan uşaqlar bu işarə ilə bir-birini həmrəyliyə, güclü olmağa çağırış edirdilər.




**"Qələbə"** işarəsi "qalibiyyət" rəmzidir. Müharibədə, müxtəlif yarışlarda qalib gələn zaman işlədilir. Bu işarə ingilis dilində "qalibiyyət" mənasını verən "victory" sözünün ilk hərfi kimi təsvir edilir.




Bundan əlavə, bir sıra peşə sahələrində istifadə edilən jestlər də var. Gündəlik həyatda istifadə edilən işarələr bəzi peşə sahələrində fərqli mənalarda işlədilir. Məsələn, hamının "mükəmməldir" kimi istifadə etdiyi jesti dalğıclar "Suyun üzünə qalxıram" anlamında işlədirlər.




Kəşfiyyatçıların da xüsusi işarələr sistemi var. Bu jestlər kəşfiyyat zamanı səs salmadan informasiya ötürməyə kömək edir.




Bir çox idman növlərində hamı tərəfindən qəbul olunmuş jestlərdən istifadə olunur. Beynəlxalq yarışlarda müxtəlif ölkələrin nümayəndələri iştirak edir. Jestlər fərqli dillərdə danışan iştirakçılara bir-biri ilə ünsiyyət qurmağa imkan yaradır.



Göründüyü kimi, bəzi jestlər nəinki gündəlik həyatımızda, həm də bir çox peşə sahələrində mühüm əhəmiyyət kəsb edir. Onlar nitqimizin daha təsirli və anlaşıqlı olmasına imkan yaradır.

**• Söz boğçası •**
- təxliyə
- mükəmməl
- dalğıc

## Nə anladın?

**B** **Cümlələri tamamlayın.**

1. Kəşfiyyatçılar jestlərdən istifadə edirlər, çünki...
2. Dalğıclar jestlərdən istifadə edirlər, çünki ...
3. İdmanda xüsusi işarələrdən istifadə edilir, çünki ...

## Düşün və cavab ver

**C** **Mətni yazmaqda müəllifin əsas məqsədi nədir?**

A. Jest və mimika anlayışlarını izah etmək.
B. Jestlərin mənası və əhəmiyyəti haqqında məlumat vermək.
C. Jestlərin yaranma tarixini araşdırmaq.

**Ç** **Sizcə, şəkillərdə təsvir edilmiş jestlərlə hansı fikir çatdırılır? Jestləri cümlələrlə ifadə edib yazın.**

1

2

3

4


**• Nümunə •**

*1. Kəşfiyyatçı demək istəyir ki, dayan, gəlmə.*

**D** **"İlk smaylik" mətnini dinləyin və qeydlər götürün. Götürdüyünüz qeydlər əsasında smaylikin yaranması haqqında danışın.**



## Araşdırma

**E** **Verilmiş mövzularda plakat hazırlamaq üçün işarə və simvolların şəkillərini toplayın.**

- Evdə təhlükəsizlik qaydaları
- Yenidən istifadə və təbiətin müdafiəsi
- Düzgün qidalanma
- Virus və xəstəliklərdən qorunma

**2 A** Plakat hansı mövzuda hazırlanıb? Mövzuya aid məlumat vermək üçün hansı işarələrdən istifadə olunmuşdur? Həmin işarələrin mənası haqqında danışın.




**B** Sizcə, nə üçün suyun əhəmiyyəti haqqında hazırlanmış plakatda məlumatların çoxu işarələrlə verilib?

**• Faydalı məsləhət • PLAKATDA İŞARƏLƏR**

Plakatlarda fikri qısa və konkret ifadə etmək üçün işarələrdən istifadə edilir. Bu, məlumatların asan qavranmasına və yadda saxlanmasına kömək edir.

**C** Plakatda verilmiş məlumatları rabitəli mətnə çevirib yazın.

## Təqdimat

**Ç** Qruplarla iş. **Verilmiş mövzularda plakat hazırlayın. Plakatı tərtib edərkən uyğun işarə və simvollardan istifadə edin.**

1. Evdə təhlükəsizlik qaydaları
2 Yenidən istifadə və təbiətin müdafiəsi
3. Düzgün qidalanma
4. Virus və xəstəliklərdən qorunma

## 3 A Buta naxışı haqqında nə bilirsiniz?

**BUTA**

Buta Azərbaycan xalçalarında və milli geyimlərdə ən çox istifadə olunan naxışlardan biridir. Butanın mənası və yaranma tarixi ilə bağlı müxtəlif fikirlər var.

"Buta" sözünün bir mənası "qönçə" deməkdir. Həqiqətən, buta qönçəni, gül ləçəyini xatırladır.

Bəzi tədqiqatçılar alov diliminə bənzədiyinə görə butanı od, alov rəmzi kimi qəbul edirlər. Digərləri isə butanı tovuz quşunun təsviri ilə bağlayırlar. Doğrudan da, xalçalarımızda bu quşun təsvirinə tez-tez rast gəlinir. Güman etmək olar ki, sonradan tovuz quşunun rəsmi sadələşdirilmiş və buta ilə əvəz edilmişdir.



*"Buta"*

Belə bir fikir də var ki, buta 9 rəqəmindən yaranmışdır. Bu ədədi istənilən başqa ədədə vurduqda alınmış ədədin rəqəmlərinin cəmi doqquza bərabər olur: $9 \times 3 = 27$ ($2 + 7 = 9$), $9 \times 7 = 63$ ($6 + 3 = 9$) və s.

Doqquz yeganə belə rəqəmdir, buna görə də bir çoxları onu müqəddəs rəqəm hesab edirlər.

Hazırda üzərində buta təsviri olan yüzlərcə Azərbaycan xalçası dünyanın məşhur muzeylərini bəzəyir.

*Rafiq İsmayılov*

**B** **Mətndə buta ilə bağlı hansı mülahizələr verilmişdir? Siz hansı fikirlə razısınız?**

**C** **"Buta" mətnini yazmaqda müəllifin məqsədi nədir?**

**Ç** **Sizcə, xalçalar üzərində təsvir edilmiş "əl-ələ tutan insanlar" və "dəvə karvanı" nəyi ifadə edir?**





**D** **"Naxışların dili" adlı mətni dinləyin və qeydlər götürün.**

# Ümumiləşdirici təkrar

**A** **Cümlələrin sonuna uyğun gələn durğu işarələrini müəyyən edin. Fikrinizi əsaslandırın.**

1. Bəs sən bunu bilmirdin
2. Ura biz qalib gəldik
3. Kitabxana saat neçədə açılır
4. Dərsə vaxtında gəl
5. Bəh-bəh quşlar nə gözəl oxuyur

**B** **Fərqləndirilmiş sözləri sual sözləri ilə əvəz etməklə sual cümləsi yaradın.**

1. Məktəbimiz ***yeni*** binaya köçüb.
2. Feilin ***üç*** zamanı var.
3. Şagirdlər ***ekskursiyaya*** gedirlər.
4. Ovçular meşəyə ***axşam*** yetişdilər.
5. ***Kəndə*** sabah gedəcəyik.
6. Azərbaycanın paytaxtı ***Bakı şəharidir.***

**C** **Cümlələrdə vergülün yerini müəyyənləşdirin və funksiyasını izah edin.**

1. Bu çoxdan oxuduğum kitabdır.
2. O birinci dərsə gecikdi.
3. O yuxarıdakı rəfdən bir kitab götürdü.
4. Bu heroqliflər haqqında məqalədir.

**Ç** **Cümlələrdə üç nöqtənin funksiyasını izah edin.**

1. Səməd Vurğun yazırdı: " ... Azərbaycan xalqı qəhrəman və yaradıcı xalqdır".
2. Sən niyə gecikmisən?
...
Səninlə deyiləm?
3. Anar... Anarı... Heç yerdə tapa bilmirəm...

**D** **Mavi boşluqların yerinə uyğun durğu işarələrini əlavə edərək mətni köçürün.**

Qonşu qadın Hatəmdən bir qaşıq bal istəyir ☐ O isə qadına bir çəllək bal verir ☐

Ondan soruşurlar ☐

☐ Ay Hatəm ☐ nə üçün bir çəllək bal verdin ☐ Axı o ☐ bir qaşıq bal istədi ☐

Hatəm deyir ☐

☐ O ☐ ehtiyacına görə istədi ☐ mən isə imkanıma görə davrandım ☐

# I YARIMİL ÜZRƏ ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**A** **Düzgün, yoxsa yanlış?**

1. "Konsert" sözündə "o" hərfi "a" kimi tələffüz edilir.
2. "Aynur sabah gedəcək" cümləsində "sabah" sözü hərəkətin tərzini bildirir.
3. "Əmim bizə gəldi" cümləsində "bizə" sözü cümləni genişləndirir.
4. *Anaya, meşəyə, geyimə* sözləri təsirlik haldadır.
5. "Mən tələbəyəm" cümləsində ismi xəbər işlənmişdir.

**B** **Cümlələrdəki frazeoloji ifadələri bir sözlə əvəz edib köçürün.**

1. Bu mənzərəni görəndə ürəyim açıldı.
2. Babam bağda işləyəndən sonra taqətdən düşmüşdü.
3. Aynur yalan söylədiyi üçün xəcalət çəkdi.
4. Anam bu xəbəri eşidəndə qanı qaraldı.
5. Rauf uzun müddət ağzına su alıb oturdu.

**C** **Sifətləri azaltma (A) və çoxaltma (Ç) dərəcəsində işlədib cümlələri köçürün.**

**• Nümunə •**

Ağacın yarpaqları yamyaşıl idi.

| | |
|---|---|
| 1. Ağacın yarpaqları yaşıl idi. | (Ç) |
| 2. Samirə ağ paltar geyinmişdi. | (Ç) |
| 3. Bayrağın rəngi mavidir. | (A) |
| 4. Ana körpəyə şirin çay verdi. | (A) |
| 5. Onun köynəyi təmiz idi. | (Ç) |

**Ç** **Cümlələrdən mübtəda və xəbəri seçib yazın.**

1. Taxıl zəmisi dəniz kimi dalğalanırdı.
2. Anarın anası xəstəxanada işləyir.
3. Dağın arxasından günəş boylandı.
4. Dəyirmançı buğdanı üyütdü.
5. Vətən hər şeydən əzizdir.
6. Naxçıvan qədim şəhərdir.

**D** **Verilmiş söz birləşmələrini cədvəl üzrə qruplaşdırın.**

| | | |
|---|---|---|
| gözəl qız<br>astadan danışmaq<br>maraqlı kitab<br>sürətlə qaçmaq | böyük ölkə<br>maraqla dinləmək<br>şirin meyvə<br>yaxşı insan | gözəl görünmək<br>ucadan gülmək<br>yaxşı oxumaq<br>rəngbərəng güllər |

| Tərkibində sifət var. | Tərkibində zərf var. |
|---|---|
| | |

# İzahlı sözlük

**aciz** – əlindən iş gəlməyən, bacarıqsız, zəif, yazıq, fağır, məzlum, əlsiz-ayaqsız.

**akkord** – bir neçə musiqi səsinin həmahəngliyi və vahid səs kimi qavranılması.

**alışmaq** – odlanmaq, alovlanmaq, od tutub yanmaq.

**atəşkəs** – müharibə aparan tərəflər arasında döyüşlərin müvəqqəti dayandırılması.

**bani** – bir şeyin əsasını, təməlini, bünövrəsini qoyan; quran, yaradan.

**bədheybət** – qorxunc, dəhşətli; çirkin, eybəcər.

**bərbər** – baş və üz qırxmaq peşəsi ilə məşğul olan adam; dəllək.

**boyun qaçırmaq** – bir işə qarışmamaq, qoşulmamaq, imtina etmək.

**bozqurd** – qədim türklərdə müqəddəs sayılan qurda, canavara verilən ad.

**büzüşmək** – yığılmaq, kiçilmək, solmaq.

**cadugər** – sehrbaz, ovsunçu.

**cəfəngiyyat** – boş, mənasız, dəyərsiz sözlər.

**cürət etmək** – cəsarət göstərmək, qorxmamaq, çəkinməmək.

**çağa** – körpə uşaq.

**çarə** – maneələri aradan qaldırmaq üçün çıxış yolu; tədbir, vasitə, əlac.

**çulunu sudan çıxarmaq** – çətin vəziyyətdən çıxa bilmək; özünü birtəhər dolandırmaq.

**dalamaq** – ətə toxunub gicitmək, yandırıcı ağrı vermək.

**dalğıc** – suyun dərinliyinə baş vurub orada iş görən peşəkar.

**dizayn** – hər hansı informasiya materialının və ya məkanın yüksək zövqlü bədii tərtibatı.

**ədəbiyyat** – bədii, elmi və s. əsərlərin məcmusu.

**ərsəyə gəlmək** – hazırlanıb sona çatdırılmaq, istehsal edilmək.

**əyan** – hökmdar sarayında yüksək təbəqəyə mənsub olan mötəbər adamlar; zadəganlar.

**fərasət** – hər cür vəziyyətdən çıxmaq bacarığı; ağıl, dərrakə.

**fikrə getmək** – düşüncələrə dalmaq, fikirləşmək, düşünmək.

**fitil** – bəzi işıqlandırıcı və qızdırıcı cihazlarda (lampa, şam və s.) yanan lent, ip, qaytan.

**funksiya** – vəzifə, rol.

**gərgin** – sıxıntı içində olan, həyəcan keçirən.

**gərnəşmək** – yorğun və ya yuxusuz olarkən qollarını qaldıraraq sinəni qabartmaq.

**gicitkən** – gövdə və yarpaqlarında dalayıcı tükləri olan ot bitkisi.

**götür-qoy eləmək** – ətraflı fikirləşmək, ölçüb-biçmək.

**göyərtə** – gəminin üst hissəsindəki açıq sahə.

**gözdən keçirmək** – ötəri baxmaq, yoxlamaq.

**hakimiyyət** – idarə etmək səlahiyyəti, iqtidar.

**hali olmaq** – xəbəri olmaq, agah olmaq, bilmək, öyrənmək.

**həsir** – yerə sərmək bəzi ağacların liflərindən, qamışdan və s.-dən toxunan məmulat.

**heyət** – hər hansı bir təşkilatın, kollektivin tərkibini təşkil edən adamlar toplusu; tərkib.

**hürriyyət** – azadlıq, istiqlal, müstəqillik.

**xalis** – heç bir qatışığı olmayan, saxta olmayan; saf, təmiz, əsl.

**xələl gəlmək** – ziyanı, mənfi təsiri olmaq; qüsurlu olmaq.

**xələt** – bəxşiş, hədiyyə.

**xəlvət** – tənha yer, heç kəs olmayan gizli guşə.

**xor** – hər hansı vokal əsəri eyni vaxtda ifa edən oxuyanlar dəstəsi.

**ilah** – büt, bütlərə aid olan; tanrı, rəbb.

**intizar** – həsrət içərisində gözləmə, səbirsizliklə gözləmə.

**iqamətgah** – yaşayış yeri, məskən; saray, qəsr.

**istehza** – rişxənd, məsxərə, kinayə.

**kaha** – qayalıqda, dağda oyuq; mağara.

**kəhrəba** – sarı və ya sarı-qonur rəngli bərk maddə.

**kilsə** – xristian ibadətgahı, məbədi.

**koma** – çiy kərpic və ya çubuqdan hörülən, üstü qamışla örtülən sadə ev, daxma.

**koramal** – sürünənlər sinfinə daxil olan ilanabənzər ayaqsız kərtənkələ.

**köks** – bədənin boğazdan qarına qədər olan ön hissəsi; döş, sinə.

**qaş-göz eləmək** – qaşlarını və gözlərini oynatmaqla işarə etmək, nə isə anlatmaq.

**qərq olmaq** – suda batmaq, boğulmaq.

**qət etmək** – müəyyən məsafəni keçmək, yol getmək.

**qəzet** – iri ölçülü səhifələrdə məqalələr dərc edən dövri mətbuat orqanı.

**qürur** – iftixar hissi, qürrələnmə.
**mazğal** – qala divarlarında atışma üçün qoyulan deşik.
**meh** – xəfif, yüngül yel, sakit külək.
**mədəniyyət** – toplumun ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin məcmusu.
**mənlik** – şəxsi ləyaqət hissi, heysiyyət, şərəf.
**mənsubluq** – bir şəxsə və ya bir şeyə aid olmaq, aidiyyəti olmaq.
**məqalə** – məcmuə, jurnal və ya qəzetdə dərc olunan müxtəlif mövzularda yazı.
**mərcan** – dənizin dibində qayalara yapışaraq hərəkətsiz həyat sürən dəniz heyvanı.
**məruz qalmaq** – düçar olmaq, uğramaq, tutulmaq, təsiri altında qalmaq.
**miras** – adam vəfat etdikdən sonra varislərə qalan mal, mülk və s.
**mis** – qırmızımtıl metal.
**mızıldamaq** – dodaqaltı danışmaq, anlaşılmaz danışmaq və ya oxumaq.
**modern** – müasir, çağdaş, yeni, dəbdə olan; dövrün tələb və standartlarına uyğun.
**muğayat olmaq** – qorumaq, gözü üstündə olmaq.
**müjdə** – xeyir xəbər, şad xəbər, xoş xəbər.
**münaqişə** – çəkişmə, mübahisə, toqquşma, konflikt.
**mürəbbiyə** – keçmişdə varlı ailələrdə uşaqların təlim-tərbiyəsi ilə məşğul olan qadın.
**naşir** – kitab, jurnal və s. nəşr edən adam.
**nigaran** – təşviş içində, həyəcanlı, narahat.
**nisgil** – keçmişdə baş verənlərlə bağlı ürəkdə çəkilən qüssə, dərd.
**nökər** – ağasına xidmət edən və onun şəxsi tapşırıqlarını yerinə yetirən ev xidmətçisi (oğlan).
**nüfuz** – hörmət, etibar, başqalarına təsir gücü.
**özünü o yerə qoymamaq** – özünü heç nədən xəbəri yoxmuş kimi aparmaq, hisslərini büruzə verməmək.
**pauza** – danışıq zamanı müvəqqəti dayanma, fasilə, ara vermə.
**pər** – quş tükü.
**redaktor** – hər hansı bir yazıda səhvləri düzəldən, materialı təkmilləşdirən adam.
**rəhmdil** – xeyirxah, ürəyiyumşaq.
**rəiyyət** – qədimdə bir hökmdarın tabeliyində olanlar; təbəə.
**rica etmək** – xahiş etmək, təvəqqe etmək, istəmək.

**röya** – yuxu.

**rubrika** – qəzetdə, jurnalda, kitabda müntəzəm təkrarlanan bölmə və guşələr. Məsələn, “Bu maraqlıdır” və ya “Söz boğçası” rubrikası.

**savaş** – müharibə, döyüş, dava.

**səhlənkar** – tapşırılan işə laqeyd, soyuq baxan; diqqətsiz, məsuliyyətsiz.

**səltənət** – padşahlıq, hökmdarlıq.

**sərgüzəşt** – birinin başına gələn hadisə, qəziyyə, əhvalat, macəra.

**sərrast** – dəqiq, düz; hədəfi düz vuran.

**səxavətli** – əliaçıq, pulunu əsirgəməyən, comərd, genişürəkli.

**soy** – əsil, əcdad, əsil-nəsəb, mənşə.

**sözləşmək** – **1.** aralarında söz olmaq, davaları, mübahisələri düşmək, söyüşmək; **2.** razılığa gəlmək.

**suflyor** – tamaşa zamanı rolların sözlərini aktyorlara yavaşcadan (gizlicə) söyləyən şəxs.

**sürgün** – cəzalandırmaq məqsədilə bir şəxsi məcburi surətdə yaşadığı yerdən başqa yerə köçürmə.

**şaxşax** – silkələdikdə içərisindəki xırda daşlardan səs çıxan uşaq oyuncağı.

**şikəstə** – segah məqamında zərbli muğam.

**şütümək** – bərk qaçmaq, sürətlə sürüb getmək.

**tab gətirmək** – dözmək, çətinliyə qatlaşmaq.

**taktika** – bu və ya digər məqsədə çatmaq yolları; vasitə və üsullar.

**tavan** – binanın daxilinin üst örtüsü.

**təbəssüm** – gülümsəmə.

**tədqiq etmək** – elmi cəhətdən araşdırmaq, öyrənmək.

**təmtəraqlı** – zahirən çox dəbdəbəli, təntənəli.

**tiyə** – qılınc, bıçaq və s. kəsici alətlərin kəsən (iti) tərəfi, ağzı.

**ülgüc** – tük qırxmaq üçün iti bıçaq.

**vəsf etmək** – bir şeyi təsvir etmək; tərif etmək.

**yenilməzlik** – məğlubedilməzlik, sarsılmazlıq.

**yuxusuna haram qatmaq** – yatmayıb vacib bir işlə məşğul olmaq.

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün*
*Azərbaycan dili fənni üzrə*
***dərslik***
*Tədris dili*
*(1-ci hissə)*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Rafiq İsmayılov**<br>**Ülkər Nurullayeva**<br>**Şəhla Zahidova**<br>**İradə Bayramova**<br>**Aysel Xanalıyeva**<br>**Könül Cəlilova** |
| **Layihə rəhbəri** | **Rafiq İsmayılov** |
| Dil-üslub redaktoru | **Əsgər Quliyev** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssam | **Elmir Məmmədov** |
| Korrektor | **Aysu Məmmədova** |


**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8402-3-0

Hesab-nəşriyyat həcmi 12,8. Fiziki çap vərəqi 14.
Səhifə sayı 112. Kəsimdən sonra: 220 × 275. Kağız formatı: 57 × 90 $^{1}/_{8}$.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş __. Tiraj: 4000. Pulsuz. Bakı – 2022.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 00.00.2022

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"CN Poliqraf" MMC (Bakı ş., A.M.Şərifzadə küç., 29/31).

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

